də mütləq görməli olan maraqlı yerlər haqqında məlumatlardan istifadə üçün yenə də internetə müraciət edilir. Növbəti addım bilet almaqdır. Bronlaşdırma sistemlərindən istifadə etməklə, həm ölkə daxilində, həm də xaricə çoxlu sayda hava səyahətini nəzərə alaraq, nəyinki uyğun olan gediş və gəliş tarixlərini seçmək, həm də daha rahat uçuş vaxtını seçmək və arzu olunan təyyarədə yerləri əvvəlcədən sifariş etmək mümkün olur. Onlayn hava yolları saytlarının yaranması ilə bütün bunlar daha asan həll edilir. Lazımi biletləri əldə etmək üçün sadəcə olaraq, tələb olunan aviadaşıyıcının saytına daxil olub, interfeys imkanlarından istifadə etmək mümkündür. (Park, S., and D. R. Fesenmaier, 2010) Müstəqil turun yaradılmasında növbəti addım qalacaq yerlərin seçilməsidir. Burada da internet vasitəsi ilə dünyanın istənilən yerində mehmanxana/otel/mənzil/yataqxanada yer seçmək və bronlaşdırma etmək olar. Müvəqqəti yaşamaq yerini düzgün seçmək, mümkün yaşayış variantları ilə tanış olmaq üçün, həmin yeri ziyarət edən digər turistlərin rəylərinə diqqət yetirmək lazımdır. Bu işdə turistə yenə də internet kömək edir. Bunun üçün turist maraqlandığı otelin veb saytına daxil olaraq, onlayn resursdan bütün lazımi məlumatları öyrənə bilər. Burada o, həm endirimli qiymətlərlə çoxlu sayda xüsusi təklifləri izləyə bilər, həm də bu yer haqqında, düzgün seçim etməyə kömək edəcək bir çox başqa məlumatlarla tanış ola bilər. Müasir informasiya texnologiyaları əsrində turisti maraqlandıran bütün məlumatları təkcə kompüterdən deyil, telefon, planşet kimi rahat daşına bilən vasitələrdən də ala bilər. Hazırda maraqlı və maarifləndirici audio bələdçilər var ki, onlarda müəyyən bir mədəni irs haqqında danışan, bütöv bir şəhərin və ya ölkənin tarixindən bəhs edən, əvvəlcədən yazılmış audio kliplər olur. Bu çox rahatdır, çünki, turist istənilən şəhərə səfər marşrutunu ətraflı şəkildə hazırlaya bilər, yol boyu lazımi məlumatları dinləyə bilər ki, bu da onun üçün yalnız səyahətini daha öyrədici və cəlbedici edir. Bu gün telefonlarda iki əsas əsas platforma populyarlıq qazanmışdır: Android və iOS. Bu platformalar "onlayn köşklər"ə çıxışı təmin edir, burada turist istənilən lazımi proqramı, məsələn, audio tur və ziyarət edilən yerlərin ətraflı təsviri ilə xəritəni tapıb yükləyə bilər. Tarixi məkanın yaxınlığında turistin yerini (geolokasiyasını) avtomatik müəyyən edən və obyekt haqqında məlumatı təkrarlayan proqramlar mövcuddur. (Pan, B. and D. R. Fesenmaier, 2006) Beləliklə, demək olar ki, bu gün səyahət planlaşdırarkən hər hansı zəruri məlumatı əldə etməkdə müstəqil turist üçün heç bir maneə yoxdur. İnformasiya texnologiyalarının və internetin inkişafı nəinki hər şeyi təfərrüatı ilə planlaşdırmağa, həm də bunu vasitəçilər və artıq ödənişlər olmadan etməyə imkan verir. Təbii ki, müstəqil turun planlaşdırılmasında seçim həmişə turistin ixtiyarındadır.

# TURİZMİN İNKİŞAFINDA KİTABXANALARIN EKSKURSİYA FƏALİYYƏTİNİN ROLU. KİTAB-XANALARIN EKSKURSİYA FƏALİYYƏTİNİN MARKETİNQ PLANI (TURİZMİN GELİŞİMİNDE KÜTÜPHANELERİN GEZİ FAALİYETLERİNİN ROLÜ. KÜTÜPHANE GEZİSİ FAALİYETİNİN PAZARLAMA PLANI)

**Kəmalə MƏMMƏDOVA**[1]

Kitabxanaların ekskursiya fəaliyyəti müstəqil kitabxana xidmətinin bir növü olmaqla yanaşı, həm də turistik xidmətlər kompleksinin vacib tərkib hissəsi hesab edilir. O turistləri hər hansı bir bölgənin, şəhərin və ya kəndin tarixi, mədəniyyəti, milli adət və ənənələri, etnik tərkibi və s. barədə ətraflı məlumatlandırmağa imkan verir. Kitabxana ekskursiyası-kitabxanalarda bir qrup insanın (ekskursantın) kitabxanaçının rəhbərliyi ilə kitabxananı informasiya sosial institutu kimi öyrənməsi zamanı şəxsiyyətin informasiya mədəniyyətinin formalaşmasına istiqamətləndirilmiş qrup şəklində yaradıcı iş formasıdır. (Сергеева-Христова Л.Е., 2019) Kitabxana ekskursiyalarının əsas məqsədi turizmin istirahət, tədris, elmi-maarifləndirici, mədəni-yaradıcılıq, mədəni-tərbiyəvi və s. kimi funksiyalarını kitabxana fəaliyyəti ilə əlaqələndirmək, bu istiqamətdə yeni kitabxana-informasiya xidmət və məhsullarının inkişafına şərait yaratmaqdır. Kitabxana ekskursiyalarının əsas vəzifəsi isə kitabxanalarda turizmin informasiya təminatı ilə bağlı kompleks işlərin həyata keçirilməsini təmin etməkdir. Kitabxana ekskursiyalar bir qayda olaraq gəzinti, sinif və ya auditoriya hüdudlarından kənar dərslər, ekspedisiyalar, turistik yürüşlər zamanı aparılan söhbətlər, yolüstü ekskursiya informasiyası, xülasə xarakterli çoxplanlı ekskursiya, mövzu ekskursiyası və s. formalarda həyata keçirilir. Bu ekskursiyaların əsas mahiyyətini turistlərin tarix, memarlıq, ədəbiyyat və digər elm sahələri üzrə bilik səviyyəsinin artırılması, diyarşünaslıq muzeyi üçün eksponatların aşkara çıxarılması, dərman bitkilərinin, müxtəlif giləmeyvə və göbələk növlərinin axtarışı, eləcə də hər hansı bir tədris predmeti (botanika, coğrafiya və tarix və s.) üzrə təhsilalanların ətraflı biliklər mənimsəməsi və ümummədəni dünyagörüşününün genişləndirilməsi təşkil edir.

---

[1] Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, kamala.mammadova@admiu.edu.az, ORCID: 0000-0003-1144-5083.

Kitabxanalar bir regionda mədəni turizmin inkişafına təkan verə biləcək faktor ola və beləliklə də, səyahət təcrübəsinin artırılmasında və turistik istiqamətin dərk edilməsində aparıcı rol oynaya bilər. (Roque M.I., Guerreiro D., 2021) Kitabxana ekskursiyalarının təşkili bütün kitabxana kollektivinin bu prosesdə aktiv iştirakını tələb edən mürəkkəb bir xidmət növüdür. Ona görə də onun hər il kitabxanaların cari marketinq planına daxil edilməsi məqsədəuyğun hesab edilir. Kitabxana ekskursiyalarının marketinq planı aşağıdakı mərhələlər üzrə həyata keçirilməlidir:

Ekskursiyasıyanın mövzusunun, məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi;

Ekskursiyanın aparılacağı ərazinin və ya obyektin təyin edilməsi;

Ekskursiyanın mövzusu üzrə informasiya resurslarının axtarışı, seçimi və öyrənilməsi;

Ekskursiyanın məzmun baxımdan işlənilməsi: ilkin mətnin hazırlanması, əraziyə baxış, gəzinti və ya danışıq zamanı istifadə ediləcək metodiki fəndlərin dəqiqləşdirilməsi;

Ekskursiyanın nəticələrinin təhlil edilməsi;

Turistləri və yerli əhalini bütün kitabxana xidmətləri ilə tanış etmək üçün əla marketinq strategiyası işləmək lazımdır. Bu yaxşı düşünülmüş və əlyetər veb-prezentasiya (ona hətta bütün dünyanın əlyetərliyini belə təmin etmək olar); potensial istifadəçilərə elektron məktubların göndərilməsi; turist agentliklərini, təhsil müəssisələrinin və kompaniyaları ziyarət; KİV əməkdaşlarının aktiv hissəsi; reklam vərəqlərinin, broşürlərin, eləcə də digər metodların çapı və yayımı ola bilər. (Tosic M., Lazarevic S., 2010) Kitabxana ekskursiyaları həm xülasə, həm də mövzu xarakterli ola bilər. Xülasə xarakterli kitabxana ekskursiyaları bölgənin (şəhərin, kəndin, yaşayış məntəqəsinin) tarixi, elmi, mədəniyyəti, təhsili, iqtisadiyyatı və s. Haqqında ümumi təsəvvür yaradır. Belə ekskursiyalar müxtəlif tarixi və mədəniyyət abidələrinin, bina və tikintilərin, obyektlərin, tanınmış ərazilərin, sosial rifah elementlərinin, sənaye və kənd təsərrüfatı müəssislərinin və s. Nümayişi əsasında qurulur və xronoloji qaydada şərh edilir. Mövzu xarakterli kitabxana ekskursiyaları tarixi-etnoqrafik, hərbi-tarixi, tarixi-bioqrafik, ekoloji, incəsənət, ədəbi, memarlıq-şəhərsalma və s. mövzulara həsr edilir. Kitabxana ekskursiyaları həm piyada, həm də müxtəlif nəqliyyat vasitələrindən istifadə yolu ilə təşkil edilir. Kitabxana ekskursiyaları formasına görə real və virtual olmaqla iki yerə bölünür. Virtual kitabxana ekskursiyaları müasir informasiya və telekommunikasiya texnologiyalarından istifadə etməklə öyrənilən obyektə xəyali formada ziyarətdi. Virtual ekskursiyalar kitabxana istifadəçilərinə aidiyyatı olmayan geniş insan kütləsinin diqqətini cəlb etmək üçün daha perspektiv hesab edilir. Belə ekskursiyalar məsafə baryerini aradan qaldırır və əlyetərlik zamanından asılı deyil. (Ляпкова А.А., 2019) Real kitabxana

ekskursiyası isə kitabxanaçı-ekskursiyaçı tərəfindən aparılmaqla iki formada-kitabxana daxilində və kitabxanadankənar həyata keçirilir. Kitabxana ekskursiyalarının təşkilində kitabxanaçıların peşə kompetensiyalarının da böyük rolu vardır. Ekskursiya fəaliyyəti həyata keçirən kitabxanaçı mütləq ixtisas təhsilli və peşəkar olmalı, yüksək intellektə, biliyə, yaddaşa və dərin zəkaya sahib olmalıdır. Kitabxanaçının digər keyfiyyətləri: birdən artıq dildə əla danışmaq, xüsusilə də yerli dildə, bəzi hallarda xarici dillərdə, gələcək tədqiqatlar aparmağa və bunu necə edəcəyini bilməyə hazır olmaq, yerli ərazi və icma barədə dərin biliklər və əlbəttə ki, turistlə və ya tur təşkilatçısı ilə iş təcrübəsi. (Adhikary S., Adhikary B., 2021) Göründüyü kimi, kitabxana ekskursiyalarının təsir dairəsi olduqca genişdir. O kitabxana üçün böyük mədəni potensial hesab edilməklə yanaşı, həm də yerli əhalidə öz mədəniyyətini qorumaq, onunla qürur duymaq və öz tarixi köklərinə sahib çıxmaq duyğusu aşılayır.

# ASUDƏ VAXT VƏ MƏDƏNİ İSTİRAHƏTİN TƏŞKİLİNDƏ TURİZMİN ROLU (BOŞ ZAMAN VE KÜLTÜREL DİNLENME ORGANİZASYONUNDA TURİZMİN ROLÜ)

**Prof. İlqar HUSEYNOV**[1]

Turizm insan həyatının vacib və prioritet sahəsi olmaqla yanaşı, daimi yaşayış yerindən başqa bir ölkəyə və ya ölkə daxilində müvəqqəti səyahət etməklə bağlı olan istirahət və asudə vaxt fəaliyyətidir. Mədəni-istirahət sahəsi kimi turizmin özəlliyi ondan ibarətdir ki, bu sahə mədəni dəyərlərin üzərində və ətrafında cərəyan edir. Yəni tarixi, mədəni, təbiət abidələri; muzeylərlə və etnoqrafik xarakterli mədəni proqramlarla qarşılıqlı əlaqə olmadan bu sahəni təsəvvür etmək mümkün deyil. Turizmi sosial-mədəni fəaliyyət sahəsi kimi araşdırmaq üçün “asudə vaxt”, “mədəni-istirahət fəaliyyəti”, “mədəniyyət”, “turizm və ekskursiya” və s. bu kimi anlayışlara xüsusi diqqət yetirmək lazımdır (Maksutina, 2010, s.1). Asudə vaxt anlayışı sosiologiya, pedaqogika, tətbiqi kulturologiya və estetikada mühüm əhəmiyyət kəsb edir. Məsələn, tətbiqi kulturologiyada “asudə vaxt, sosial-mədəni fəaliyyətin bir növü kimi nəzərdən keçirilir” (Məmmədov və b., 2004, s.199). Asudə vaxt istirahət və əyləncə ilə yanaşı həm də rekreasiya funksiyasını yerinə yetirir. “Turizmin təşkili, əslində hər bir fərdin asudə vaxtının mədəni təşkili forması kimi nəzərə çarpır” (Hüseynov, Əfəndiyeva, 2007, s.35). Asudə vaxtın aktiv forması olan turizm əmək ehtiyatlarının bərpası yolu ilə ictimai sərvətin artmasına kömək edir. Turizm insanın mədəni fəaliyyətində və onun həyati qüvvələrinin inkişafında əsas amillərdən biri kimi çıxış edir. Turizm başqa bir mədəniyyəti tanımaq üçün ən yaxşı vasitədir və insanın şəxsi inkişafı, yaradıcılıq potensialının artırılması, bilik üfüqünün genişlənməsi üçün geniş imkanlar yaradır. Başqa ölkənin mədəniyyəti və adət-ənənələri ilə tanış olmaqla insan mənəvi dünyasını zənginləşdirir. “Hər bir turist öz fərdi maraqlarından asılı olaraq gəzdiyi yerlərin tarixini, mədəniyyətini, milli xüsusiyyətlərini, adət və ənənələrini və s. öyrənməyə can atır” (Həsənli, Qılıncov, 2019, s.149). Asudə vaxt, müxtəlif sosial qrup nümayəndələrinin istirahət-əyləncə şəraitində öz maddi və mənəvi ehtiyaclarını ödəməyə çalışan, fiziki və zehni yorğunluğu aradan qaldırmağa yönəldilən bir mədəni fəaliyyət sahəsidir. “Asudə vaxt, insanların iş vaxtından sonra olan vaxtıdır” (Karaküçük, 1997:21,51). İstirahətin maddi sərvətlərinə asudə vaxtın keçirilməsinə imkan

[1] Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, ilqar.huseynov.65@inbox.ru, ORCID: 0009000496345560.

verən müxtəlif təbii və sosial-mədəni mühit obyektləri daxildir. Mənəvi asudə vaxt dəyərləri asudə vaxt sferasında məişət, interaktiv, sosiallaşma və digər ehtiyacların həyata keçirilməsinə əhəmiyyətli təsir göstərən terminal dəyərlər toplusudur. İstirahət fəaliyyətinin bir növü kimi turizm sahəsindəki dəyərlər müalicəyə, idmana, təhsilə, biliklərə, əyləncələrə, sevdiyiniz işlə məşğul olmağa, habelə özünü ifadə etmək, özünü təsdiq etmək ehtiyaclarını ödəməyə imkan verir. "İstirahət uşaqlar, yeniyetmələr, böyüklər, kişilər, qadınlar, əlillər, qocalar, xəstələr, eləcə də hərbi, sənaye və ticarət sahəsində çalışanlar üçün böyük əhəmiyyətə malikdir" (Orel, Yavuz, s.63). Asudə vaxt fəaliyyətinin bir növü kimi turizmin sosial-mədəni potensialı insanların turizm xidmətlərinə olan tələbatını ödəmək üçün əyləncə, rekreasiya-idrak, sağlamlıq, tibbi, peşəkar, işgüzar və digər imkanların olmasını vacib hesab edir.Onlar müxtəlif sosial subyektlərin fərdi meylləri, habelə sosial-iqtisadi vəziyyəti nəzərə almaqla həyata keçirilir. Ehtiyacların müxtəlifliyi müasir turizmin müxtəlif növlərinin inkişafını səciyyələndirir və onun sosial-mədəni potensialının geniş spektrini müəyyən edir. Sosial-mədəni potensialın reallaşdırılması dərəcəsi fərdin asudə vaxt fəaliyyətinin bir növü kimi turizmin sosial-mədəni səmərəliliyində ifadə olunur və rekreasiya, idrak, hedonistik, mədəni və inkişaf kimi mühüm məqsədlərə nail olmaqla əlaqələndirilir. Turizm asudə vaxtın struktur elementi və səyahətin xüsusi növü kimi tanınsa da, turizmi həyatın müstəqil sahəsi kimi də fərqləndirirlər. Bunu, turizmin cəmiyyətdəki rolunun artması ilə əlaqələndirirlər. Müasir şəraitdə turizm insan həyatının ayrılmaz hissəsi və asudə vaxt sferasında sosial-mədəni dəyərlərin reallaşdırılmasının təsirli vasitələrindən biridir. "Turizm və ekskursiyalar istirahət növü kimi insanın dünyagörüşünü formalaşdırır" (Raximova və b., 2019, s.1). İstirahətin reallaşdırılmasında turizmin mövcud imkanlarının təhlili, sosial-mədəni və subyektiv fəaliyyət yanaşmalarından istifadə etmədən mümkün deyil. Onlar müəyyən bir sosial-mədəni mühitin mövcudluğunu, habelə turist fəaliyyətinin xüsusiyyətlərini və onun motivasiya komponentini nəzərdə tutur. Bu yanaşmalar sayəsində turizm istirahət sahəsində müxtəlif şəxsi dəyərlərin həyata keçirilməsinə yönəlmiş fəaliyyət növü kimi də xarakterizə edilə bilər. Mədəni dəyərlər müxtəlif sosial qruplardan olan insanların asudə vaxt şəraitində hər hansı maddi və ya mənəvi ehtiyaclarını (müalicə, sağlamlığın möhkəmləndirilməsi, təlim, bilik, hobbi) ödəyən müxtəlif insan fəaliyyətinin obyektləridir. Turizm təkcə asudə vaxtdan istifadə ilə bağlı deyil, həm də təhsil fəaliyyəti və yığılmış mədəni dəyərlərin inkişafı kimi sosial ehtiyacların ödənilməsinə xidmət edir. Mədəni və istirahət fəaliyyəti turistləri mədəniyyətlə tanış etmək, onlarda yeni mənəvi tələbatları inkişaf etdirmək və yaratmaq üçün ən mühüm vasitələrdən biri kimi dəyərləndirilir. Bu baxımdan turizm, həm də mədəni fəaliyyətin ən yüksək keyfiyyət göstəricilərindən biridir. "İstirahət turizmi, insanların könüllü olaraq boş vaxtlarında məmnuniyyətlə etdikləri, xoş və mənfi təsirləri olmayan fəaliyyət növü kimi müəyyən edilir" (Shivers, DeLisle, 1997:102). Ümumiyyətlə, ən səmərəli və sosial əhəmiyyətli istirahət-əyləncə

növləri arasında turizm bu gün xüsusi yer tutur. İstirahət-əyləncə və turizm arasındakı əlaqənin nəzərdən keçirilməsi bizə turizm fəaliyyətinin mahiyyətinə daha dərindən nüfuz etməyə və onun sosial-mədəni komponentlərini daha aydın şəkildə təqdim etməyə imkan verir. “Turizm iqtisadi, istirahət isə sosial” mahiyyət kəsb edir (Rəcəbli, 2022, s.280). Turizm fəal istirahət forması və fərdin bilik, mənəvi və mədəni inkişaf, ünsiyyət, əyləncə vasitəsi olmaqla yanaşı, insanların sosial-iqtisadi və mənəvi ehtiyaclarının ödənilməsinə yönəlmiş XXI yüzilliyin fenomen hadisəsi hesab edilir.

# İQLİM DƏYİŞİKLİKLƏRİNİN TƏBİİ ANTROPOGEN SİSTEMLƏRLƏ ƏLAQƏSİ (İKLİM DEĞİŞİKLİĞİNİN DOĞAL ANTROPOJENİK SİSTEMLERLE İLİŞKİSİ)

**Rəhim HƏSƏNOV**[1]

Yerin tarixində çoxlu iqlim dəyişiklikləri baş verib və Yerin radiasiya balansındakı dəyişikliklər keçmiş iqlim dəyişikliklərinin əsas hərəkətverici qüvvəsi kimi çıxış edib. Buz dövrünün başlanğıcından son 3 milyon ilə qədərki dövrdə baş verən iqlim dəyişiklikləri Milankoviç dövrü adlanır. Milankoviç dövründə Yerin Günəş ətrafındakı orbitindəki dövri dəyişikliklərlə əlaqəli olduğuna dair kifayət qədər sübutlar var. Sənayedən əvvəlki dövrdə iqlim dəyişiklikləri əsasən təbii mahiyyət kəsb edirdi və bu dövrdə dəyişikliyinin mühüm səbəblərindən biri də Günəş enerjisi ilə bağlıdır. Son illər planetimizdə qlobal xarakterli iqlim dəyişiklikləri baş verir. İqlim dəyişiklikləri təkcə atmosferə deyil, həm də biosferə, hidrosferə, kriosferə təsir etmiş, insan həyatının bir çox sahələrinə nəzərəçarpacaq dərəcədə təsir edir. Bu amillər dünya elmi ictimaiyyətinin müvaiq problemə diqqətinin artmasına səbəb oldu ki, nəticədə Ümumdünya Meteorologiya Təşkilatı və Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) çərçivəsində 1988-ci ildə İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panel (IPCC) yarandı (Paglia and Parker, 2021, s.295). Bu qurumun nüfuzlu hesabatları iqlim dəyişikliyi ilə bağlı beynəlxalq siyasətlə bağlıdır. Müvafiq qurumda hərtərəfli hesabatlar hazırlamaq üçün təşkilata üzv hökumətlər və minlərlə ekspert arasında konsensus tələb olunur. Hazırda iqlim dəyişikliyi antropogen fəaliyyətlərin ekosistemlərə və regionların davamlı inkişafına təsirinin qiymətləndirilməsi problemi aktual xarakter kəsb edir. Bu qəbildən olan tədqiqatların əhəmiyyəti, əsasən, təbii iqlim dəyişkənliyi fonunda antropogen siqnalın təcrid olunması problemləri ilə əlaqədar instrumental müşahidələr əsasında müxtəlif vaxt miqyasında regional iqlim meyllərinin və təbii iqlim dəyişmələrinin təhlilinin zəruriliyi ilə müəyyən edilir. "Son 150 ildə Yer atmosferində karbon qazının miqdarında davamlı artım və atmosferin səth təbəqələrinin orta illik qlobal temperaturunda artım müşahidə olunur" (Qalyuzin və Lobikova, 2010, s.161). Qlobal iqlim dəyişikliyi ilə insan fəaliyyəti arasındakı əlaqəni sübut etmək üçün ilk növbədə, qlobal iqlim dəyişikliyinin mahiyyətini müəyyənləşdirmək lazımdır. İqlim dəyişikliyi həm insan amilləri, həm də təbii səbəblərin təsiri altında baş verə bilər. Antropogen amillər, bunlar insanın fəaliyyəti nəticəsində meydana

[1] Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, hesenli.82@inbox.ru, ORCID: 0000-0001-5104-9582.

çıxan, ətraf mühitə və bu mühitdəki orqanizmlərə təsir edən amillərdir. Təbii amillərlə müqayisədə antropogen amillər biosferin vəziyyətini qısa müddət ərzində dəyişə bilir. “Yerin 4,6 milyard illik geoloji tarixi boyunca təbii amillər və proseslər sayəsində iqlim sistemində çoxlu dəyişikliklər baş vermişdir” (Türkeş, 2008, s.28). Bu proseslərdə baş verən dəyişikliklər bütün dünyada ekoloji fəaliyyət göstərən (hidrometeoroloji, seysmik, ionosfer və s.) sistemlər tərəfindən izlənilir. “Həm insanın antropogen fəaliyyəti, həm də təbii fəlakətlər nəticəsində Yer, onun atmosfer və hidrosfer təbəqələri tullantılarla həddindən çox çirklənmiş və ekoloji tarazlığın normal ahəngi tamamilə pozulmuşdur” (Hüseynov, 2010, s.11). Ümumiyyətlə, müasir iqlim dəyişikliyi təbii səbəblərlə insanların birgə fəaliyyətinin nəticəsində baş verir, lakin bu səbəblərin bir-biri ilə necə əlaqəli olması və onlardan hansının daha vacib olması elmi cəhətdən araşdırmalıdır. Buna baxmayaraq, demək olar ki, antropogen qlobal istiləşmə konsepsiyası Kopenhagen Konfransında geniş müzakirə obyektinə çevrilmişdir (Nordhaus, 2010). Bir çox amillər iqlimə təsir etməkdə davam etsə də, elm adamları insan fəaliyyətini əsas qüvvə kimi müəyyən ediblər. İnsan tərəfindən törədilən iqlim dəyişikliyi əsasən atmosferdəki istixana qazlarının tərkibindəki dəyişikliklər nəticəsində baş verir.Bundan əlavə, torpaqdan istifadənin dəyişməsi də iqlim dəyişikliyinin mühüm səbəblərindən biridir. Avrasiyanın mərkəzi hissəsində troposfer havasının tərkibinin eksperimental tədqiqatları onun tərkibindəki CO2 miqdarının davamlı olaraq artdığını göstərdi. Belə ki, ötən əsrin son 20 illərində bu sahədə CO2-nin artımı 13%-dən çox olmuşdur (Perevedentsev, 2001, s. 27-28). Ümumiyyətlə, “təbii və antropogen mənşəli aerozollar iqlim sisteminin radiasiya rejiminə isti mövsümdə, xüsusilə yayda təsir edirlər” (Əhmədov və Əhmədova, 2019, s.124). Yer səthinin orta illik temperaturunun müvəqqəti dinamikasında qlobal istiləşmə sürətinin on ildən artıq davam edən fasilələri və ləngimə dövrləri aydın görünür. Sonuncu dəfə Yer kürəsində qlobal temperatur artımı 1998-ci ildən 2014-cü ilə qədər baş vermişdir (Lısenko və Loginov, 2018, s.1). Bu fenomeni izah etmək üçün müşahidə məlumatlarına və kompüter modelləşdirməsinə əsaslanan bir çox nəzəriyyələr irəli sürüldü. Əsaslandırılmış fərziyyələr okean temperaturunda və onun sirkulyasiyasında uzunmüddətli dövri dəyişikliklərin iqlimə təsiri ilə bağlıdır. Bununla belə, bu okean təsirinin mexanizmi məsələsi mübahisəli olaraq qalır və diqqətlə öyrənilməsini tələb edir. “Təbii proseslərin tədqiqində kosmik informasiyalar” mühüm rol oynayır (Xəlilov və Zeynalova, 2013, s.173-174). Ümumiyyələ, iqlim dəyişiklikləri bütün yer üzündə və ya onun geniş ərazilərində iqlim şəraitinin uzunmüddətli (on ildən çox) və ya ritmik (geoloji vaxt, tarixi vaxt) dəyişməsidir. Paleocoğrafi tədqiqatlar əsasında müəyyən edilmiş geoloji iqlim dəyişiklikləri sübut edir ki, Yer kürəsinin tarixində uzun müddəti istiləşmə və soyuqlaşma dövrləri olmuşdur. Həm isti, həm də soyuq dövrələr qlobal iqlim dəyişikliyə, eyni zamanda flora və faunaya təsir göstərir. “Qlobal iqlim dəyişikliyi dağlıq bölgələrdə növlərin yayılmasına əhəmiyyətli dərəcədə təsir göstərəcək ki, bu da endemik növlərin bolluğunun azalmasına və hətta nəsli kəsilməsinə səbəb ola

bilər" (Demir, 2009, s.46). İqlim dəyişikliyi problemi iqtisadiyyatın çoxsaylı sahələrinə və beynəlxalq təhlükəsizliyə təsir edir və buna görə də dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Son illərdə qlobal ekoloji monitorinq sistemi xüsusilə atmosferin, okeanın, kriosferin və biosferin məsafədən zondlanması baxımından intensiv şəkildə tətbiq olunur.

# МЕЙМАНКАНАЛАРДА ЭРТЕМДЕРДИН УЮШТУРУУЛУШУНУН ТАЛДООСУ: БИШКЕК Ш. МИСАЛЫНДА (OTELLERDEKİ ETKİNLİK ORGANİZASYONUNUN ANALİZİ: BİŞKEK SH. ÖRNEĞİ)

**ага окутуучу**[1]
**ага окутуучу э.и.к.**[2]
**доц., PhD**[3]

“Завтраки” аттуу термин el-sozduk.kg онлайн котормо платформада “эртең мененки тамактануу” жана “эртем” деген котормосу берилген, булардын ичинен эл арасында кыскартылган формасы жеңил калыптанып жана кеңири колдонуу максатта бул изилдөө иште “эртем” катары колдонууну сунуштайбыз.Бүгүнкү күндө дээрлик баардык мейманканаларда эртемдерди сунуу кызматы көрсөтүлөт, жадакалса эң жөнөкөй жана чакан мейманкана болсун салттуу түрдө бай эртемдерди уюштуруп бергене аракет кылышаары анык. Чындыгында эртемдердин уюштуруу чоң мааниге ээ, статистика боюнча үйлөрүндө эртемедерди колдонбогон кардарлар мейманканада сунулган эртемдерден баш тартышпайт. Дал эртемдер боюнча кардар мекеменин тамак-бөлүмү гана эмес жалпысынан мейманкана жөнүндө баа берет. Эртемдерди уюштуруп берүү мейманкана үчүн туруктуу кошумча киреше булагы болуп саналат. Эртемдер-бул биринчи тамак жана туура тамактануунун маанилүү бөлүгү гана эмес, мейманкананын имиджинин ажырагыс бөлүгү деп эсепетелинет (HORECA, 2015). Кыргыз Республикасынын Статистика комитетинин маалыматтарына таянсак туризм чөйрөсүндө катталган чарба жүргүзүүчү субъектилер (юридикалык жана жеке жактар) жалпы мамлекетте 2018-ж. карата 1220 мейманкана түзсө, ал эми 2022-ж 1439 мейманкана түздү, бул 17 % көбөйгөнүн көрсөтүүдө. Ал эми Бишкек шаарын карасак, 2018-ж. караганда 2022-ж мейманканалардын саны 20 % көбөйгөнүн байкасак болот (КРУСК, 2022). Демек мейманканалар кызмат сунуу рыногунун

[1] Кыргыз-Түрк Манас университети, nadira.turganbaeva@manas.edu.kg, ORCID ID: 0000-0002-7620-9236

[2] Кыргыз-Түрк Манас университети, gulmira.samatova@manas.edu.kg, ORCID ID: 0000-0002-7237-9510

[3] Кыргыз-Түрк Манас университети, Нежметтин Эрбакан университети, usormaz@er-bakan.edu.tr, ORCID ID: 0000-0001-7514-1500

дээрлик чоң үлүшүн түзөт, аны менен бирге атаандаштыктын курчуп турганыдыгы белгилүү. Бишкек шаарында жайгашкан ири мейманканаларда эртемдерди сунуу кызматтарын анализин жүргүзүүгө белгилүү https://www.booking.com/ платформада эң популярдуу эл аралык чынжыр мейманаканалардын тармагына кирген Hyatt Regency (Hyatt,2022) жана Sheraton Bishkek (Sheraton, 2022) отелдер тандалган жана жергиликтүү мейманканалардын эң белгилүү Garden Hotel & SPA (Garden, 2022) жана Orion Hotel Bishkek (Orion,2022) мейманканалар тандалган. Аталган мейманканаларында эртемдердин уюштуруулушун талдоо жүргүзүүгө Booking.com платформада мейманканалар тууралуу коноктордун сын-пикирлери дагы эске алынды жана мейманканалардын менеджерлердин уруксаты менен ар бир аталган жайларда мониторинг жүргүзүлдүү. Натыйжада көрсөтүлгөн кызматтардын сапатын жакшыртууга жана коноктордун керектөөлөрүн канааттандырууга олуттуу таасир тийгизе турган маанилүү тыянактар алынды. Биринчи маанилүү аспект - эртемдердин түрдүүлүгү жогоруу десек жаңылышпайбыз, өзгөчө Garden Hotel & SPA чакан жергиликтүү ишканага кардарлар тарабынан берилген пикирлер алынды. Бишкек шаарындагы мейманканаларда салттуу түрдө швед үстөлү тартуулангадыгы, бирок ошол эле учурда улуттук кулинардык даамдардын кеңири сунушталбагандыгы аныкталды; мейманканаларда эртемдерди ийгиликтүү уюштуруунун негизги элементинин бири сунулган өнүмдөрдүн структуралаштыруу болуп саналат. Дан азыктар, суусундуктар, жаңы жемиштер, сыр жана колбаса, жашылчалар жана башка азыктар үчүн өзүнчө текчелерде жайгаштыруу конокторго тандап алуу мүмкүнчүлүк берилиши керектиги; эртемдерди уюштурууда негизги тенденцияларга, сапаттуу, дени сак жана пайдалуу азыктарга орун берилиш керек экени белгиленди, алардын ичинен жергиликтүү кычкыл сүт азыктары (био-кефир жана аз майлуу йогурт), кургатылган жемиштерди, дан азыктарды колдонууну сунушталды; кызматкерлер үчүн тийиштүү, кызмат көрсөтүү тренингдерди өткөрүлүшү керектүүлүгү белгиленди; коноктордун пикирлерин жана алардын эртемдер боюнча сунуштарын кабыл алуу жана ошол багытта керектүү иш чараларды иштеп чыгуу; мейманканалар коноктордун белгилүү бир диний же гастрономиялык артыкчылыктарынын негизинде атайын эртемдердин менюсун камсыз кылуу зарыл. Аларга вегетариандык меню, адал азыктары бар меню же ар кандай улуттук ашканалардын тамактары сунуштоо керектиги белгиленди. Жалпысынан, Бишкек шаарындагы мейманканаларда эртемдерди уюштуруунун талдоосунда эл аралык практикада колдонуп келген швед үстөл колдонулуп келет, ал эми жакшыртуу үчүн бир канча пункттар бар экендигин көрсөттүүлүдө. Тамак-аштын тандоосун жана сапатын жогорулатууга, эртемдерди уюштуруу талаптары чакан жана ири мейманканалар үчүн бирдей иштерди жүргүзүү

керек экен деп тыянак чыгарууга болот: улутубуздун тамактануу маданиятын таанытуу иш-чараларына көмөк көрсөтүүгө өбөлгө түзүлөт деген ой пикир менен этно-эртемдерди жана улуттук тамак-аштарды сунуштоо боюнча менюларын жана программаларын киргизүү; бөлмөнүн жетиштүү жарык жана мейкиндик, жакшы желдетүү керектиги. Ар түрдүүлүк жана тандоодо керектөөчүлөрдүн ар кандай каалоолорун жана муктаждыктарын сунуу үчүн тамак-аш жана суусундуктардын кененчилиги, мейманканага киреше алып, тейлөө рыногунда жогорку имиджин камсыз кылат деген шеничтебиз.

# AN ASSESSMENT OF MEDİCAL TOURİSM SATİSFACTİON: THE CASE OF ASTANA (MEDİKAL TURİZM MEMNUNİYETİNİN DEĞERLENDİRİLMESİ: ASTANA ÖRNEĞİ)

**Doç. Dr. İlker TÜRKERİ**[1]

Health tourism is when people move away from their permanent residence and travel to different regions in order to protect their health, find cure for their diseases and benefit from health services (Aknar, 2023). The primary aim of tourists participating in the health tourism movement is to achieve positive results regarding their health during their travels. At the same time, tourists want their primary goals to be supported by the recreational tourism activities they will participate in. Recreational activities and health tourism are complementary issues. Recreational activities such as nature, sports and adventure tourism have a common point with health tourism (Kılıçarslan and Yozukmaz, 2022). Medical tourism is a relatively new term; it means that tourists travel to different parts of the world to receive medical treatment and also to visit, see and enjoy the tourist attractions of a particular country. Medical tourism is travel planned with the desire of people to have a holiday by benefiting from other touristic and recreational services in addition to receiving various medical health services (MacReady, 2007). Healthcare businesses also need to offer recreational activities to patients who need sports, entertainment, rest and good time to meet these demands of patients. In this direction, health establishments make plans by taking into account the expectations, needs and returns of guests engaged in medical tourism (Ünal and Demirel, 2011). If the medical treatments provided to patients are of high quality and the other touristic services offered to patients are well planned and presented, it creates a feeling of satisfaction on customers (Lunt et al., 2011). Creating a sense of satisfaction on customers has an important function in re-purchase the healthcare establishment and recommending it to other potential customers (Aliman and Mohamed, 2016). Kazakhstan's health sector consists of 20% private sector and 80% state-owned health institutions. In the field of medical tourism, Kazakhstan carries out heart transplantation, kidney transplantation and bone marrow transplantation. It also provides medical services in the fields of oral and dental health, family counseling and private medical consultancy. Although the development and quality of common healthcare services in Kazakhstan are not at the highest levels, the healthcare services of As-

[1] Çanakkale Onsekiz Mart Univesity, ilker.turkeri@comu.edu.tr, 0000-0002-2245-8499.

tana and Almaty cities are as high quality as European countries. However, health services can be accessed at more affordable prices compared to health services in foreign countries (Akarcalı and Tontus, 2016). High-level and high-tech medical services of the Republic of Kazakhstan are carried out in the city of Astana. Within the scope of medical tourism, diagnosis and early treatment of cancer treatments, organ transplantation and treatments of genetic diseases are also supported by gastronomy tourism, spa, mountain, adventure and other types of tourism. The city of Astana attracts tourists from both domestic and abroad, thanks to the medical tourism planning (Kalymbek and Auezov, 2018). The aim of this study is to discuss the current status of the concept of medical tourism and to discuss the place and importance of medical tourism in Kazakhstan by evaluating patient satisfaction. The study has been conducted for domestic and foreign tourists who haev been previously involved in medical tourism activities in the city of Astana. Within the scope of the research, 398 surveys have been obtained and patients' perception of satisfaction has been examined. Mann-Whitney U and Kruskal-Wallis tests have been applied to the data set to determine differences between research variables. According to the results, the number of domestic tourists who have received treatment in Astana is higher, while foreign tourists are found to be in the minority. In addition, the majority are higher education graduates and work in the private sector. However, in Astana, patients have benefited from various medical services such as surgeries (heart, brain), rehabilitation (children with psycho-neurological diseases), transplantation (kidney, liver, heart, lung) and oncology (cancer treatment). The results show that, there is no significant difference between patient satisfaction and gender, nationality, type of health treatment applied, total treatment cost, number of visits, but there is a significant difference between patient satisfaction and patients' education level, profession, income level and awareness of medical tourism promotions applied by other countries. In this context, it is seen that the satisfaction levels of those who are aware of other countries' promotions are higher than those who are not, those who have formal education are higher than those who are not, those with an income level of 5000-1000 $ are higher than those with lower income levels, and patients working in the private sector are higher than those working in the public sector. Kazakhstan's relatively cheap and high-quality medical services make it a preferred destination for health tourism by patients. In future studies on medical tourism, it may be recommended to examine the intentions of previously treated patients to revisit and recommend them to others as well as satisfaction.

Key Words: Tourism Industry, Medical Tourism, Patient Satisfaction, Medical Treatment, Astana

# КОРОНОВИРУС (COVID-19) ПАНДЕМИЯСЫ УЧУРУНДА КООМДУК ТАМАКТАНУУ ИШКАНАЛАРЫ ТАРАБЫНАН КӨРҮЛГӨН ЧАРАЛАРДЫН КАРДАРЛАРДЫН КАНААТТАНУУЛАРЫНА ТИЙГИЗГЕН ТААСИРИН ИЗИЛДӨӨ (KAMU GIDA İŞLETMELERİNİN KORONAVİRÜS (COVID-19) SALGININDA ALDIĞI ÖNLEMLERİN TÜKETİCİ MEMNUNİYETİ ÜZERİNDEKİ ETKİSİNİN ARAŞTIRILMASI)

**Öğr. Gör. Dr. Gulmira SAMATOVA**[1]
**Öğr. Gör. Nadira TURGANBAEVA**[2]

Кызмат көрсөтүү тармагы өлкөнүн өнүгүү деңгээлинин бирден бир маанилүү көрсөткүчү болуу менен бирге өлкө экономикасынын маанилүү тармактарынын бири жана жыл сайын белгилүү бир темп менен өсүп, ички дүң продукциядагы үлүшү жогорулап баратат. Бирок, пандемия шарттарында рынокто өз ордун сактап калуу үчүн башка тармактагы ишканалар сыяктуу эле, коомдук тамактануу ишканаларынын иш- аракеттеринде бир топ өзгөрүүлөр болгон. Бул макалада Кыргызстанда коомдук тамактануу ишканаларда жүргүзүлгөн сурамжылоого таянып, өлкөдөгү короновирус (COVID-19) пандемиясы учурунда коомдук тамактануу ишканаларынын иш-чаралары каралды. Бул изилдөөдө Бишкек шаарындагы 35 коомдук тамактануу ишканаларынынын кардарларына жүргүзүлгөн сурамжылоонун жыйынтыктарына орун берилген. Жүргүзүлгөн сурамжылоонун жыйынтыктары боюнча Бишкек шаарындагы коомдук тамактануу ишканалары тарабынан көрүлгөн чаралардын кардарлар талап кылган деңгээлден төмөн экени белгилүү болгон. Өзгөчө, ишканаларда башкаруучулар жана кызматкерлердин ишкана тарабынан көрүлгөн чаралары боюнча билим деңгээлинин жетишсиздиги кардарлардын канааттануу деңгээлин аныктоодо түздөн – түз таасирин тийгизээри аныкталды. Бул жыйынтыктар, коомдук тамактануу ишканаларында

[1] Kırgızistan-Türkiye Manas Üniversitesi, gulmira.samatova@manas.edu.kg, ORCID: 0009-0008-5199-3467.
[2] Kırgızistan-Türkiye Manas Üniversitesi, nadira.turganbaeva@manas.edu.kg, ORCID: 0000-0002-7620-9236.

санитария, гигиена жана тамак- аш коопсуздугу элементтери боюнча кардарлар талап кылган деңгээлин жогорулатуу боюнча иш – аракеттерди улантуу зарыл, себеби мамлекет тарабынан көрсөтүлгөн приоритеттүү тармактардын бири болуп саналат.

**Негизги сөздөр:** Кыргызстан, кызмат көрсөтүү тармагы, коомдук тамактануу ишканалары, короновирус (COVID-19), иш- чаралар

## Abstact

Service is one of the most important sectors of the economy and grows at a certain rate, its share in the gross domestic product increases every year. However, in order to preserve their position on the market in the conditions of the pandemic, as well as enterprises in other industries, catering enterprises have introduced a number of changes in their activities. This article examines the measures taken by public catering enterprises during the pandemic of the coronavirus COVID-19 in Kyrgyzstan on the basis of a survey of enterprises. In this study, the results of a survey of customers of 35 public catering establishments in Bishkek are given place. According to the results of the survey, it was known that the measures taken by public catering enterprises in Bishkek are below the level required by customers. In particular, it was found that the lack of knowledge level of managers and employees in enterprises regarding the measures taken by the enterprise has a direct impact on determining the level of customer satisfaction. These results indicate that it is necessary to continue the activities to increase the level of sanitation, hygiene and food safety elements required by customers in public catering establishments, because it is one of the priority areas indicated by the state.

**Keywords**: Kyrgyzstan, service industry, public catering enterprises, coronavirus (COVID-19), enterprise measures.

# AZƏRBAYCANDA OD MƏBƏDLƏRİNİN TARİXİNƏ DAİR (AZERBAYCAN'DA YANGIN TAPINAKLARININ TARİHİ ÜZERİNE)

**Gülşən ABBASOVA**[1]

Azərbaycan Respublikası mədəni və tarixi abidələrlə zəngindir. Görməli yerlərdən biri də Bakının Suraxanı rayonunda yerləşən bütün dünyaya məşhur olan Atəşgah Atəşpərəstlər Məbədidir. Alimlərin fikrincə, qədim zamanlarda, hələ eramızdan əvvəl Azərbaycanda, demək olar ki, hər bir yaşayış məntəqəsində belə sitayiş məbədləri çox olub. Qeyd edək ki, Azərbaycan dedikdə təbii olaraq müasir Azərbaycanın ərazisi nəzərdə tutulur. Qədim dövrün coğrafiyasını əsas götürsək, İran da onun ərazisinə daxil edilirdi. Təqdim olunan tədqiqat Azərbaycanda od məbədlərinin yaranması məsələsinin tarixini nəzərdən keçirməyə cəhd edir. Məlumdur ki, od məbədləri bilavasitə zərdüştilik dini ilə bağlıdır. Bu barədə Z.A.Roqozina yazır: "Zərdüşt davamçılarının o qədər sərt adətlərdə ifadə olunan oda həddən artıq pərəstişkarlığı, sonralar zahiri müşahidəçilər tərəfindəndən onlar üçün iyrənc "atəşpərəstlər" adının verilməsiydi... Təbiət ünsürlərinə pərəstiş, məlum olduğu kimi, Turan dünyagörüşünün qabarıq xüsusiyyətidir; O ki qaldı atəşə, çox güman ki, iranlılar onun ibadətini artıq qərb Xəzər torpaqlarında tapıblar... Bu bölgənin adı – Atropotena – Aderbeijan – artıq təbiətin özü, yuxarıda qeyd edildiyi kimi, bu ibadət xüsusiyyətinin göstəricisi idi" (Roqozina, 1903, 175). Alimin araşdırmasından bir neçə nəticə çıxarmaq olar: birincisi, od ünsürünə pərəstiş etmək hər bir pislikdən təmizlənmək kimi zərdüştilik ritualının bir tərkibi idi; ikincisi, zərdüştilər türk tayfaları idi; nəhayət, üçüncüsü, təlimin vətəni Azərbaycandır. Od məbədləri haqqında daha ətraflı məlumatı müsəlman ilahiyyatçısı Əbul-Fəth Məhəmməd b. Əbdül-Kərim əş Şəhrastani (Əş-Şəxrəstani, 1984, 164-165) vermişdir. O, təkcə onların adlarını və yerlərini qeyd etmir, həm də İrandan, Asiyadan, Hindistandan Çinə qədər uzanan coğrafiyasını göstərir. İlahiyyatçının gətirdiyi faktlar bizi inandırır ki, zərdüştilik təlimi bir çox xalqlar tərəfindən qəbul edilmişdir. Zərdüştiliyə maraq bir sıra səbəblərdən qaynaqlanırdı: birincisi, o, Arktidanın yoxa çıxmasına qədər uzanan yer üzündəki ilk Aryan sivilizasiyasının qədim biliyini mənimsəmişdir; ikincisi, bütün məlum dünya dinlərinə (yəhudilik, xristianlıq, buddizm, islam) və Qautama Buddanın, Lao Tzınun təlimlərinə təsir

[1] Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, abbasovagulshen12@gmail.com, ORCID: 0009-0004-0064-7215.

göstərmişdir; üçüncüsü, zərdüştiliyin müqəddəs kitabının günümüzə qədər gəlib çatmış nüsxələrinin natamam olmasına baxmayaraq, Avestada Kosmik Qanun haqqında gizli mənəvi aləmin mənşəyi və əxlaqi-etik qaydaları öz əksini tapmışdır. Arilərin və zərdüştilik adətlərin tarixi sənədlərindən biri olan "Avesta"da qeydə alınmış qədim İran mifologiyasını (ərazi baxımından bu, müasir İran deyil) yada salaq. Sonuncuya gəlincə, orta əsr müəlliflərinin Əhməd Bəlazuri (...-892) və Əbureyxan Biruni (978-1048)) fikrincə, Zərdüşt "Azərbaycan əsilli" idi. Məhşur coğrafiyaşünas Yakuta Haməvinin (1179-1229) "Urmiya "sehrbazların peyğəmbəri Zərdüşt şəhəri"dir" qeydi maraq döğurur. Qütbəddin Şirazinin (1236-1311) "kamilliyə nail olmuş görkəmli arif – Zərdüşt əl-Azərbaycaninin başçısı" ifadəsini də buna əlavə etmək olar (Məmmədov, 1993, 3). Əksər alimlərin fikrincə, Zərdüşt dini və "Avesta" kitabının bütün mövcud dinlərə və Şərqin müqəddəs kitablarına böyük təsiri olmuşdur. Bu təsir müxtəlif aspektlərdə özünü göstərir. Məşhur ingilis iranşünası Meri Boysun fikirlərini yada salaq: "...tədricən Zərdüştün bir çox əsas inancları bütün ölkələrə - Misirdən Qara dənizə qədər yayıldı. Bunlar həm Yaradan olan uca Tanrının, həm də ona qarşı çıxan və ona tabe olmayan şər qüvvələrin olması ideyaları idi. Yaradan bu dünyanı müəyyən bir məqsəd üçün yaratdı və indiki vəziyyətində bu dünyanın sonu var və bu, Saoşyantanın (Xilaskarın) gəlişi ilə müjdələnəcək. Bu arada cənnət və cəhənnəm mövcuddur və hər bir nəfs öldükdən sonra hökmə tabedir. Zamanın sonunda ölülərin dirilməsi və bütün günahkarların tamamilə məhv edilməsi ilə Qiyamət olacaq. O zaman Allahın səltənəti yer üzündə bərqərar olacaq və salehlər bu səltənətə bağçaya (farsca paradaiz deməkdir) girəcəklər və həm bədəndə, həm də ruhda ölməz olaraq Allahın hüzurunda əbədi səadətdən həzz alacaqlar. Bu fikirlər Babil əsarətindən sonrakı dövrdə müxtəlif yəhudi təriqətləri tərəfindən mənimsənilmişdir, çünki yəhudilər zərdüştiliyin təsirinə ən çox həssas olan xalqlardan biri idilər" (Boys, 1988, 92). Bu kontekstdə Z.A.Roqozinanın "magiya" sözünün mənşəyi ilə bağlı mülahizələri özünü belə deməyə əsas verir: "Qədim Turan dilində Şumirdə keşiş digər adlarla yanaşı, "imqaz" da adlanırdı. Semitlər bu sözü "maq" ("sehrbaz") olaraq dəyişdilər. "Rab-mag", yəni, "Böyük kahin", daha doğrusu, "baş sehrbaz" Babil və Aşşur padşahlarının sarayında çox mötəbər vəzifə idi. Buradan "magus", "magic", "tmagu" – bütün Avropa dillərinə gəldi" (Roqozina, 1903, 295). Qeyd edək ki, İncildə göstərildiyi kimi, İsanın doğulması haqqında ilkin məlumat verən maqilər, yəni zərdüşti sehrbazları olub. Od, su və torpaq ünsürləri Tanrının ən yüksək yaratdıqları hesab olunurdu. Amma müqəddəs ünsürlər arasında zərdüştilik təliminə görə, Ahura Məzdanın özündən - Atardan qaynaqlanan od əsas hesab edilir və hər yerə süzülürdü. Varlığından asılı olaraq, odun beş növü var idi. Vohufryanın atəşi insanların və heyvanların bədənində idi, onlara canlılıq verirdi; Urvazişta - bitkilərin böyüməsinə kömək etdi; Bersizava - Günəşin atəşi; Vazişta - ildırım; Speništa zərdüşti məbədləri üçün müqəddəs ocaq rolunu oynayan və insanlar tərəfindən yemək bişirmək üçün istifadə edilən alovdur (Rak, 1998). Gördüyü-

müz kimi, zərdüştilərin ideyalarında yaradılışların hər biri o substansiyanı ehtiva edir ki, bu da müasir dillə desək, reallığı formalaşdıran enerji-informasiya xassəsidir. Yəni oda sitayiş ritualı ilkin olaraq kainatdakı həyat fəlsəfəsini ehtiva edirdi. Beləliklə, Azərbaycan ərazisində od məbədlərinin yaranmasının tədqiqi istiqamətində apardığımız araşdırmalar onların Azərbaycanda doğulmuş Zərdüşt peyğəmbərdən qaynaqlanan zərdüştilik dininin əsas ayinlərindən biri kimi od kultu ilə müəyyən edildiyini sübut edir. Ona görə də təsadüfi deyil ki, bu dinin ardıcılları onun qanunlarına ciddi əməl edərək bu məbədləri ziyarət edirdilər. Üstəlik, müasir Azərbaycanın toponimləri zərdüştiliyin rəmzlərini bu günə kimi qoruyub saxlamışdır.

# QARABAĞ İQTİSADİ RAYONUNUN TURİZM SEKTORUNDA MARKETİNQİN TƏTBİQİ İMKANLARI
# (KARABAĞ EKONOMİK BÖLGESİ'NİN TURİZM SEKTÖRÜNDE PAZAR UYGULAMA FIRSATLARI)

**Nergis YUSİFOVA**[1]

Hazırki dövrümüzdə turizmin inkişafı ölkənin iqtisadi qüdrətinin ən vacib istiqamətlərindən biri hesab olunur. Nəzərə alsaq ki, əsas qarşıya qoyulan məqsəd neftdən asılılığı azaltmaq, yüksək potensiala malik regionlarımızın inkişafını daha da dəstəkləmək və onlardan səmərəli istifadəni təmin etməklə qeyri neft sektorunu inkişaf etdirməkdir. Ölkəmizin bir çox regionları ilə bərabər xüsusilə də 44 günlük müharibənin nəticəsi olaraq işğaldan azad olunmuş Qarabağ iqtisadi rayonunun turizm potensialı olduqca genişdir və hazırki dövrdə maraqlı tədqiqat mövzularından hesab olunur. O vaxtdan bəri erməni işğalından azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri aparılır. Bu səylər bölgəni həm yerli, həm də xarici ölkələrdən gələn turizm həvəskarları üçün diqqətəlayiq bir məkana çevirmək məqsədi daşıyır. Bu günlərdə ötən ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş videokonfransda dövlət başçısı Qarabağ bölgəsinin zəngin turizm potensialını xüsusi vurğulayıb. O, bölgənin tarixi abidələrini və nadir təbiət gözəlliklərini nümayiş etdirmək üçün turizm marşrutlarının hazırlanmasına çağırıb(Azərbaycan2020, Qanun2012). Məqsəd Qarabağı dünya üçün cəlbedici bir məkan kimi təqdim etmək, Azərbaycanın əsas turizm zonalarından biri kimi yerləşdirməkdir. Qarabağ bölgəsi heyrətamiz təbiət mənzərələri və zəngin tarixi abidələri ilə inanılmaz turizm potensialına malikdir. Yeraltı və yerüstü sərvətlərlə zəngin olan Qarabağ öz təbii füsunkarlığı, zəngin mədəni irsi, tarixi əhəmiyyəti ilə təkcə Azərbaycanın deyil, bütün dünyanın diqqət mərkəzində olduğundan çoxlu sayda turisti özünə cəlb edə bilər. Bu potensialdan düzgün istifadə etmək üçün isə zonada mövcud olan marketinq tətbiqi imkanları araşdırılmalıdır. Hazırki dövrdə potensial turistləri cəlb etmək üçün əsas imkanlardan biri məhz rəqəmsal marketinq kanallarının istifadəsidir. Belə ki, rəqəmsal marketinq smartfonların və digər sosial media platformalarının köməyi ilə turistlərə regionda olan turizm xidmətlərini, gəzməli və görməli yerləri tanıtmağa kömək edə bilər. Bu, məsələn Qarabağın əsas imkanlarını özündə əks etdirən şəkillər, videolar və ya bloqlar kimi cəlbedici məzmun ola

[1] Mingəçevir Dövlət Universiteti, nargiz.yusifova@mdu.edu.az ORCID: 0009000160576963.

bilər. Başqa bir imkan, turistlər üçün fərdi paketlər yaratmaq məqsədilə turizm agentlikləri və turoperatorlarla əməkdaşlıq etməkdir. Yerli bizneslər onlarla əməkdaşlıq edərək, turistlərin əsas üstünlüklərinə və müxtəlif ehtiyaclarına cavab verən hərtərəfli səyahət paketləri təklif edə bilərlər. Məsələn, nəqliyyat xidmətlərinin göstərilməsini, yerləşdirmə seçimlərini, bələdçili turları və digər fəaliyyətləri buraya aid edə bilərik (Musayev A, 2022). Turizm marketinqində yaranan digər tendensiya virtual reallıq (VR) və əlavə reallıq (AR) texnologiyalarının istifadəsidir. VR və AR potensial ziyarətçilərə virtual mühitdə istiqamətləri və görməli yerləri kəşf etməyə imkan verən immersiv təcrübələr yaratmaq üçün istifadə edilə bilər. Bu texnologiya potensial ziyarətçilər üçün daha cəlbedici və yaddaqalan təcrübə yaratmaqla təyinatın unikal xüsusiyyətlərini və görməli yerlərini nümayiş etdirmək üçün istifadə oluna bilər. VR və AR həm də otellərə, kurortlara və digər yaşayış yerlərinə virtual turlar təşkil etmək üçün istifadə oluna bilər ki, bu da potensial qonaqlara rezervasiya etməzdən əvvəl öz yaşayış yerlərini nəzərdən keçirməyə imkan verir. İstifadəçi tərəfindən yaradılan məzmunun (UGC) istifadəsi də turizm istiqamətləri üçün mühüm marketinq fürsətidir. UGC-yə turistlər tərəfindən yaradılan və sosial media platformalarında paylaşılan fotoşəkillər, videolar və rəylər daxildir. UGC, təyinatın daha orijinal və etibarlı təqdimatını yaratmaqla, təyinatın görməli yerlərini və təcrübələrini həqiqi ziyarətçilərin gözü ilə nümayiş etdirmək üçün istifadə edilə bilər. Təyinatlar ən yaxşı məzmun üçün mükafatlar və ya endirimlər kimi təşviqlər təklif etməklə UGC-nin yaradılmasını və paylaşılmasını təşviq edə bilər.UGC həmçinin tədbirlər və attraksionlar ətrafında səs-küy yaratmaq üçün istifadə oluna bilər, məlumatlılığı artırmağa və davamiyyəti artırmağa kömək edir. (Cabbarov, Abbasova və Tanrıverdi, 2020)

# EKOFEMİNİST REKREASYONUN SÜRDÜRÜLÜREBİLİR KALKINMA HEDEFLERİ İLE İLİŞKİSİ

**Bilgehan GÜLCAN**[1]
**Avşin AYHAN**[2]

Gerek cinsiyetler arasında yaşanan ayrım gerekse doğa üzerindeki yıkıcı eylemler geçmişten günümüze kadar süre gelen problemlerdendir (Üzel, 2006: 104). İnsan bilimleri, insan hayatının biyolojik, sosyal ve kültürel taraflarının yanı sıra, insanların diğer varlıklarla olan davranışlarını ve ilişkilerini de inceler bu bağlamda insan bilimlerinde kavramsal bir araç olan ekofeminizm 1970'te ortaya çıkmıştır (Sharnappa, 2016:2). Ekofeminizmi, tahakküm oluşumlarına karşı direnen, dünyanın hayatta kalması ve toplumsal eşitlikçilik için bir politika oluşturmaya çalışan toplumsal hareket ve teorik araştırma biçimi olarak tanımlayabilmek mümkündür (Carlassare, 2000: 89). Antroposen dönemde yaşanan teknolojik ilerleme, izole yaşam, hareketsizlik, yoğun çalışma, betonlaşma, nüfus artışı, trafik problemi, çevre ve gürültü kirliliği vb. gerekçeler önemli sorunları da beraberinde getirmiştir (Güzel, 2021: 11). Dolayısıyla bu dönemde bireylerin boş zamanlarında gerçekleştirdikleri etkinlikler olarak tanımlanan rekreasyona olan ihtiyaçta artış gözlemlenmiştir. Bu nedenle bireylerin talep ve beklentilerine göre yeni rekreasyon türleri ortaya çıkmıştır. Bu kapsamda ekorekreasyon, doğal ortamlarda boş zamanlarda gerçekleştirilen faaliyetlerin ekolojik çerçevede ve sürdürülebilir nitelikte olması şeklinde tanımlanmıştır (Yıldız & Beşikçi, 2019: 115). 2015'te Birleşmiş Milletler, yoksulluğu ortadan kaldırmak, gezegeni koruma altına almak, eşitsizlik ve adaletsizlikle mücadele etmek amacıyla 2030 yılında tamamlanması plananan Sürdürülebilir Kalkınma Amaçlarını (SKA) kabul etmiştir (globalcompactturkiye.org). Toplumsal dönüşümün önemli bir unsuru olarak düzenlenmiş olan SKA'lar tüm sektörlere ve dahi gündelik hayata yansıtılabilmesi pratiği esasına bağlı olarak rekreasyon alanlarının ve mekanlarının da ekolojik etik pratiklerini kılavuz belirlemeleri muhtemel ve hatta kaçınılmazdır (Hatırnaz, 2021). Bu kapsamda SKA'ların rekreasyona uygulanabilirliğinde en büyük destekçisi hiç şüphesiz ekofeminizmin kadın ve doğaya uygulanan tahakkümün önüne geçme ve ekorekreasyonun çevreye duyarlı faaliyet-

[1] Prof. Dr., Ankara Hacı Bayram Veli Üniversitesi, Turizm Fakültesi, Rekreasyon Yönetimi Bölümü, Ankara, Türkiye. bilgehan.gulcan@hbv.edu.tr ORCİD: 0000-0002-9884-4695.
[2] Doktora Öğrencisi, Ankara Hacı Bayram Veli Üniversitesi, Turizm Fakültesi, Rekreasyon Yönetimi Bölümü, Ankara, Türkiye. avsinayhan@gmail.com ORCİD: 0000-0001-9705-351X

ler gerçekleştirme amaçlarını ortak bir çatıda birleştirmeyi amaçlayan ''ekofeminist rekreasyon'' bakış açısı olabilir. Kalkınma hedeflerinin maddeleri ve ekofeminist rekreasyon arasındaki benzerlikler ve bazı uygulanabilir örneklerine aşağıda yer verilmiştir.

Yoksulluğa Son: Dezavantajlı grupta yer alan kadınlara iş istihdamı yaratmak ve çevreye hassasiyet gösteren faaliyetlerin desteklenmesi.

Açlığa Son: Bünyesinde kadın üreticilerin ve/veya çalışanların yer aldığı hizmet amaçlı ekolojik çiftliklerin sayısında artış sağlanması.

Sağlıklı Bireyler: Kadınların boş zamanlarında katılım sağlayabilecekleri cinsel sağlık ve aile planlaması merkezlerinin açılması.

Nitelikli Eğitim: Kadın ve kız çocuklarının okur yazarlığının artırılması.

Toplumsal Cinsiyet Eşitliği: Kadınların hizmet sektöründe görsel olarak teşhir amaçlı kullanılmalarının önüne geçilmesi.

Temiz Su ve Sanitasyon: Su ile doğrudan ilişkisi olan faaliyetlerde kadınların güvenliğini sağlamak.

Erişilebilir ve Temiz Enerji: Çevresel tabanlı hizmet üretiminde organik gübre kullanımı, yenilenebilir enerjilerin kullanılması.

İnsana Yakışır İş ve Ekonomik Büyüme: Hizmet sektöründe kadınlar için adil bir çalışma tahayyülü sunmak.

Sanayi, Yenilikçilik ve Altyapı: Kırsal bölgelerdeki kadınların finansal olarak desteklenmesi, teknolojik farkındalıklarının artırılması ve teknik destek verilmesi.

Eşitsizliklerin Azaltılması: Kadınların kültürel kimlikleri çoğu zaman biyolojik kimliklerinin önüne geçmektedir. Bu kapsamda kazancını kendi ihtiyaçları için kullanmak yerine hane içerisinde tutması veya annelik içgüdüsüyle çocuğu için harcama yapmasının önüne geçilerek kadınların diğerkâmlık özelliğinin önüne geçilmesi.

Sürdürülebilir Şehirler ve Topluluklar: Rekreasyona bağlı hizmet sektöründe ekofeminist destinasyon uygulamalarının artırılması veya bu konuda teşviklerin fazlalaştırılması.

Sorumlu Üretim ve Tüketim: Kapitalist uygulamalara ve ataerkil düşünce biçimine son verilmesi.

İklim Eylemi: Turistik gezilerde klasik turizm yerine ekofeminist rekreasyonun desteklediği doğaya duyarlı faaliyetlerin teşvik edilmesi.

Sudaki Yaşam ve Karasal Yaşam: Bu konuda kadınların erkeklerden daha hassas olduğu söylenebilir. Örneğin üreme dönemlerinde kaçak balık avcılığı ve normal avcılık yapanların büyük çoğunluğu erkeklerden oluşmaktadır. Çünkü kadın annelik içgüdüsüyle böyle bir eylemi gerçekleştirmek istememektedir.

Barış, Adalet ve Güçlü Kurumlar: Barış, adalet ve kadın gücü konusunda gerçekleştirilebilecek bütün etkinliklerin teşvikini desteklemektedir.

Amaçlar İçin Ortaklıklar: Sürdürülebilirlik konusunda doğa, fırsat eşitsizliği konusunda kadınların özne olmasından ötürü ekofeminist rekreasyon ile iş birliği.

Sonuç olarak yukarıda vurgulanan sürdürülebilir kalkınma hedeflerinin on altı maddesinin de doğrudan veya dolaylı olarak ekofeminist rekreasyon ile ilişki içerisinde olduğu söylenebilir. Bu nedenle ekofeminist rekreasyon ve SKA’lar arasında organik bir ilişkin olduğunu söyleyebilmek mümkündür.

# UŞAQLARIN ASUDƏ VAXTININ TƏŞKİLİNDƏ İNTELEKTUAL KOMPÜTER OYUNLARININ ROLU (ÇOCUKLARIN BOŞ ZAMANLARININ DÜZENLENMESİNDE ENTELEKTÜEL BİLGİSAYAR OYUNLARININ ROLÜ)

**Könül MUSTAFAYEVA**[1]

Uşaqların formalaşması onun intellektual qabiliyyətinin inkişafı ilə müəyyən olunur. Uşaqların intelektual inkişafına təsir edən əsas amillərdən birioyunlar hesab olunur. Uşaq üçün oyun təkcə istirahət və əyləncə vasitəsideyil, həm də fəaliyyət növüdür. Oyun olmadan uşaq normal böyüyə və inkişaf edə bilməz. Oyunlarda uşaq fiziki və əqli cəhətdən inkişaf edir, oyunda zəhmətkeşlik, məqsədə çatmaqda əzmkarlıq, müşahidəçilik, ixtiraçılıq inkişaf formalaşır. (Aleksandrovna) Yaş keçdikcə uşaq oyunları getdikcə daha təkmilləşir, inkişaf etdirici formalara çevrilir, məzmunu dəyişir və yeni qazanılan təcrübə hesabına zənginləşir. İntellektual inkişafı təşviq edən oyun vasitəsilə uşağın lüğət ehtiyatı genişlənir və uşağın fərdi potensialı üzə çıxır. İntellektual inkişafa yönəlmiş bir sıra oyunlar var. Məsələn didaktik oyunlar - kibritli oyunlar, məntiq məsələləri, dama, şahmat, tapmacalar, labirintlər, sehrli kvadratlar, cüt tapmaq, təki tapmaq, silsilənin davamı, əyləncəli masalar və s. Didaktik oyunun əhəmiyyəti ondan ibarətdir ki, o, müstəqillik, fəal təfəkkür və nitq, öz hərəkətlərini idarə etmək və onları digər oyunçuların hərəkətləri ilə əlaqələndirmək bacarığını inkişaf etdirir.Bu cür oyun uşaqların zehni imkanlarını səfərbər edir, təşkilatçılıq bacarıqlarını inkişaf etdirir, özünə intizam bacarıqlarını aşılayır. Yaddaşın və sürətli düşüncənin inkişafına kömək edən, saymağı öyrədən və məntiqi forlaşdıran kompüter oyunları da mövcuddur. Bu oyunlarda oyunçu öz intellektindən və erudisiyasından istifadə edərək müxtəlif sahələrdən (elm, tarix, ədəbiyyat, riyaziyyat və s.) suallara cavab verməli olur. Eyni zamanda labirintlərin keçidi ilə diqqətlilik və zəka oyunları, sahədən lazımsız obyektləri çıxarmaq və ya əksinə - oxşarları axtarmaq kimi əməliyyatları yerinə yetirir. (Maystrovski, 1996) Beyin oyunları kimi də tanınan intellektual kompüter oyunları, uğur qazanmaq üçün oyunçulardan idrak bacarıqlarını, tənqidi düşünmə və problem həll etmə qabiliyyətlərini istifadə etmələrini tələb edən video oyunları kateqoriyasıdır. (Nikitin, 2009)

---

[1] Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, konul.mustafayeva@admiu.edu.az, ORCID:0009-0006-5669-930X.

Müxtəlif janrlar üzrə intellektual kompüter oyunlarına aşağıdakıları nümunə göstərmək olar:

Puzzle Oyunları:
Tetris: Oyunçuların tam xətlər yaratmaq üçün düşən blokları təşkil etdiyi kafelə uyğun gələn tapmaca oyunu.
Portal seriyası: Oyunçuların problemləri həll etmək üçün əl portalı cihazından istifadə etdiyi birinci şəxs tapmaca-platforması.

Strategiya Oyunları:
Sivilizasiya seriyası: Oyunçuların tarix boyu sivilizasiyaları qurduğu və idarə etdiyi növbə əsaslı strategiya oyunu.
StarCraft seriyası: Elmi-fantastik mühitdə resursların idarə edilməsini və taktiki döyüşü əhatə edən real vaxt strategiya oyunu.

Simulyasiya Oyunları:
SimCity seriyası: Oyunçuları inkişaf edən bir şəhər yaratmaq və saxlamaq üçün meydan oxuyan şəhərsalma və idarəetmə simulyasiya oyunu.
Cities: Skylines: Şəhərsalma və idarəetməyə diqqət yetirən müasir şəhərsalma simulyasiya oyunu.

Macəra Oyunları:
Meymun adası seriyası: Mürəkkəb tapmacalar və yumoristik hekayə xətti ilə işarələyən macəra oyunları.
The Witness: Məntiq tapmacalarına fokuslanan sirli adada qurulmuş birinci şəxs tapmacalı macəra oyunu.

Öyrədici oyunlar:
Kerbal Kosmik Proqramı: Oyunçulara fizika və aerokosmik mühəndisliyi öyrədən kosmik uçuş simulyasiya oyunu.
Minecraft: Education Edition: Sinifdə öyrənmə üçün nəzərdə tutulmuş xüsusiyyətləri olan məşhur sandbox oyununun təhsil versiyası.

Beyin Təlimi Oyunları:
Lumosity: Yaddaş, diqqət və problem həll etmək üçün idrakı təkmilləşdirmək üçün nəzərdə tutulmuş beyin təlimi oyunları toplusu.
Elevate: Oxuma, yazma, riyaziyyat və digər bacarıqlara diqqət yetirən fərdiləşdirilmiş oyunlarla beyin təlimi proqramı.

Roguelike Oyunları:
FTL: Faster Than Light: Oyunçuların kosmik gəmini idarə etdiyi və təsadüfi yaradılmış ssenarilərdə strateji qərarlar qəbul etdiyi kosmos mövzusunda roguelike oyun.
Rogue Legacy: Təsadüfi olaraq yaradılan səviyyələri və davamlı təkmilləşdirmələri olan roguelike platforma oyunu. Bu oyunlar virtual mühitdə çətinliklərin öhdəsindən gəlmək və məqsədlərə çatmaq üçün intellekt,

yaradıcılıq və analitik bacarıqlarından istifadə etməkdən zövq alan oyunçulara xidmət edir. Müasir dövrün tələbinə uyğun olaraq kompüter oyunu uşaqların, xüsusilə də yeniyetmələrin həyatının getdikcə daha əhəmiyyətli bir hissəsinə çevrilir və bu qadağan edilməməlidir, əksinə, uşağın təhsil prosesinə və asudə vaxtına daxil edilməlidir. Çünki oyunintelektual inkişafa təsirlə yanaşı, tez-tez stressi aradan qaldırır, uşağın özünə hörməti artırır və onun özünü təsdiq etməsinə imkan verir. Uşağın həyatına kompüter oyunlarının daxil olması ilə valideynlər onun mənfi təsirindən qaçmaq üçün həm kompüter oyununun növünə, həm də oynama müddətinə nəzarət etməlidirlər. Çünki kompüter oyunlarına olan həvəs müəyyən həddi keçəndə ziyanı danılmaz olur.

# AZƏRBAYCAN İQTİSADİYYATINDA TURİZM SEKTORUNUN ROLUNUN MAKROİQTİSADİ QİYMƏTLƏNDİRİLMƏSİ (AZERBAYCAN EKONOMİSİNDE TURİZM SEKTÖRÜ ROLÜN MAKROEKONOMİK DEĞERLENDİRMESİ)

**Arif TAĞIYEV**[1]

Müstəqillik əldə etdiyi və bazar iqtisadiyyatı sisteminə keçdiyi son 32 illik bir dövrdə Azərbaycan iqtisadiyyatı müxtəlif mərhələlərdən keçərək hazırki inkişaf səviyyəsinə çatmışdır. Keçid dövrünün ilkin mərhələsində daha çox ekstensiv inkişaf tipinə üstünlük verən Azərbaycan tamamilə böhran vəziyyətinə düşmüş ölkə iqtisadiyyatını özünün karbohidrogen ehtiyyatlarının aktiv şəkildə dövriyyəyə buraxılması hesabına böhran vəziyyətindən çıxara bildi. Ümummili lider Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" adlanan neft kontraktlarının işə salınması ilə ölkə iqtisadiyyatı yeni inkişaf mərhələsinə qədəm qoymaqla bərabər iqtisadiyyatın digər sahələrinin, başqa sözlə qeyri-neft sektorunun inkişaf etdirilməsinə və ən əsası dünya təsərrüfatı sisteminə, dünya bazarlarına aktiv inteqrasiya etməsinə imkân yaratmış oldu. Ölkəmiz üçün qeyri-neft sektorunun və özəl sektorun inkişafının proqnozlaşdırılması və strateji inkişaf istiqamətlərinin müəyyən edilməsində turizm sektorunun inkişafı xüsusi yer tuturdu. Hələ Sovetlər dövründən geniş turizm şəbəkəsinə malik olmuş və güclü turizm potensialı olan Azərbaycanda bu sahənin artıq bazar iqtisadiyyatı prinsiplərinə uyğun inkişaf etdirilməsi üçün böyük potensial imkanlar yaranmışdır. Qədim tarixi, mədəni irsi, abidələri, mətbəxi, unikal təbiəti Azərbaycanda turizmin bütün növlərinin inkişaf etdirilməsi üçün böyük inkanlar açırdı. Məhz bu amillər və turizm sektorunun ölkə iqtisadiyyatına verə biləcəyi dəyəri nəzərə alaraq ölkə iqtisadiyyatının strateji inkişaf konsepsiyasının reallaşdırmasını nəzərdə tutan 11 Strateji Yol Xəritələrindən biri məhz "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" olmuşdur. 2016-2020, 2021-2025 və 2050-ci ilə kimi uzaq baxış adlandırılan üç mərhələdə ölkədə turizmin inkişaf etdirilərək dünya

[1] Mingəçevir Dövlət Universiteti, a_taqiev@mail.ru, ORCID: 0000-0002-2081-850X.

standartları səviyyəsinə yüksəldilməsini və yaradılan ümumi məhsulda əhəmiyyətli xüsusi çəkiyə malik olmasını nəzərdə tutan bu sənədin reallaşdırılması hazırda müvəffəqiyyətlə yerinə yetirilməkdədir. Burada qeyd edildiyi kimi "Mövcud imkan və potensialdan səmərəli istifadə etməklə Azərbaycan 2025-ci ilədək həm regionda, həm də digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevriləcəkdir. 2025-ci ildən sonrakı dövr üzrə perspektiv isə Azərbaycanı dünyada turistlərin ən çox üstünlük verdikləri 20 turizm məkanından birinə çevirməkdir" ["Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"]. Qeyd etdiyimiz kimi iqtisadiyyatın diversifikasiyası və şaxələndirilməsi istiqamətlərindən biri kimi turizm sektoruna kompleks yanaşma mövcuddur, yəni dövlət investisiysları hesabına mərkəzi və xüsusən regional turizmin inkişafına dəstək verə biləcək infrastrukturun, yəni, nəqliyyat, rabitə, enerji, yol təsərrüfatı, bazar infrastrukturunun yaradılması, kiçik və orta turizm sahibkarlığının inkişafına, eyni zamanda iri turizm şirkətlərinə fiskal dəstək dövlət siyasətinin əsasını təşkil etməkdədir. Son illərin makroiqtisadi göstəricilərdən göründüyü kimi yüksək dinamika ilə inkişaf etməkdə olan turizm sektoru 2020 ci il pandemiya dövründə kəsgin surətdə aşağı düşsə də artıq sonrakı illərdə öz inkişafını nisbətən bərpa edə bilmişdir (bax cədvəl 1).

"**Cədvəl 1**. Turizm sektoru üzrə iqtisadi göstəricilərin dinamikası"

| **№** | **Əsas göstəricilər** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|---|---|
| 1 | Ümumi Daxili Məhsul, /mln.man/ | 70135.1 | 80092.0 | 81681.0 | 72578.1 | 93203.2 | 133825.8 |
| 2 | Turizm sektorunda yaradılan ümumi dəyər, /mln. man/ | 1639,8 | 1790.7 | 1898.0 | 1161.3 | 1556.1 | 2141.2 |
| | ÜDM-də turizmin xüsusi çəkisi, %-lə | 2.3 | 2.2 | 2.3 | 1.6 | 1.7 | 1.6 |
| 3 | Turizm sektorunun əvvəlki ilə nisbətən inkişaf dinamikası, %-lə | 106.9 | 107.6 | 106.4 | 41.1 | 134.0 | 158.2 |
| 4 | Satılmış turizm zərflərinin sayı | 44066 | 49992 | 63885 | 5342 | 9811 | 16803 |
| | O cümlədən: | | | | | | |
| - | xarici ölkələrə səyahət üçün | 31612 | 36463 | 44915 | 4525 | 7642 | 10632 |
| - | ölkə vətəndaşlarına ölkədaxili səyahət üçün | 5850 | 7390 | 7501 | 46 | 1974 | 2392 |
| - | xarici vətəndaşlara ölkədaxili səyahət üçün | 6604 | 6139 | 11469 | 771 | 195 | 3779 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 5 | Satılmış zərflərin ümumi dəyəri /min.man./ | 54612 | 6657 1 | 7813 2 | 4988 | 5374 | 15915 |

“**Ədəbıyyat**:Azərbaycanın statistik göstıriciləri (2023), Azstat (2024).”

Cədvəl məlumatlarından göründüyü kimi məlum pandemiya dövrü istisna olmaqla ölkə üzrə yaradılan ümumi daxili məhsulun və onun tərkibində turizm sektorunun inkişaf dinamikası müşahidə olunmaqdadır. Bu dinamika həm turizm sektorunda yaradılan ümumi dəyərdə, həm ölkəmizin turizm subyektlərinin fəaliyyətində, həm də ölkəyə xarici turistlərin gəlişində özünü göstərməkdədir. Nəticədə son illərdə ölkədə yaradılan ümumi dəyərdə (ÜDM) turizmin xüsusi çəkisi 2-2,3 faizə qədər artmışdır. Lakin ölkəmizin turizm potensialı nəzərə alınmaqla bu hələ son hədd deyil və qarşıdakı hədəflərimiz daha böyükdür. Təsadüfi deyildir ki, Azərbaycan Turizm Agentliyinin sədri Fuad Nağıyev "Azərbaycan Turizm Sammiti 2022"də çıxışı zamanı qeyd etdiyi kimi hədəfimiz 2026-cı ilə qədər xaricdən turist axınını 4 milyon nəfərə, daxili turizmi isə 6 milyon nəfərə, turizm gəlirlərini isə 4 dəfə artaraq 11,2 milyard manata çatdırmaq və bunun da yarısını xarici turistlərin hesabına əldə etmək nəzərdə tutulmuşdur ["Azərbaycan Turizm Sammiti 2022"]. Beləliklə 2026 cı ilə kimi deynəlxalq səviyyəli fors-major hadisələri baş verməsə turizm sektoronun ÜDM-da xüsusi çəkisinin 5-6 %-ə qədər yüksəldilməsi olduqca real görünür.

# YAŞIL İQTİSADİYYATIN SƏNAYEDƏ TƏTBİQİNİN SƏMƏRƏLİLİYİ (SANAYİDE YEŞİL EKONOMİ UYGULAMASININ VERİMLİLİĞİ)

**İlhamə MƏMMƏDOVA**[1]

“Yaşıl” iqtisadiyyatın mahiyyəti iqtisadiyyat elmində biosferin və sivilizasiyanın eyni vaxtda qorunub saxlanmasını və inkişaf etdirilməsini nəzərdə tutan bir cərəyan, biosfer üçün risklər olmadan insanların rifahının yaxşılaşdırılmasına yönəlmiş iqtisadi fəaliyyətin aparılması üsulu kimi müəyyən edilməsi kimi açıqlanır (Aswathanarayanaə, Harikrishnan ve Kadher-Mohien 2010). “Yaşıl” iqtisadiyyat nəzəriyyəsinin postulatları tədqiq olunur ki, onların əsası məhdud resurslar şəraitində sonsuz artan ehtiyacların ödənilməsinin qeyri-mümkünlüyüdür. Yaşıl iqtisadiyyat sisteminin istiqamətləri kimi aşağıdakılar nəzərdən keçirilir (Aswathanarayanaə, Harikrishnan ve Kadher-Mohien (2010), Green Evolution (2017):

1)Bərpa olunan enerji mənbələrinin tətbiqi;

2)Tullantıların idarə edilməsi sisteminin təkmilləşdirilməsi;

3)Su ehtiyatlarının idarə edilməsi sisteminin təkmilləşdirilməsi;

4)"Təmiz” nəqliyyatın inkişafı;

5)Kənd təsərrüfatında üzvi əkinçilik;

6)Mənzil-kommunal təsərrüfatı sektorunda enerji səmərəliliyi;

7)Ekosistemlərin qorunması və səmərəli idarə edilməsi.

“Yaşıl” iqtisadiyyatın hazırda məlum olan xarakterik xüsusiyyətləri və prinsipləri, onun multiplikator və antiböhran potensialı vurğulanır. “Yaşıl” texnologiyaların mahiyyətinin başa düşülməsi və məqsədlərin təsviri təklif olunur ki, bu da nəticələrlə deyil, ekoloji problemlərin səbəbləri ilə işləməyi nəzərdə tutur. İqtisadiyyatın “yaşıllaşdırılması” alətləri nəzərdən keçirilir - subsidiyalar, güzəştli vergi dərəcələri, qrantlar, “yaşıl” müəssisələrə adekvat nəzarət (The Inova Energia Program–Promoting Energy Efficiency and Renewable Energy in Brazil 2013).

[1] Mingəçevir Dövlət Universiteti, ilhama.mammadova@mdu.edu.az, ORCID 0009-0001-9860-9679.

Bəzi mənbələrə görə, Yaşıl İqtisadiyyat iqtisadi elmdə son iki onillikdə yaranmış bir istiqamətdir və onun daxilində iqtisadiyyatın mövcud olduğu və onun bir hissəsi olduğu təbii mühitin asılı komponenti olduğuna inanılır. Yaşıl iqtisadiyyat anlayışı feminist iqtisadiyyat, postmodernizm, resursa əsaslanan iqtisadiyyat, ekoloji iqtisadiyyat, ətraf mühit iqtisadiyyatı, antiqlobalizm, yaşıl anarxizm, yaşıl siyasət, beynəlxalq münasibətlər nəzəriyyəsi və s. kimi iqtisadi elm və fəlsəfənin bir çox digər istiqamətlərindən olan fikirləri ehtiva edir (The Inova Energia Program–Promoting Energy Efficiency and Renewable Energy in Brazil 2013), (RE100 China analysis, Azure International, 2015). Yaşıl iqtisadiyyat nəzəriyyəsi 3 aksioma əsaslanır (Aswathanarayanaə, Harikrishnan ve Kadher-Mohien 2010), (Thomsen B. Evropeiskii opyt zakonodatel'nogo stimulirovaniya snizheniya energoemkosti 2013):

Məhdud məkanda təsir dairəsini sonsuz şəkildə genişləndirmək mümkün deyil;

Məhdud resurslar şəraitində sonsuz artan tələbatların ödənilməsini tələb etmək mümkün deyil;

Yer səthində hər şey bir-birinə bağlıdır.

UNEP Yaşıl İqtisadiyyatı "xarici resurslardan istifadəni daxili resurslara keçirən və iqtisadi artımın, iş yerlərinin yaradılmasının və yoxsulluğun azaldılmasının əsas hərəkətvericiləri kimi təmiz və səmərəli texnologiyalardan və dayanıqlı kənd təsərrüfatından istifadə edən iqtisadiyyat" kimi müəyyən edir. Bu, aşağı istixana qazı emissiyaları və iqlim dəyişikliyinin yavaşlamış və ya sabitləşmiş tempi, sosial gərginliyin azaldılması, transsərhəd əməkdaşlığın səmərəliliyinin artması, yəni yüksək texnologiyalı, aşağı karbonlu və ya ideal olaraq sıfır karbonlu iqtisadiyyatdır. O, iqlim dəyişikliyinin təsiri və su qıtlığının artması kimi əhəmiyyətli riskləri azaltmaqla yanaşı, iş yerlərinin yaradılması və iqtisadi tərəqqinin stimullaşdırılması üçün nəzərdə tutulub (United Nations Environment Programme). Hazırda cəmiyyət "yaşıl" iqtisadiyyat ifadəsinin mahiyyətini müxtəlif cür başa düşür. Bəziləri hesab edir ki, bunlar ölkənin təbiətini yaxşılaşdıracaq iqtisadiyyatın yeni sahələridir. Digərləri bu ifadəni yeni texnologiyalar, təbiətə kömək etmək və faydalanmaq üçün nəzərdə tutulmuş bir növ ekosistem kimi başa düşürlər. Digərləri bunun məqsədinin ekoloji cəhətdən təmiz məhsulların yaradılması olan yeni inkişaf mərhələsinə keçid olduğuna inanırlar (Rebound in Clean Energy Investment in 2014 Beats Expectations. Bloomberg New Energy Finance 2015). Konsepsiyanı təyin etmək üçün bütün bu yanaşmalar ifadənin mənasına çox yaxındır. "Yaşıl" iqtisadiyyat təbii sərvətlərdən səmərəli istifadə etməklə cəmiyyətin rifahını qorumağa, habelə son istifadə məhsullarının istehsal dövrünə qaytarılmasını təmin etməyə yönəlmiş iqtisadiyyatdır. İlk növbədə, "yaşıl" iqtisadiyyat hazırda tükənməyə məruz qalan ehtiyatların (faydalı qazıntılar - neft, qaz) qənaətli istehlakına və tükənməz ehtiyatlardan səmərəli istifadəyə yönəlmişdir. Yaşıl iqtisadiyyat təmiz və ya

“yaşıl” texnologiyalara əsaslanır. Ekspertlərin fikrincə, “yaşıl” iqtisadiyyatın inkişafı ölkələrimizə öz miqyasında artıq bir çox postindustrial ölkələrə təsir etmiş ekoloji böhrandan qaçmağa imkan verəcək (RE100 China analysis, Azure International, 2015). “Yaşıl” iqtisadiyyat konsepsiyasının tərəfdarları hesab edirlər ki, mövcud iqtisadi sistem böhranlar və bazar uğursuzluqları ilə sübut olunduğu kimi qeyri-kamildir və mahiyyətcə israfçılıqdır. Ümumilikdə insanların, xüsusən də müəyyən qrupların həyat səviyyəsinin yaxşılaşdırılmasında müəyyən nəticələr versə də, bu sistemin fəaliyyətinin mənfi nəticələri əhəmiyyətlidir: ekoloji problemlər, təbii kapitalın tükənməsi, geniş yayılmış yoxsulluq, şirin su, ərzaq çatışmazlığı, enerji, insanların və ölkələrin bərabərsizliyi. Bütün bunlar gələcək nəsillər üçün təhlükə yaradır (SADC renewable energy and energy efficiency 2015). İndi dünyada vəziyyət belədir ki, qalan biomüxtəlifliyin qorunmasında əsas məsuliyyət iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin üzərinə düşür. Təbiidir ki, bu ölkələrdə ətraf mühitin vəziyyətinin sabitləşməsinə və yaxşılaşdırılmasına yönəlmiş müxtəlif layihələrə start verilir, forumlar keçirilir, proqramlar hazırlanır. Bu layihə və proqramların əksəriyyəti enerji sektorunda yaradılır (Rebound in Clean Energy Investment in 2014 Beats Expectations 2017). 2010-cu ildə Davosda keçirilən 40-cı Dünya İqtisadi Forumunda “Planetin vəziyyətini yaxşılaşdırmaq: yenidən düşünmək, yenidən dizayn etmək, dünyanı yenidən qurmaq” şüarı altında yaşıl iqtisadiyyata doğru yeni qlobal kurs inkişafın yeganə yolu kimi elan edilmişdi. Təsadüfi deyil ki, Hər il fərqli bir ölkənin ev sahibliyi etdiyi 29-cu "Tərəflərin Konfransı (COP)" noyabrın 11-dən 24-dək Bakıda keçiriləcək. COP29 iqlim fəaliyyətini sürətləndirmək və Paris Sazişinin məqsədlərinə nail olmaq üçün keçirilən tarixi görüş hesab olunur. BMT-nin İqlim Dəyişikliyi Konfransı və ya COP29-un 2024-cü ilin noyabrında Azərbaycanda keçirilməsi elan ediləndən bəri rəsmi Bakı hazırlıq işlərinə çox da vaxt qalmadığını və işlərə start verdiyini bildirib (BBC news Azərbaycanca).

# AZƏRBAYCANDA BALNELOJİ TURİZMİN İNKİŞAFININ ƏHƏMİYYƏTİ VƏ PROBLEMLƏRİ (AZERBAYCAN'DA BALNELOJİK TURİZM GELİŞİMİN ÖNEMİ VE SORUNLARI)

**Nazim NİFTƏLİYEV**[1]

Təbii şəraitin və relyefin fərqli xüsusiyyətləri ölkəmizdə mövcud unikal imkanlardan biri olan sağlamlıq turizminin inkişafına şərait yaradır. Lakin rekreasiya zonalarında istirahət müəsisələrinin funksiyalarına daxil olan əsas komponentlər onun fəaliyyət istiqamətlərindən asılı olur. Hazırda Respublikamızda fəaliyyət göstərən kurort-sanatoriya müəsisələri əsas etibarı ilə iki istiqamətlidir. Bunlardan birincisi tərkibində sanatoriya, sağlamlıq bərpa mərkəzləri olan turizm kompleksləri, ikincisi isə müalicəvi təbiət komponentlərinin yaxınlığında yerləşən, azprofilli xidmətlər göstərən turizm obyektləridir. Hazırda bu tip kurort müəsisələrinin əksəriyyətində müxtəlif xəstəliklər üzrə təbii üsulla müalicə xidmətləri təklif olunur. Bu tip müəsisələrdən Naxçıvanda Duzdağı, Naftalan neftini, Masallı İstisunu, Şıx mineral suyu, Bədo mineral suyu, Mollakənd İstisunu, Abşeron yarımadasında yerləşən sanatoriyaları və s.misal çəkə bilərik. Respublikamızda ənənəvi müalicə kurortu ilə yanaşı, həm də müasir müalicə şəraiti və imkanları mövcuddur. Azərbaycanda minlərlə isti və mineral bulaqlar mövcuddur. Bunların arasında ən məhşurları Badamlı, Turşsu, İstisu, Qalaaltı, Şıxburnu isti və müalicəvi su mənbələridir. Böyrək daşı, qaraciyər, öd, mədə-bağırsaq və s. kimi xəstəliklərin müalicəsi üçün Naxçıvan ərazisindəki təbii bulaqlardan istifadə edilə bilər. Respublikamız həm də müalicəvi əhəmiyyətli mineral su ehtiyatları ilə zəngindir. Bu zənginliyə görə Respublikamızın ərazisini "mineral sular muzeyi" adlandırırlar. Dünyada məhşur olan “Karlovi Vari” suları qədər keyfiyyətli mineral və isti bulaqlar- Kəlbəcər rayonu ərazisində yerləşən İstisu, Naxçıvanda Badamlı, Vayxır, Sirab mineral bulaqları respublikamızla yanaşı digər ölkələrdə də məşhurdur. Abşeron yarımadasında Şıx və Suraxanı, Dəvəçi rayonu ərazisində Qalaaltı, Culfa rayonunda Turşsu müalicəvi əhəmiyyəti nəzərdə tutulan mineral sulardan bəziləridir. Böyük Qafqazın şimal-şərq və cənub-şərq yamaclarında Talış dağlarında isə termal bulaqlar üstünlük təşkil edir.

[1] Mingəçevir Dövlət Universiteti, nazim.niftaliyev@mdu.edu.az, ORCID: 0009-0007-2416-878X.

Aran iqtisadi rayonunda mineral su mənbələrindən yerli əhali istifadə edir. Kürdəmir, Salyan, Neftçala və digər rayonlarda temperaturu yüksək olan yeraltı suların bəziləri yerli əhali tərəfindən oynaq və revmatizm, dəri-zöhrəvi xəstəliklərin müalicəsi üçün istifadə olunur. Ölkəmizdə yararlı kurort amillərindən biri də çoxlu miqdarda palçıq yataqlarının olmasıdır. Azərbaycan Respublikasının ərazisində 250-dən çox palçıq yataqları mövcuddur. Uzun müddətdir ki, təbii palçıqlardan hərəkət-dayaq aparatı, əsəb sistemi xəstəliklərinin müalicəsi üçün xüsusi istifadə olunur. Bunların arasında, Salyan rayonu yaxınlığında yerləşən Babazənən palçıq vulkanından çıxan müalicəvi əhəmiyyətli palçıq olduqca əhəmiyyətlidir (Soltanova, 2015, səh.275) Hazırda Qobustan ərazisində fəaliyyət göstərən palçıq vulkanlarının kütləsindən kosmetalogiyada geniş istifadə olunur. Azərbaycanın günəşli ölkə adlandırılması da təsadüfi deyil. İl boyunca günəşli günlərin miqdarına və sayına görə Respublikamız İspaniya, İtaliya və Yunanıstan kimi ölkələrlə müqayisə edilir. Respublikamızın şərq ərazisi boyunca 825 km uzunluğunda yer tutan Xəzər dənizinin sahillərinin istirahət zonası kimi istifadə olunması üçün bir çox şərait mövcuddur. Xəzər dənizinin sahili iqlim zonası təbii şəraitinə və balneloji imkanlarının müxtəlifliyinə görə regionda ən zəngin turizm sahəsidir (Hacıyev, 2017, səh. 34-42). Xudat-Yalama sahili az duzluluğuna görə həsas dəri tipi olanlar üçün, Abşeron yarımadasının qumlu sahilləri isə hərəkət-dayaq sisteminin müalicəsində “qum vannaları” kimi olduqca əlverişlidir. Naftalan nefti ölkəmizin çox böyük kurort resurslarındandır. Naftalan kurortu 1933-cü ildən fəaliyyət göstərir. Kurort daxilində Naftalan eksperimental laboratoriyası və Elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Hazırda Naftalan şəhəri ərazisində kifayət qədər sanatoriya və otellər fəaliyyət göstərir. Son illərdə burada beş ulduzlu otellərin istifadəyə verilməsi, əraziyə xarici turistlərin marağının artmasına səbəb olmuşdur. Bu neftin köməyi ilə hərəkət orqanları və damar xəstəlikləri, həmçinin yel xəstəlikləri də uğurla müalicə edilə bilir. Eyni zamanda, maddələr mübadiləsinin pozulması, genekoloji xəstəliklərin müalicəsində də bu neft olduqca böyük əhəmiyyətə malikdir. Dünya Səhiyyə Təşkilatının məlumatına görə, planetimizin əhalisinin təqribən 10%-I allergic xəstəlikdən əziyyət çəkir ki, bunun da 1,5-2%-i bronxial astmanın payına düşür. Bir çox xəstəliklərin, həmçinin bronxial astmanın müalicəsində duz şaxtasının əhəmiyyəti olduqca böyükdür. Belə ki, dəniz səviyyəsindən 1173 m hündürlükdə yerləşən Duzdağ sanatoriyası 1979 cu ildən fəaliyyət göstərir (Naxçıvan, Duzdağ). Burada yerli və xarici ziyarətçilərin Spleoterapiya alması üçün bütün şərait yaradılmışdır. Duzdağ müalicə kurortuna müraciət edənlərin böyük əksəriyyəti yrli tuistlərlə yanaşı, Rusiya, Türkiyə, İran və MDB ölkələri vətəndaşlarıdır. Hal-hazırda ölkəmizdə tibbi turizm növünün başlıca problemi sanatoriya-kurort müəssisələrində məskunlaşmış qaçqın və məcburi köçkünlərin köçürülməsidir. Belə ki, 6 fevral 2009-cu il tarixində təsdiq edilmiş Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üçün

Dövlət Proqramının həyata keçirilməsi, sağlamlıq turizmi sahəsində yeniliklərə səbəb olmuşdur (Qanun, 2011). Təəssüf ki, bir neçə sanatoriyadan, o cümlədən Bilgəh, Pirşağı və Şıx qəsəbələrindəki sanatoriyalarından məcburi köçkün ailələri hələ də köçürülməmişdir. Qarşıya qoyulan məsələlərdən biri də, ölkə əhalisinin yerli kurortlardan istifadəsinin genişləndirilməsi, xarici ölkə vətəndaşlarının müalicə və istirahət məqsədi ilə Azərbaycan Respublikasına gəlməsinin təmini və sanatoriya-kurort sahəsinin rentabelliyinin artırılması olmalıdır (Dərgahov və Talıbov, 2018, səh.239-245). Görülən işlər arasında ən yaxşı təşəbbüslərdən də biri, Naftalan və Duzdağın alternativi olan kiçik müalicəvi sanatoriyalarn Bakı şəhəri yaxınlığında fəaliyyət göstərməsidir. Çünki bir çox hallarda istər yerli əhali, istərsə də xarici turistlərin bir hissəsi uzaq məsafəyə görə müalicə üçün bu məkanlara gedə bilmirlər. Təəssüflə qeyd etmək istərdim ki, müqayisədə Şimali Qafqazdan geri qalmayan və yüksək debitə malik bir çox mineral bulaqların suyu istifadə olunmadan sadəcə axıb çay sularına qarışır. Halbuki, hər il minlərlə Azərbaycan vətəndaşı Şimali Qafqaza müalicə almaq məqsədi ilə turist kimi müraciət edirlər. Bu eyni zamanda da ölkə daxilində qazanılan pulun kənarda xərclənməsi deməkdir. Xüsusilə olaraq qeyd edim ki, ölkəmizin mövcud potensialına görə müalicə turizmi də prioritet turizm növlərindən biridir. Eyni zamanda yerli turizm şirkətlərimizin də mövcud potensialı daha çox reklam vasitəsi ilə tanıtması olduqca vacibdir. İşğaldan azad edilmiş Qarabağ bölgəsində də kifayət qədər müxtəlif mineral tərkibli bulaqların labarator müayinəsi aparılaraq, məqsədəuyğun sahədə məhz mədə-bağırsaq xəstəliklərinin müalicəsi məqsədilə sanatoriya tipli turizm-kurort kompleksi yaradılacaq.

# THE ART OF BALANCING: TIME MANAGEMENT STRATEGIES FOR BUSY STUDENTS (DENGELEME SANATI: MEŞGUL ÖĞRENCİLER İÇİN ZAMAN YÖNETİMİ STRATEJİLERİ)

**Turkanbayim AHMADLİ**[1]

Time management is a critical skill for everyone, especially students to master when juggling academic, work, and personal commitments. Today's world demands sufficient and practical time management skills to cope with life and maintain a work-life balance. We need it because we want to feel personal fulfilment. What is a work-life balance? According to Coursera authors, work-life balance refers to the state of being able to effectively manage personal and professional responsibilities without compromising one's well-being. It is a dynamic concept that varies from person to person, depending on their values, priorities, and cases. Some people may define work-life balance as having a clear separation between work and life, while others may prefer to integrate them. Ultimately, it is about seeing what works best for you and your situation. Harvard Business Review article explores the challenge of achieving a sustainable work-life balance among professionals, based on interviews with managers from global firms. While many assumed long hours were unavoidable, some of the employees accomplished balance through elevated awareness, reprioritization, and implementing public and personal changes. The authors stress that interminable change involves a continuous cycle of self-evaluation, adapting to developing preferences, and creating ongoing adjustments to work and life choices. I would like to state some practical time management and time-blocking for academic task strategies along with tips to avoid procrastination and maintain focus during study sessions. Before going into details of the aforementioned techniques I want to show the definition of the word "to procrastinate" too, which means "to put off intentionally the doing of something that should be done" according to the Merriam-Webster dictionary. Several time management techniques:

- Start your day with a plan: Create a to-do list of all the things you want and need to do.
- Prioritize the most important tasks: Organize your to-do list in order of priority.
- Divide larger projects into smaller tasks: Break large projects into smaller, more manageable tasks.

[1] Mingachevir State University, turkanbayim.ahmadli@mdu.edu.az.

I want to highlight one of the tools that students can use to ensure their tasks are in control. One of them is called the Eisenhower Matrix, and it is acquired widely in business. The Eisenhower Matrix, also known as the Urgent-Important Matrix, is a time management tool based on President Dwight D. Eisenhower's approach to prioritization. It assists individuals in categorizing tasks into four quadrants based on their urgency and importance. The matrix is widely used in various fields, including management, education, and productivity. Time blocking is a productivity technique that involves dividing your day into specific blocks of time and assigning each block to a particular task or activity. This technique allows you to break down complex assignments into manageable chunks, ensuring that you stay on track and meet deadlines. It's particularly effective for academic tasks, where you often have to juggle multiple assignments, projects, and exams. By consciously scheduling time for these tasks, you can maintain a better balance and reduce the temptation to engage in distractions. Time blocking can also be used for recreational activities. By setting aside specific blocks of time for leisure activities, you can ensure that you have a healthy work-life balance. It could include time for exercise, meditation any kind of mindfulness activity, socializing, or even playing with a pet. The key is to make sure that these activities are scheduled into your day, just like your academic or work tasks. Time management success relies on one's ability to accurately estimate how long tasks will take and your discipline in sticking to your schedule. It's also important to review and adjust your time blocks as needed. Adequate time management is essential for students to eliminate stress, ensure productivity, and achieve a healthy work-life balance. In conclusion, by executing these techniques, I believe students can enhance their time management skills and advance their academic and personal objectives.

# DİJİTAL DÖNÜŞÜMÜN REKREASYON YÖNETİMİ MÜFREDATLARINA YANSIMASI

**Dr. Öğr. Üyesi Gül Nur DEMİRAL[1]**
**Arş. Gör. Dr. Taner AKKOÇ[2]**

Turizm endüstrisinin küresel düzeyde dönüşmesine yol açan Bilgi ve İletişim Teknolojileri (Buhalis ve O'Connor 2005; Pierdicca, Paolanti, ve Frontoni, 2019), geleneksel turizm anlayışına yeni bir bakış açısı kazandırmıştır (Bąk, Barej-Kaczmarek ve Sulikowski, 2022). Bilişim teknolojilerindeki bu hızlı dönüşüm toplumsal kabulü uzun yıllardır süren birçok sistemin değişmesini sağlamıştır. Ulaşım, sanayi, ekonomi, iletişim ve haberleşme gibi alanlarla birlikte eğitim de bu değişimden önemli ölçüde etkilenmiştir (Varol, 2023). Gerek emek yoğun bir sektör olması gerekse yoğun rekabet koşullarının olması sebebiyle turizmdeki insan kaynağına yönelik eğitimde de birtakım düzenlemelere ihtiyaç duyulmuştur (Üçüncü Turizm Şurası, 2017). Bu durum turizm eğitiminde söz konusu değişime uyum sağlanması, yeni koşullara ve gereksinimlere göre eğitim müfredatı ve programının oluşturulmasını beraberinde getirmiştir (Göral ve Yurtlu, 2022). Turizm eğitiminde teknoloji ve dijitalleşmenin müfredatlara yansıması gerektiği programlardan biri de rekreasyon yönetimidir. Buradan hareketle bu çalışmada, rekreasyon yönetimi lisans programları müfredatında bulunan teknoloji odaklı derslerin mevcut durumunun ortaya çıkarılması amaçlanmıştır. Çalışma, teknoloji alanındaki değişen koşullara uyumu konusunda rekreasyon yönetimi lisans programlarının müfredatındaki eksikliklerin tespit edilmesi ve bunlara yönelik öneriler getirmesi açısından önemli görülmektedir. Rekreasyon yönetimi lisans programı; yüksekokul ve fakülte olarak hizmet sunan yükseköğretim kurumları çatısı altında yer almaktadır. Bu doğrultuda nitel bir araştırma yaklaşımı benimsenen çalışmada doküman inceleme tekniği ile öncelikle YÖK Atlas'tan turizm fakülteleri ve turizm ve otel işletmeciliği yüksekokulları bünyesinde faaliyet gösteren rekreasyon yönetimi programları belirlenmiştir. Uygulamalı bilimler fakülteleri ve yüksekokulları sahip oldukları program içeriklerinin tamamının turizm odaklı olmaması nedeniyle çalışma kapsamı dışında bırakılmıştır. Yapılan doküman inceleme sonrasında rekreasyon yönetimi programı olan 14 turizm fakültesi ve dört yüksekokul tespit edilmiştir. İkincil kaynaklardan yararlanılarak veriler toplanırken Sinop Üniversitesi Turizm İşletmeciliği ve Otelcilik Yüksekokulu'nun 2023 yılında turizm fakültesine dönüştüğü görülmüştür. Dolayısıyla bu

[1]Manisa Celal Bayar Üniversitesi, gulnur.demiral@cbu.edu.tr, ORCID: 0000-0002-1473-7578.
[2]Ondokuz Mayıs Üniversitesi, taner.akkoc@omu.edu.tr, ORCID: 0000-0002-2196-3266.

çalışma, 15 turizm fakültesi ve üç yüksekokulun rekreasyon yönetimi programlarının 2023-2024 müfredatları üzerinde yürütülmüştür. Müfredatların, 2023-2024 güz ve bahar dönemleri ile sınırlandırılmasının nedeni, güncel programlarda teknoloji konulu derslere yer verilip verilmediğinin belirlenmek istenmesidir. İlgili müfredatlara fakülte ve yüksekokulların resmi web siteleri aracılığıyla ulaşılmış, web sitelerinde derslerle ilgili herhangi bir bilgi bulunmayan programların ders içerikleri ise bağlı bulundukları üniversitelerin resmi web sayfalarında yer alan bilgi paketlerinden edinilmiştir. Bu aşamada bir programın (Isparta Uygulamalı Bilimler Üniversitesi Turizm Fakültesi) müfredatlarına ulaşılamamıştır. Geriye kalan 17 programa ilişkin veriler doküman analizine tabi tutulmuştur. Buna göre Kırklareli Üniversitesi Turizm Fakültesi Rekreasyon Yönetimi programının, müfredatlarında en fazla teknoloji konulu ders (6 adet) bulunduran program olduğu saptanmıştır. Bunu sırasıyla Safranbolu Turizm Fakültesi (4 adet) ve Siirt Üniversitesi Turizm ve Otel İşletmeciliği Yüksekokulu (4 adet) takip etmektedir. Necmettin Erbakan Üniversitesi, Mersin Üniversitesi ve Giresun Üniversitesi turizm fakültelerindeki rekreasyon yönetimi programlarının her birinde ise teknoloji ile ilgili üç ders olduğu ortaya çıkarılmıştır. İncelenen müfredatların tümünün, teknoloji konulu en az bir derse sahip olduğu, programlardaki en yaygın dersin temel bilgi teknolojileri olduğu ve teknoloji derslerinin büyük bir kısmının zorunlu olduğu bulunmuştur. Bulgular doğrultusunda, teknolojinin günümüzde turizmin vazgeçilmez bir parçası haline geldiği düşünüldüğünde müfredatlardaki teknoloji konulu derslerin diğer derslere oranla oldukça düşük olduğu görülmüştür. Yaşanılan çağın gereksinimlerine paralel olarak teknoloji konulu derslere müfredatlarda daha fazla yer verilmesi gerekliliğinin yanı sıra üniversitelerin ve üniversitelere bağlı birimlerin dışarıdan görünen yüzleri olan web siteleri geliştirilmeli ve güncel bilgi akışı bu siteler üzerinden sağlıklı bir şekilde yürütülmelidir.

# DAVAMLI TURİZMİN REGİONAL İNKİŞAFA TƏSİRİ
# (SÜRDÜRÜLEBİLİR TURİZMİN BÖLGESEL KALKINMAYA ETKİSİ)

**Gülgün BAĞIROVA**[1]

Sənayeləşmə prosesi və sosial, iqtisadi, mədəni, texnoloji, ekoloji inkişaf nəticəsində davamlılıq mühüm bir fenomen olaraq ortaya çıxmışdır. Davamlılıq turizmin xammalını təşkil edən təbii və mədəni sərvətlərin qorunması, gələcək nəsillərə ötürülməsi kontekstində diqqətlə düşünülməli olan bir məsələdir. Turizm potensialına malik olan, lakin resurslarından səmərəli istifadə edə bilməyən bölgədə turizm sektorunun davamlı inkişafını təmin etməklə həmin bölgənin regional inkişafına nail olmaq olar. Turizmin ətraf mühitlə qarşılıqlı əlaqəsi potensiala malik olan və turizm təchizatına çevrilə bilən ərazilərdə yaranır. Turizm sektoru xarici valyuta və məşğulluq yaratmaqla iqtisadi, müxtəlif mədəniyyətləri bir araya gətirmək, sülhü təmin etməklə sosial-mədəni, ətraf mühitin mühafizəsi və turizm ehtiyatlarının davamlılığının artırılması məqsədi ilə fiziki mühitlə qarşılıqlı əlaqədədir. Ərazidə turizm fəaliyyətinin inkişafı, xüsusən də kütləvi turizm nəticəsində şüursuz və plansız fəaliyyətlər, ekoloji dəyərlərin pisləşməsi və daşıma qabiliyyətinin aşılması kimi hallar yaranır. Turizmin mənfi təsirlərindən biri olan bu vəziyyət turizm sahələrinin düzəlməz ziyanla üzləşməsinə səbəb olur. Bu mənfi hallara alternativ olaraq ortaya çıxan dayanıqlı turizm təbii, sosial, mədəni və iqtisadi sərvətlərin qorunmasını və davamlılığını nəzərə alan, ehtiyatlardan istifadə imkanı yaradan, bu resurslardan gəlir əldə edən və həmin gəlirin resursun aid olduğu yerdə istifadə olunmasını təmin edən turizmin inkişafı ilə bağlı yanaşmadır. Regionlararası tarazlığın aradan qaldırılmasında, iqtisadi fəaliyyətlərin şaxələndirilməsində, yoxsulluğun və miqrasiyasının azaldılmasında, sosial sülhün və ədalətin təmin edilməsində, mədəni zənginliyin qorunub saxlanılmasında, yerli sərvətlərdən səmərəli istifadə edilməsində yerli tərəflərlə koordinasiyalı fəaliyyət göstərən turizm böyük əhəmiyyət kəsb edir. Turizm regionun rəqabət qabiliyyətini artırmaq, bölgə iqtisadiyyatına töhfə vermək və bütün mədəni dəyərləri qabaqcıl mədəni şüurla gələcəyə daşımaq üçün inkişafın əsas istiqaməti olmaq potensialına malikdir. Əhalinin sürətli artımı, texnologiyanın inkişafı, sənayeləşmənin yaratdığı mənfi hallar, planlaşdırılmamış tikintilər və ehtiyatlardan şüursuz istifadə nəticəsində dünya

[1] Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, gulgun.baghirova@admiu.edu.az, ORCID: 0000-0001-5206-3052.

ekoloji problemlərlə üzləşmişdir. İnsanların qeyri-məhdud ehtiyac və tələbləri, mövcud resursların qıtlığı bütün dünyanı davamlılıq şərtlərini araşdırmağa sövq etmişdir. Davamlılıq "insan fəaliyyətinin ekoloji resurslara təsirindən yaranan uzun-müddətli iqtisadi, sosial və ekoloji neqativ halların qarşısının alınmasına yönəlmiş yanaşmalar məcmusu" kimi müəyyən edilir. Turizm fəaliyyətlərinin təbii və mədəni sərvətlərə mənfi təsir göstərməsi və bu təsirlərin turizmin gələcəyini təhlükə altına atması ilə davamlılıq anlayışı turizm sahəsində öz əksini tapmışdır. ÜTT (1998) görə davamlı turizm "insanların qarşılıqlı əlaqədə olduğu və ya olmadığı mühiti zədələmədən və dəyişmədən, mədəni bütövlüyün, ekoloji proseslərin, bioloji müxtəlifliyin və həyatı təmin edən sistemlərin qorunduğu, eyni zamanda, ziyarət edilən bölgədə insanların və turistlərin iqtisadi, sosial və estetik ehtiyaclarını ödəyən və gələcək nəsillər üçün əlçatan bir şəkildə təmin edən bütün resursların mövcud olduğu mühitdir". Turizmin davamlı inkişafı üçün ətraf mühit resurslarından ən yaxşı şəkildə istifadə təmin edilməli, ziyarət edilən icmaların sosial mədəni quruluşuna və ənənələrinə hörmət edilməli, bütün maraq qrupları arasında ədalətli şəkildə bölüşdürülmüş sosial-iqtisadi səmərə ilə ardıcıl və uzunmüddətli iqtisadi fəaliyyətlər irəli sürülməlidir. Regional inkişafa bir bölgədə cəmiyyətin sosial-iqtisadi strukturunda baş verən dəyişikliklər, əhaliyə düşən istehsal həcmində əhəmiyyətli dərəcədə real artım və rifah səviyyəsinin yüksəlməsi daxildir. Ətraf mühitin daşıma qabiliyyətinə diqqəti cəlb edən, resursların istifadəsində nəsillərarası bərabərliyi nəzərə alan, iqtisadi və sosial inkişaf ilə ətraf mühit arasında əlaqə quran və onların vəhdətini vurğulayan prinsiplər, davamlı inkişafın əsas istiqamətlərini ortaya qoyur. Davamlı regional inkişaf ehtiyac və bölgədəki təbii ehtiyatların davamlılığı arasında tarazlıq yaratmağı və planlaşdırmanı iqtisadi, ekoloji və sosial ölçülərə uyğunlaşdırmağı hədəfləyən vahid bir yanaşmadır. Prosesin qarşısında duran ən mühüm maneə mövcud istehsal amillərindən, xüsusən də təbiətdən həddindən artıq istifadə edilməsidir. Özünü yeniləmək şansı verilməyən təbiət gələcək nəsillər üçün aclıq deməkdir. Bütün sahələr öz istehsal prosesində təbiətindən istifadə edir, ona vurduğu zərərdən az və ya çox dərəcədə təsirlənir. Turizm sektorunun əsas kapitalını təşkil edən təbiət, mədəniyyət, tarix və s. kimi təbii olan, özünü yeniləmə və özbaşına ye-nilənmə ehtimalı az olan dəyərlərdən həddindən artıq asılılıq bu təsirin dərəcəsini artırır.

Turizmin davamlılığı üçün dörd perspektiv tələb mövcuddur:

- İqtisadi davamlılığı üçün sahəvi;
- Ekoloji davamlılıq üçün ekoloji;
- Davamlı inkişaf üçün uzunmüddətli;
- Turizmin davamlı inkişafı üçün strateji.

Bu perspektivlər vahid şəkildə ətraf mühitin bütün dinamikasını nəzərə alan və regional inkişafı özündə ehtiva edən davamlı turizmin yaradılmasında böyük əhəmiyyət kəsb edir

# KİBERTƏHLÜKƏSİZLİK VƏ YAŞIL DÜNYA VİZYONUYLA DİJİTALLAŞAN REKREASYON SEKTORU (SİBER GÜVENLİK VE YEŞİL BİR DÜNYA VİZYONU İLE DİJİTALLEŞEN REKREASYON SEKTÖRÜ)

**Elvin MURADZADƏ**[1]

İstirahət sənayesinin rəqəmsal transformasiyası istirahət fəaliyyətini, istirahət xidmətlərini və əyləncəni yaxşılaşdırmaq üçün rəqəmsal texnologiyanın inteqrasiyasını nəzərdə tutur. Bu keçid texnologiya sıçrayışları, dəyişən müştəri zövqləri və firmaların rəqabətədavamlı qalma zərurətindən qaynaqlanır. Onlayn sifariş və rezervasiyalar, virtual və genişlənmiş reallıq (VR/AR) texnologiyaları, mobil proqramlar və geyilə bilən cihazlar, verilənlərin analitikası və fərdiləşdirmə, ağıllı məkanlar və IoT inteqrasiyası, e-ticarət, sosial media və icma quruculuğu, axın və tələb üzrə məzmun və sosial medianın istirahət fəaliyyəti və hadisələrin təşviqində rolu əhəmiyyətli təsir sahələridir. İstifadəçilər şirkətlərə rezervasiyaları daha səmərəli idarə etməyə kömək edən idman qurğuları, tədbir biletləri, ekskursiyalar və yaşayış yerləri kimi istirahət tədbirlərini bron etmək üçün rəqəmsal platformalardan istifadə edə bilərlər. İstirahət sənayesi məsuliyyətli təcrübələri təşviq etmək və cəmiyyətlərin və planetin rifahına töhfə vermək üçün davamlılıq təşəb-büslərini getdikcə daha çox qəbul edir. Bu təşəbbüslərə yaşıl bina və obyekt-lərin dizaynı, enerji səmərəliliyi, tullantıların azaldılması və təkrar emalı, suyun qorunması, davamlı nəqliyyat, biomüxtəlifliyin qorunması, icmanın iştirakı və sosial məsuliyyət, xeyriyyəçilik təşəbbüsləri, təlim proqramları, sertifikatlar və standartlar, karbonun sıxılması, məsuliyyətli təchizat zənciri-nin idarə edilməsi daxildir.

- Yaşıl Bina və Obyekt Dizaynı: LEED standartlarına uyğun olaraq obyektlərin tikintisi və ya təmiri enerji səmərəliliyi, suya qənaət və ətraf mühitə daha az təsir göstərir.
- Bərpa olunan Enerji Mənbələri: bərpa olunan enerji mənbələrinin və enerjiyə qənaət edən işıqlandırmanın, HVAC sistemlərinin və cihazların tətbiqi bərpa olunmayan enerjilərdən asılılığı azaldır və karbon emissiyalarını minimuma endirir.

---

[1] Azərbaycan, Mingəçevir Dövlət Universiteti, elvin.muradzaada@mdu.edu.az, ORCID: 0000-0002-3679-9833.

- Tullantıların İdarə Edilməsi Proqramları: hərtərəfli tullantıların idarə edilməsi proqramlarının həyata keçirilməsi və təkrar istifadə oluna bilən və ya bioloji parçalana bilən materiallar kimi alternativlərin təşviqi.
- Suyun mühafizə edilməsi: Suya qənaət texnologiyalarının tətbiqi və landşaft dizaynında və rekreasiya su xüsusiyyətlərində suyun mühafizəsi təcrübələri-nin qəbulu.

Davamlılıq təşəbbüsləri təkcə ətraf mühitin qorunmasına töhfə ver-mir, həm də istirahət sənayesindəki təşkilatların nüfuzunu və cəlbediciliyini artırır. İstehlakçılar getdikcə öz dəyərlərinə uyğun təcrübələr axtarır və bu təşəbbüsləri bu sənayedə uzunmüddətli uğur üçün vacib edir. İstirahət sənayesi ətraf mühitə təsirləri minimuma endirmək, sosial məsuliyyəti təşviq etmək və yerli icmaları dəstəkləmək üçün davamlılıq təşəbbüslərini getdikcə daha çox qəbul edir. Bu təşəbbüslərə yaşıl tikinti və dizayn, tullantıların idarə edilməsi, suyun mühafizəsi, biomüxtəlifliyin qorunması, nəqliyyat təşəbbüsləri, təhsil proqramları, sertifikatlar və stan-dartlar, ictimaiyyətin iştirakı, karbonun azaldılması proqramları, tərəfdaşlıq və əməkdaşlıq daxildir. Tullantıların idarə edilməsi tullantıların azaldılması və təkrar emalı proqramlarının həyata keçirilməsi, təkrar istifadə edilə bilən məhsulların təşviqi və birdəfəlik plastiklərin azaldılması deməkdir. Bio-müxtəlifliyin qorunması təbii yaşayış yerlərinin qorunması və bərpası və davamlı torpaq idarəçiliyi təcrübələrinin həyata keçirilməsini əhatə edir. Nəqliyyat təşəbbüsləri alternativ nəqliyyat variantlarını və ictimai nəqliyyatı təşviq edir. Təhsil proqramları ətraf mühit haqqında məlumatlılığı artırır və məsuliyyətli istirahəti təşviq edir. Digər bizneslər, qeyri-hökumət təşkilatları və dövlət qurumları ilə tərəfdaşlıq və əməkdaşlıq əyləncə sənayesinin ümu-mi davamlılığını daha da artırır. Bu transformasiya istifadəçilərə qlobal miqyasda qoşulmağa, rəqabət aparmağa və əməkdaşlıq etməyə imkan verən onlayn oyun platformalarının artması ilə asanlaşdırılıb. Kibertəhlükəsizlik istifadəçi məlumatlarını qorumaq, onlayn əməliyyatları qorumaq və onlayn təhlükəsizliyi təmin etmək üçün həyata keçirilən tədbirlərlə bu transformasi-yanın mühüm aspektidir. İstirahət sənayesi həmçinin yaşıl dünya vizyonuna diqqət yetirir, da-yanıqlı enerji mənbələri vasitəsilə enerji səmərəliliyinə üstünlük verir, ener-jiyə qənaət üçün aparat və proqram təminatını optimallaşdırır və məlumat mərkəzlərində ekoloji cəhətdən təmiz təcrübələri qəbul edir. Oyunlardakı ekoloji mövzular və davamlılıq mesajları oyunçuları real həyatlarında ekoloji cəhətdən təmiz təcrübələr tətbiq etməyə ruhlandıra bilər. Ətraf mühitə təsi-rin qiymətləndirilməsi rəqəmsal fəaliyyətlərin ətraf mühitə təsirini başa düşmək və minimuma endirmək üçün də vacibdir. Bu vizyonu həyata ke-çirmək üçün innovasiyanı etik və davamlı təcrübələrlə tarazlaşdırmaq çox vacibdir. İstirahət sənayesi müştərilərin təcrübələrini yaxşılaşdırmaq, əməliyyatları asanlaşdırmaq və xidmətləri təkmilləşdirmək üçün rəqəmsal texnologiyadan getdikcə daha çox istifadə edir. Bununla belə, bu, məlumatların pozulması və ransomware hücumları kimi kibertəhlükəsizlik problemlərinə səbəb olub. Yaşıl

dünya baxışı davamlılığı, enerji səmərəliliyini və ekoloji məsuliyyəti vurğulayır və şirkətlər karbon izlərini azaltmağın yollarını araşdırırlar. Kibertəhlükəsizlik tədbirlərinin yaşıl təşəbbüslərlə inteqrasiyası kiberhücumlardan ətraf mühitə və maliyyə zərərinin qarşısını almaq üçün çox vacibdir. İstirahət sənayesinin gələcəyinin davamlı rəqəmsallaşma, artan kibertəhlükəsizlik təhdidləri və davamlı təcrübələrin həyata keçirilməsi üçün artan təzyiqi görəcəyi gözlənilir. Bu çağırışlara cavab vermək üçün sənayedəki bizneslər güclü kibertəhlükəsizlik tədbirlərinə sərmayə qoymağı, ekoloji cəhətdən təmiz texnologiyalar qəbul etməyi, sənaye və hökumət qaydaları ilə əməkdaşlıq etməyi prioritet hesab etməlidir. Nəticədə, istirahət sənayesində kibertəhlükəsizlik, rəqəmsallaşma və yaşıl dünyaya baxışın yaxınlaşması həm imkanlar, həm də mürəkkəb problemlər yaradır. Şirkətlər rəqəmsallaşmaya can atdıqca, bu səyləri davamlılığı və ekoloji məsuliyyəti vurğulayan yaşıl dünya vizyonu ilə uyğunlaşdırmaq vacibdir. Proaktiv strategiyaları həyata keçirməklə bizneslər rəqəmsal infrastrukturlarını gücləndirə və daha yaşıl və daha davamlı dünyaya töhfə verə bilərlər. Kibertəhlükəsizliyi yaşıl təşəbbüslərlə birləşdirərək, istirahət sənayesi ekoloji davamlılıq vizyonunu mənimsəyərək rəqəmsal əsrdə inkişaf edə bilər.

# OKUL ÖNCESİ EĞİTİMDE REKRESYON AKTİVİTELERİNİN YERİ VE ÖNEMİ

**Zübeyde TAŞKIN YILMAZ[1]**
**Emre BAHAR[2]**

Çocuklar, doğal keşfetme eğilimi ile dünyaya gelirler. Çok erken yaşta başlayan öğrenme, ilerleyen yaşlarda, hatta hayat boyu devam eder. Çocuklar, doğdukları andan itibaren merak duygusu ile etrafını keşfederler, çevresi ile iletişim kurarlar, yeni deneyimler kazanırlar. Bu yaşadığı deneyimler çocuğu olumlu veya olumsuz etkileyebilir. Çocuğun sağlıklı bir zihne sahip olması, çevresinin ona ne kadar zengin uyarıcı verdiği ile yakından ilişkilidir. Kaliteli ve zengin öğrenme koşulları ile, çocuğun sadece zihinsel değil bütün gelişim alanları üst seviyeye çıkartılabilir. Eğer bu ortam yaratılmazsa, bu durum çocukta davranış problemlerine ve bilişsel, dil, motor, sosyal ve duygusal gelişimlerinin gecikmesine sebep olur (Karayalçın, 2021:24). Okul öncesi eğitim, çocuğun doğumundan ilkokula başladığı zamanı içine alan, gelecekteki davranışlarına dayanak sayılabilecek dil, bilişsel, sosyal ve motor gelişimlerinin büyük bir bölümünün tamamlandığı gerek okul gerek ailede verilen uygun eğitimle kişiliğinin oturduğu gelişim ve öğretim sürecidir (Aral, Kandır, Yaşar, 2000; Akt. Yeşilyurt, 2011:17). Günümüzde en çok dikkat çeken konulardan birisi de 21. yüzyıl becerileridir. Yaşam koşulları, teknoloji, küreselleşme, sanayi, hızlı nüfus artışı gibi unsurlar yaşam sorunlarını artırdıkça bu sorunlarla baş etme becerileri eğitimin içinde yer almıştır. 21. yüzyıl becerilerine yönelik tutumun okul öncesi dönemde şekillenmeye başladığını, okul öncesi dönemde kazandırılan becerilerin yaşamın ileriki yıllarında problemlerle baş etme becerilerini desteklediğini, çocukların üretken, yaratıcı bireyler olmasında büyük öneme sahip olduğu öngörülmektedir (Tuğluk ve Altın, 2018:2). Rekreasyon, yenilenme, yeniden yaratılma ve yeniden yapılanma anlamına gelen Latince "recreatio" kelimesinden gelmektedir (Kocaeekşi, 2012:6). Bireylerin, iş yaşamlarında arta kalan zamanda kendilerini geliştirmek, güzel vakit geçirmek amacıyla yaptıkları aktivitelerdir. Okul öncesi eğitim, çocuğun gelecekteki yaşamı için iz taşır niteliktedir. Öyle ki; çocuğun kendi potansiyelinin farkında olması, yetkinliklerini geliştirmesi, sosyalleşmesi, kendine ve çevresine olan güven ilişkisini kurması, okul öncesi dönemde yapılan rekreatif etkinliklerle mümkündür. Henüz soyut düşünemeyen okul öncesi çocuklarına oyun yoluyla bu davranışlar kazandırılabilir. Doğru ve devamlı rekreatif etkinliklerle, çocuk

[1] Yüksek Lisans Öğrencisi, Trabzon Üniversitesi, zubeydetaskin80@gmail.com.
[2] Dr. Öğr. Üyesi, Trabzon Üniversitesi, emrebahar@gmail.com, ORCID: 0000-0002-2835-1190.

kendini daha iyi ifade eder, yaratıcı olur, potansiyel yeterliğinin farkına varır, bilişsel, fiziksel ve ruhsal gelişimi pozitif desteklenir. Çocukların kurguladığı evcilik, seksek, ip atlama, futbol, voleybol, basketbol, meslek oyunları, parkta oynadıkları oyunlar, zekâ oyunları, drama, kitap okuma, açık havada yürüyüş yapma, müzik dinleme, resim yapma, botanik park gezisi, tiyatroya gitme, müze gezisi, sinema etkinliği, halk oyunları, resim yarışmaları, spor salonundaki aktiviteler, kır gezileri, piknikler çocukların katılabileceği rekreatif faaliyetler arasında yer almaktadır. Ana rahmine düştüğü andan itibaren çocuk, öğrenmeye ve keşfetmeye merak duyar. Merakını gidermek için, içinde bulunduğu uyaranları istemli veya istemsiz olarak kullanır. Bu uyarıcılar ne kadar zengin ise, çocuğun bütünsel olarak gelişimi de o denli pozitif yönde gelişim gösterir. Merak duygusunun öğrenme ile bütünleştiği erken çocukluk dönemi olarak adlandırdığımız 0-6 yaş arası okul öncesi dönemde, çocukların boş zamanlarını gerek okulda gerek okul dışı ortamda kaliteli şekilde geçirmeleri gerekmektedir. Çocukların katılmış olduğu rekreatif aktiviteler; bedensel, zihinsel, dil ve sosyal gelişimlerine katkıda bulunur. Çocukların, serbest zamanda kendilerini daha özgür hissettikleri ortamlarda, dinlenmek, güzel vakit geçirmek için yaptıkları aktiviteler, onları kendi kendine yetebilen, özgür, yaratıcı ve eleştirel düşünme becerisine sahip, empati kurabilen, problem çözebilen, işbirlikçi, sosyal, ruhen ve bedenen sağlıklı, çevresine duyarlı bir birey haline getirecektir. Aile katılımı etkinlikleri ile velileri sınıfa davet ederek turşu kurma, mesleği tanıtma, kek yapma, örgü yapma, patates ve ip baskısı yapma gibi faaliyetlerle çocukların boş zamanı keyifli hale gelebilir. Öte yandan aileler açısından da rekreatif aktivite yerini bulmuş olur. Aileler ile toplumsal kurum ve kuruluşlara gezi düzenlenebilir (Tiyatro, müze, sinema, hayvanat bahçeleri, botanik bahçeler, akvaryumlar, bilim merkezleri, kütüphaneler, havaalanı, fırın, piknik alanları, at çiftliği, doğal anıtlar, milli parklar, okul spor müsabakaları vs.). Okul öncesi dönemde aile katılımını desteklemek amacıyla öğretmen ve okul idaresi tarafından broşürler ve bültenler düzenlenerek dönütü alınacak şekilde belirli periyotlarla velilere bilgi sağlanabilir.

# REKREASİYANIN AZƏRBAYCAN İQTİSADİYYATINDA ROLU (AZERBAYCAN EKONOMİSİNDE REKREASYONUN ROLÜ)

**Kəmalə KƏRİMOVA**[1]

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Sərəncamına əsasən 11 sektor üzrə, 8-i əsas sektor və 3-ü yardımçı sektor olmaqla, Azərbaycan iqtisadiyyatının ətraflı inkişaf planlarının hazırlanması və işlənilməsi məqsədi ilə İşçi qrup yaradılmışdır. İşçi qrupun qarşısına bir sıra əsas tapşırıqlar qoyulmuşdur. Bu tapşırıqlar 2020-ci ilədək iqtisadi inkişaf strategiyasının və tədbirlər planının, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışın və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışın hazırlanmasıdır. Turizmin müəyyənləşdirilməsinin turizmin inkişafı istiqamətində görülən işlərin davamlılığına və daimiliyinə xidmət etdiyi üçün milli iqtisadiyyatın inkişaf strategiyasında prioritet istiqamətlərdən biri kimi ixtisaslaşmışdır. Bu da öz növbəsində Azərbaycan Respublikasının dünya miqyasında turizmin qabaqcılməkanlarından biri kimi formalaşmasına, Azərbaycanda turizm xidmətlərinin keyfiyyətinin daha da artırılmasına, həmçinin qarşılıqlı güclü əlaqələrdən, mövcud olan turizm sərvətlərindən səmərəli istifadəsi turizm sahəsinin iştirakçıları ilə əməkdaşlığın inkişaf etdirilməsi üçün cığır açacaqdır. Strateji Yol Xəritəsi qüvvədə olduğu müddətcə milli-mənəvi dəyərlərə uyğun olaraq turizm təcrübəsinin inkişaf etdirilərək formalaşdırılması, turizm sferasının inkişafını dəstəkləməsi, yerli və beynəlxalq bazarlarda olduqca keyfiyyətli, rəqabətə davamlı turizm xidmətlərinin yaradılması, müasir ideya və təfəkkürlərə, innovasiyalara əsaslanan yeni yatırımların cəlb edilməsi və turizm sektorunun inkişafı ilə birbaşa məşğul olan məsul orqanların qarşılıqlı koordinasiyasını təmin edən tədbirləri özündə birləşdirir. Son 5 ildə turizm Azərbaycanda sürətlə inkişaf edən sahələrdən biridir. Bu sektorun son illərinin statistik göstəricilərinə baxsaq görərik ki, Azərbaycandakı turizm xidmətlərindən yararlanan xarici ölkə vətəndaşlarının ümumi sayında 8,5 faiz ortaillik artım baş vermişdir. Eyni zamanda turizmdə

[1] Mingəçevir Dövlət Universiteti, kamala.karimova@mdu.edu.az, ORCID: 0009 0000 3632 4769.

fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayındada 4,5 faiz sabit artım müşahidə edilmişdir. Bu da o deməkdir ki, turizm sahəsi respublika üzrə ÜDM-da 4,5, məşğulluqda isə 3,3 faiz birbaşa pay təşkil edir. Azərbaycanın paytaxtı Bakı şəhəri daim turizm sahəsinin inkişafında əsas aparıcı qüvvə kimi öz mövqesini tutmuşdur. Belə ki, şəhər beynəlxalq arenada tanınan və nüfuzlu turizm məkanları ilə turistləri özünə cəlb etmək baxımından hər zaman öndə olmuşdur. Bununla yanaşı çoxsaylı turizm altsektorlarının inkişafıda paralelində regional turizmin inkişafına yol açmışdır. Deyilənlərdən bu nəticəyə gəlmək olar ki, Azərbaycan 2025-ci ilədək əlində olan mövcud imkanlardan səmərəli və peşəkarcasına istifadə edərsə nəinki regionda, hətta digər dünya ölkələri arasında cəlbedici və öndə gedən turizm məkanlarından biri olacaqdır. Sadalanan məqsədlərə çatmaq üçün bir sıra planların şərtsiz həyata keçirilməsi böyük əhəmiyyətə malikdir. Bu planlardan bir neçəsi çoxsaylı turizm növləri üzrə fiziki və sosial infrastrukturun təkmilləşdirilməsi, hava əlaqəsinin və əlçatanlığın artırılması, yerli dəyərlərin beynəlxalq aləmdə uğurlu təbliğinin aparılmasıdır (məqalə, 2023). Turizm sektoru üzrə uzunmüddətli perspektivə sahib olmaq ölkə üzrə üçün dörd əsas istiqamət müəyyənləşdirilmişdir ki, bunlardan birincisi paytaxt şəhərin turizm potensialından səmərəli və tam istifadə etmək, ikinci istiqamət idarəetmənin milli səviyyədə daha yaxşı təşkili, turizm və rekreasiya zonalarının yaradılması, viza əməliyyatlarının asanlaşdırılması da daxil olmaqla, turizm sferasının inkişafı üçün ölkə üzrə əlverişli və sabit mühitin formalaşdırılması, üçüncü istiqamət qış, ekoturizm və sağlamlıq kimi turizm növlərinin inkişafına yatırımların daha çevik artımı turizm sektorunun daha sürətli inteqrasiyasına şərait yaradacaqdır. Və nəhayət, dördüncü hədəf turizm sektorunda təhsilin keyfiyyətini artırmaq və bu sahə üzrə investisiya qoyuluşlarını cəlb etmək, eyni zamanda standartlaşdırma və sertifikatlaşdırma sistemini təkmilləşdirmək və bu sahədə təcrübəni artırmaqdan bəhs edir (Xalq qəzeti, 2023). Azərbaycanda 2023-cü ilin yanvar-iyul aylarında ölkədə 70372,2 milyon manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur. Bu da əvvəlki il ilə müqayisədə 0,7 faiz çox artım deməkdir. İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 3,4 faiz artmışdır. Və qeyri neft-qaz sektorları içərisində turizm sektoru ÜDM istehsalının 2,3 faizini təşkil etmişdir. Bu da ötən il ilə müqayisədə turizmin inkişaf tempinin davam etdiyini göstərir (statistika, 2023).

# AZƏRBAYCANDA REKREASİYA TURİZMİNİN POTENSİALI VƏ BU HAQDA TƏKLİFLƏR (AZERBAYCAN'DA REKREASYON TURİZMİ POTANSİYELİ VE BU KONUDA ÖNERİLER)

**Təhminə MƏMMƏDOVA**[1]

Azərbaycan təbii gözəllikləri, tarixi zənginlikləri və müxtəlif iqlim xüsusiyyətləri ilə rekreasiya turizmi baxımından böyük potensiala malikdir. Bakı şəhəri müasir ticarət mərkəzləri, restoranları diqqəti cəlb edərkən, ölkənin digər bölgələri də müxtəlif istirahət imkanları təklif edir. Azərbaycanın dağlıq rayonları trekkinq və alpinizm üçün əlverişli olduğu halda, Xəzər dənizinin sahilləri çimərlik turizmi üçün idealdır. Göllər, meşələr və termal bulaqlar kimi təbii xüsusiyyətlər də istirahət fəaliyyətlərinə şərait yaradır. Azərbaycanın mədəni irsi, tarixi binaları və festivalları da turistlərə müxtəlif təcrübələr təqdim edir. Bu amillər bir araya gəldikdə, Azərbaycan rekreasiya turizmi üçün geniş potensiala malik müxtəlif istiqamətlər təklif edir. Azərbaycanın rekreasiya potensialı kifayət qədər zəngin və müxtəlifdir. Azərbaycan tarixi zənginliyi, təbii gözəlliyi və mədəni müxtəlifliyi ilə tanınan ölkədir. Azərbaycanın rekreasiya turizmi potensialını üzə çıxarmaq üçün etdiyim araşdırmanın nəticəsi olaraq deyə bilərəm ki, Azərbaycan bu baxımdan aşağıdakı potensiala malikdir (Bayramlı E., 2010). Təbii gözəlliklər:

Dağlıq rayonlar: Azərbaycan Qafqaz dağlarının evidir. Bu dağlıq ərazilər trekking, alpinizm və yürüyüş üçün idealdır.

Göllər və çaylar: Azərbaycana çoxlu göl və çaylar daxildir. Məsələn, Göygöl gölü və onun yaxınlığında olan göllər, eləcə də Samur, Kür və Araz çayının sahilləri kimi təbii ərazilər piknik, balıqçılıq və quşçuluq kimi fəaliyyətlər üçün olduqca əlverişlidir.

Tarixi abidələr və ərazilər: Azərbaycan tarix boyu müxtəlif sivilizasiyaların evi olmuşdur. Şəki şəhərindəki tarixi abidələrimiz, Qobstan Milli Parkı və Qobustan petroqlifləri tarix həvəskarları üçün əsas görməli yerlərdəndir.

Şəhər turizmi: paytaxt Bakı tarixi görünüşünü qoruyan abidələr və müasir memarlıq üslubunda inşa edilən binalar, alış-veriş mərkəzləri və əsrarəngiz formada işıqlandırılan gecələri ilə seçilir. Buraya UNESCO-nun Dünya İrsi siyahısına da daxildir.

[1] Mingəçevir Dövlət Universiteti, thmammadova@gmail.com, ORCID: 0009-0006-7588-9512.

Termal və sağlamlıq turizmi: Azərbaycanda məşhur olan termal mərkəzlərdən ən ilki Naftalan şəhəridir. Naftalanda olan neft məhsulları ilə zənginləşdirilən hamamlar sağlamlıq və müalicə məqsədləri üçün istifadə olunur.

Dəniz turizmi: Azərbaycan Xəzər dənizinin sahilində yerləşir. Bakı, Sumqayıt, Lənkəran və Nabran kimi sahil əraziləri dəniz turizm və rekreasiyası üçün məşhur bölgələridir (Abbasova K., 2018).

Aqroturizm: Azərbaycanın kəndləri ənənəvi həyat tərzi və kənd həyatı ilə tanış olmaq istəyən ziyarətçilər üçün olduqca cəlbedici ola bilər. Bu ərazilərdə yaşayış, regional mətbəx və sənətkarlıq da daxil olmaqla müxtəlif fəaliyyət növləri mövcuddur.

Qastronomik Turizm: Azərbaycanın zəngin kulinariya mədəniyyəti turistlərə yerli delikateslərin dadına baxmaq imkanı verir. Paxlava, plov və dolma kimi ənənəvi Azərbaycan yeməkləri turistlərə unikal dequstasiya təcrübələri təqdim edə bilər (Seferov R. və Hesenov T.,2005).

Azərbaycanın rekreasiya turizmi potensialını üzə çıxarmaqla əlaqədar aparılan araşdırmalar nəticəsində deyə bilərəm ki, Azərbaycanda bu sahə ilə bağlı mövcud problemlər aşağıdakılardır:

- Yerli ictimaiyyətdə rekreasiya haqqında məlumatlın zəif olması;
- Turizm və rekreasiya müəssisələri üzərində və xidmət keyfiyyətinə zəif nəzarət;
- Bəzi ərazilərdə infrastrukturun və üst quruluşun kifayət qədər olmaması;
- İxtisaslı kadrların az olması;
- Qiymətə nəzarət sisteminin zəifliyi;
- Ekoloji şüurun zəifliyi;
- Güclü rəqabət mühitinin olmaması;
- Sahə üzrə təşviqedici fəaliyyətin zəifliyi;
- Aviaqiymətlərin beynəlxalq bazara nisbətdə baha olması;
- Bəzi bölgələrdə həddindən artıq yüksək qiymət problemi (Növresli T., 2010).

Azərbaycanın rekreasiya turizmi potensialını üzə çıxarmaq üçün araşdırmalarımıza və dünya təcrübəmizə nəzər salsaq, aşağıdakı həll yollarını təklif edə bilərik:

- Möhkəm rəqabət mühitinin inkişafı;
- Turizm şirkətləri üzərində effektiv nəzarət sisteminin yaradılması;
- Qiymətə nəzarət sisteminin inkişafı;

- Turizm və ekoloji maarifləndirməni yaxşılaşdıran fəaliyyətlərin həyata keçirilməsi;
- Böyük təyyarə şirkətlərinin ölkəyə gəlməsi üçün zəmin hazırlamaq;
- Turizm şirkətlərinin həvəsləndirilməsi (Vergi obyektləri və digər mövzularda);
- İstirahət üçün infrastrukturun və üst quruluşun inkişafı;
- İxtisaslı kadr çatışmazlığını aradan qaldırmaq üçün yeni turizm məktəblərinin açılması;
- İstirahət və digər turizm sahələrində dünya təcrübəsindən fayda;
- Karyera imkanlarının inkişafı (Rehimov A., 2018).

# TAYM-MENECMENT (ZAMAN YÖNETİMİ)

**Günel KƏRİMLİ**[1]

Vaxtın səmərəli idarə edilməsinin böyük əhəmiyyəti var. Taym-menecment planlaşdırma prosesidir. Vaxtın səmərəli idarə edilməsi səmərəliliyin və məhsuldarlığım artırılmasına səbəb olur. Vaxtın idarə edilməsinin həyatda böyük uğurlar qazanılması və daha az stressə düşmə kimi üstünlükləri var. Görüləcək işlərin siyahısından ibarət tapşırıq cədvəlinin hazırlanması və bu siyahıda qeyd olunan tapşırıqlara əməl etmək insanlarda narahatlığı azaldır. Belə ki, işlər yerinə yetirildikcə cədvəldə qeydlər aparılır. Nəticədə nəzərəçarpacaq irəliləyişin görülməsi insanlarda narahatlığın azalmasına və beləliklə də stresdən uzaq olmağa səbəb olur. Taym-menecmentin əsas vəzifəsi işlərin zamanında müəyyən edilməsindən ibarətdir. Bu zaman vacib məsələlərin həlli ilə işə başlamaqla, digər işlərin ardıcıl şəkildə yerinə yetirilməsi tapşırıq cədvəlində qeyd olunan işlərin effektiv şəkildə idarə edilməsinə imkan verir. Bir iş yarımçıq qoyulduqda və ona təkrarən qayıtmaq effektivliyin azalmasına səbəb ola bilər. Vaxtın səmərəli idarə olunması insanlara onların öz hobbiləri və digər məşğuliyyətləri üçün zaman ayıra bilmələrinə daha çox vaxt verir. Vaxtın düzgün və səmərəli idarə edilməsi bacarığı işəgötürənlərin axtardığı əsas keyfiyyətlərdən hesab edilir. İşlərin planlaşdırılması hər bir təşkilatda arzuolunan bacarıq hesab olunur. Belə ki, vaxtın səmərəli idarə edilməsi əhəmiyyətsiz görülən işlərə sərf olunan vaxtın azalmasına və imkanların artmasına səbəb olur. Səmərəli vaxt idarəçiliyinə malik olan insanlar qısa müddət ərzində məqsəd və vəzifələrə daha yaxşı nail ola bilirlər. Vaxtı səmərəli idarə etməyin əsas yolları – hədəflərin düzgün qoyulması, tapşırıqların əhəmiyyəti və aktuallığına görə müəyyənləşdirilməsi, tapşırığın həlli üçün vaxt məhdudiyyətinin təyin edilməsi, tapşırıqlar arasında fasilələrin verilməsi və s. ibarətdir. Əldə edilə bilən və ölçülə bilən məqsədlərin qoyulması zamanı SMART metodundan istifadə etmək olar. SMART metodu – arzuolunan nəticənin müəyyənləşdirilməsinə kömək edən, məqsədlərin təşkili və ona nail olunmasına kömək edən hədəflərin qoyulmasına yanaşmadır. Bu yanaşma idarəetmə və layihənin idarə edilmsində məqsədlərin müəyyənləşdirilməsi və tapşırıqların təyin edilməsi üçün istifadə olunur. Gündəlik tapşırıqların vacibliyinə və aktuallığına görə müəyyənləşdirilməsi zamanı təyin etmək lazımdır ki, hansı tapşırıq təcilidir, və ya təcili deyil. Hansı tapşırıq vacibdir, lakin təcili deyil və s. Vacib məsələlər vaxtında yerinə yetirilməlidir, əks təqdirdə ciddi nəticələrə

[1] Mingəçevir Dövlət Universiteti, gunel.karimli@mdu.edu.az, ORCID: 0000-0001-5067-6904.

səbəb ola bilər. Tapşırıqlar arasında fasilələrin verilməsi diqqəti cəmləməyə kömək edir. Bunun üşün tapşırıqlar arasında qısa fasilələr etmək vacibdir. Uğurlu biznes-consultant Brayan Treysi özünün "O qurbağanı ye" kitabında gün ərzində edilməsi vacib olan və ən xoşagəlməz işi "qurbağanı yeməklə" müqayisə edir. Bu vacib, xoşagəlməz işi sonraya saxlamaq emosional gərginlik və istənimayən nəticələrə səbəb ola bilər. Vacib işin tərəddüd edilmədən və gecikmədən həll edilməsi isə gün ərzində gümrahlıq yaradacaq. Vaxtın idarə edilməsində faydalı qaydalardan biri də 80/20 qaydasıdır. İlk dəfə 1895-ci ildə italyan iqtisadçı Vilfredo Pareto tərəfindən tərtib edilmiş "Pareto qanunu" da adlanan 80/20 prinsipinə görə bir çox hallarda 20% səy göstərilməsi 80% nəticəyə gətirib çıxarır. Başqa sözlə desək, Pareto qanunu, hərəkətlərin 20%-nin nəticələrin 80%-ni təmin etməsi prinsipinə əsaslanır. Yəni səbəblərin kiçik bir faizi böyük xalis təsirlərə səbəb olur. 80/20 qaydası ən vacib tapşırıq və prioritetləri müəyyənləşdirməyə kömək etməklə, iş gününün daha da məhsuldar olmasına gətirib çıxarır. Əgər işin kiçik hissələr bölmək mümkünsə, Pareto qanunu müəyyən edir ki, hansı hissə son nəticəyə daha çox təsir edəcək. Qeyd etmək lazımdır ki, Pareto diaqramları keyfiyyətə nəzarət metodologiyası olan "Altı siqma"da tez-tez istifadə olunur. Belə ki, Pareto diaqramlarından istifadə məlumatları vizuallaşdırmaqla, hansı hərəkətə üstünlük verilməsini müəyyənləşdirməyə imkan verir. Vaxtın idarə edilməsi əslində həyatın idarə edilməsi ilə eynilik təşkil edir. Hadisələr ardıcıllığına nəzarət etməklə, bu işlər arasında ən vacib və əhəmiyyətsiz olanı seçmək bacarığı insanların həm həyatda, həm də işdəki uğurunu müəyyən etməyə imkan verir. Çünki effektiv və məhsuldar insanlar daim ən vacib işlərdən başlamaqla, özlərini "o qurbağanı yeməyə" məcbur edirlər. Nəticədə isə daha xoşbəxt və uğurlu bir insane çevrilirlər(Treysi,2022).

# TURİZMDƏ AVTOMOBİL NƏQLİYYATININ ROLU (TURİZMDE KARAYOLU ULAŞIMININ ROLÜ)

**Vüqar MUSTAFAYEV**[1]

Hər bir ölkənin iqtisadiyyatının maddi-texniki bazasının ən mühüm tərkib hissələrindən biri nəqliyyatdır. Nəqliyyat turizmin inkişafında aparıcı amildir. Sosial problemlərin həllində, əhalinin işgüzar, mədəni və turistik səfərlərinin təmin edilməsində, həm ölkə daxilində, həm də xaricdə mədəni mübadilənin inkişafında nəqliyyat xüsusi önəm daşıyır.

Turizmdə istifadə olunan avtomobil xidmətləri üç əsas sahəni əhatə edir:

avtobus səfərlərinin təşkili;

turistlərin şəxsi nəqliyyat vasitələri ilə səyahətinin təşkili;

avtomobil icarəsi.

Turistlərin Şəxsi Avtomobildən İstifadə Etməklə Səyahəti

Hamı tərəfindən qəbul edilən faktdır ki, hər kəs üçün öz avtomobili ilə səyahət etmək daha xoş və rahatdır. Avtomobil turizmi təxminən bir əsr öncə meydana çıxsa da, xeyli müddət sonra populyarlaşdı. Bu, onunla əlaqədardır ki, bir çox insanlar şəxsi avtomobillərinə sahib olmağa başladılar. Yolların keyfiyyətinin yaxşılaşması da bu məsələdə böyük rol oynamışdır. Müasir avtomobillər o qədər fərqlidir ki, alıcılıq qabiliyyəti olan hər kəs bazarda öz zövqünə uyğun avtomobili rahatlıqla əldə edə bilir. Bazar səyahət üçün müxtəlif variantlar – minik avtomobili, yüksək keçid qabiliyyətli avtomobil və ya "təkərlər üzərində ev" almaq üçün saysız-hesabsız təkliflər təqdim edir. Krossoverə bir ailə və ya dostlardan ibarət bir qrup asanlıqla yerləşə bilər.

- Hərəkət və marşrut azadlığı. Səyahət zamanı bəzən ətraf aləmin gözəlliyini seyr edib, həzz almaq üçün yolda dayanmaq və ya yanacaqdoldurma (elektromobillərdə enerji) məntəqəsində xoşətirli qəhvə alıb içmək istəyirsiniz belə fürsət mütləq yaranacaq!
- Bol təəssürat və daimi macəra hissi, xüsusilə, maraqlı yoldaşlarla səyahətə çıxmışsınızsa.

[1] Mingəçevir Dövlət Universiteti, vuqar.mustafayev@mdu.edu.az, ORCID: 0000-0002-0961-6712.

- Hər şey əlinizin altındadır. Yanaşı oturduğunuz, lakin yaxşı tanımadığınız bir qonşunu narahat etmədən baqajdan termosu və fincanı götürmək imkanı həmişə var.
- İstənilən baqajı – istədiyiniz yükü özünüzlə götürə bilərsiniz, çəki ilə bağlı heç bir məhdudiyyət qoyulmur.
- Sevimli ev heyvanınız həmişə sizinlədir. Dördayaqlı "dostunuz"u baqaj bölməsində və ya qəfəsdə saxlamaqla, ona işgəncə vermək məcburiyyətində qalmayacaqsınız.
- Yanacağa (enerjiyə) və ödənişli yollara xərclərin çəkilməsi. Təcrübə göstərir ki, bəzən şəxsi avtomobil ilə səyahət etmək təyyarə və ya qatar ilə səfər etməkdən daha baha başa gəlir;
- maşının yolda xarab olması, məsələn, təkərin deşilməsi. Bu cür xoşagəlməz hallarda problemi həll etmək üçün həm avtomobilin sahibi, həm də onunla birgə səyahət edənlər narahat olacaqlar.
- yol hərəkəti qaydalarının pozulmasına və ya sürət həddinin aşılmasına görə hər addımda gözlənilən cərimələr (və yol müfəttişi tərəfindən dayandırmalar);
- qəzalar. Bunlar, təəssüf ki, bəzən magistral yollarda belə ən gözlənilməz anda baş verir (heç bir sürücü bundan "sığortalanmayıb");
- yorğunluq. Hətta ən təcrübəli, ən məharətli sürücülər də bir neçə saat fasiləsiz avtomobil sürdükdən sonra istirahət etməlidirlər. Doğrudur, səyahət zamanı sürücü avtomobil idarəetmə hüququ və səriştəsi olan sərnişinlərdən biri ilə yerini dəyişə bilər (bu, ən məqsədəuyğun variantdır), ancaq bu həmişə mümkün olmur.
- sərhədin keçilməsi. Bəzən bu proses çox uzun çəkir və yorucu olur.

Bu gün Azərbaycan vətəndaşları ölkənin dilbər guşələrinə həm avtobuslarla, həm də şəxsi avtomobilləri ilə səyahətə çıxırlar. Qürurverici haldır ki, artıq ölkə əhalisi işğaldan azad olunmuş doğma torpaqlarımıza, Qarabağa da turist kimi səfər edə bilirlər. İndi vətəndaşlar üçün Şuşa şəhərinə və Suqovuşan qəsəbəsinə fərdi minik avtomobilləri ilə də səfər etmək imkanı yaradılmışdır. Azərbaycan vətəndaşları sərbəst şəkildə bir çox dünya ölkələrinə, o cümlədən qardaş Türkiyəyə avtoturist kimi (həm avtobus turları ilə, həm də şəxsi avtomobilləri ilə) səyahət edə bilirlər. Sonda öz şəxsi avtomobilləri ilə səyahət etməyə hazırlaşan insanların nəzərinə tövsiyə xarakterli bəzi məsələləri çatdırmağı məqsədəuyğun hesab edirik:

- səyahəti düzgün və tam planlaşdırmalı, marşrutu dəqiq müəyyən etmək (harada və hansı müddətə dayanılacaq, yanacaq (enerji) harada doldurulacaq, hansı oteldə qalınacaq və s.);

- səyahət etdiyi məkan və destinasiya haqqında mümkün olan məlumatları əldə etmək;
- yol-hərəkət qaydalarını və ilk yardım qaydalarını təkrarlamaq;
- səyahətə çıxmazdan öncə avtomobilinizi yoxlamaya – texnika baxışa aparmaq vacibdir. Unutmaq olmaz ki, avtomobil idarə etməkdə usta olan sürücü belə, avtomobildə hər şeyin necə qurulduğu və işlədiyi barədə çox şeyi bilməmiş ola bilər. Peşəkar mexaniklərə pul xərcləməkdə qənaət etməyin, qoy məhz onlar səyahətə çıxmazdan əvvəl avtomobilinizi yoxlasınlar və hər şeyin qaydasında olduğuna sizi əmin etsinlər;
- hər bir avtomobilçi xoşagəlməz vəziyyətə düşə bilər – biliklər, bacarıqlar, hətta zəngin təcrübə və ən etibarlı avtomobil qəzaya düşməməyə zəmanət verə bilməz!;
- hər zaman çətinliklərə hazır olmaq lazımdır. Hər bir avtomobildə fövqəladə hal üçün ilk tibbi yardım dəsti, ehtiyat təkər, qoşqu burazı və ya ipi, yanğınsöndürən, texniki mayelər, qəza ilə əlaqədar dayanma haqda xəbərdarlıq nişanı (xəbərdarlıq üçbucağı) olmalıdır.

# GƏNCLƏRİN ASUDƏ VAXTLARININ TƏŞKİLİNDƏ İSTİRAHƏT-SAĞLAMLIQ TEXNOLOGİYALARINDAN İSTİFADƏ (GENÇLERİN BOŞ ZAMANLARININ DÜZENLENMESİNDE REKREASYON-SAĞLIK TEKNOLOJİLERİNİN KULLANIMI)

**Leyla İSMAYILZADƏ**[1]

Bütün cəmiyyətlərdə gənclər xüsusi sosial-demoqrafik qrup sayılır. "Gənclər siyasəti haqqında" Qanuna görə, Azərbaycanda yaşı 14-dən 29-dək şəxslər gənc kimi rəsmiləşib (maddə 1, bənd 1.0.2). İkinci Qarabağ müharibəsifə Şanlı Zəfərin əldə edilməsində gənclər böyük pay sahibi oldular. Bu müharibə gənclərin nəyə qadir olduğunu bir daha nümayiş etdirdi. Bu gün gənc nəslin inkişafı və formalaşması prosesində sosial təsisatlar (məktəb, universitet, kütləvi informasiya vasitələri (KİV), sosial-mədəni sferanın qurumları) daha önəmli rol oynayır. Məhz asudə vaxt gənci şəxsiyyət kimi formalaşdıran, inkişaf etdirən mühüm vasitələrdən biridir. Gənclərin asudə vaxtı onların yüksək emosionallığı və fiziki hərəkətliliyi ilə, əhval-ruhiyyələrinin dinamik şəkildə kəskin dəyişmələri ilə, vizual və intellektual həssaslıqları ilə müşaiyət olunan hallar ilə səciyyələnir. Müasir dövrdə gənclərin zehni, fiziki, ictimai yükü günbəgün artmaqdadır. Sürətli həyat tempi insandan intensiv fəaliyyət göstərmək – sürətlə düşünmək və operativ qərar vermək bacarığı tələb edir. Buna görə də gənclərin asudə vaxtının təşkilində istirahət-sağlamlıq texnologiyaları xüsusi rol oynayır. Bu texnologiyalar gənclərin sağlam həyat tərzi keçirmələrinə, onların fiziki və mənəvi reabilitasiyasına xidmət edir, təşəbbüskarlığın, müstəqilliyin, sərbəstliyin inkişafına təkan verir, fərdin yaradıcı özünüifadəsi üçün əlverişli şərait yaradır. Gənclərin istirahətinin dolğun və səmərəli təşkili, sağlamlığının yaxşılaşdırılması problemi tibb, sosiologiya, psixologiya, hüquq, pedaqogika və s. kimi elmlərin öyrənmə predmetidir. "İstirahət" ("rekreasiya"), "istirahət-sağlamlıq fəaliyyəti" ilə əlaqədar müxtəlif səpkili çoxsaylı kitablar, elmi məqalələr dərc olunmuş, və müəlliflər tərəfindən bu anlayışa müxtəlif təriflər verilmişdir, bununla bağlı

[1] Azərbaycan, Mingəçevir Dövlət Universiteti, leyla.ismayilzada@mdu.edu.az, ORCID: 0000-0003-0629-070X

tədqiqatçıların yekdil fikri yoxdur. Zənnimizcə, "istirahət" ("rekreasiya") anlayışını "istirahət effekti təcrübəsi ilə müşayiət olunan bioloji, sosial və fiziki fəaliyyətin spesifik bir növü" kimi izah etmək daha dəqiq və dolğundur.

Ümumi halda istirahət-sağlamlıq texnologiyalarını iki qrupa bölmək olar:

- uzunmüddətli asudə vaxt proqramlarının yaradılmasına istiqamətlənmiş rekreasiya texnologiyaları – bunlar özündə insanların əyləncə, oyun, bədən tərbiyəsi, ayin və s. ehtiva edən müxtəlif asudə vaxt tədbirlərində ardıcıl iştirakını nəzərdə tutur.
- istirahət və əyləncənin təşkili texnologiyaları – bunlara xalq mədəniyyəti ənənələrindən istifadə edilməsi; əvvəlki xalq bayramlarının, adət-ənənələrinin, ayin və mərasimlərinin bərpası və yenilərinin yaradılması; müsabiqə, oyun, bədii-tamaşa xarakterli asudə vaxt tədbirlərinin təşkil edilməsi; fərdi, qrup şəklində, ailə turizmi aiddir.

Beləliklə, asudə vaxtın rekreasiya-sağlamlaşdırıcı növlərinə oyunları, ünsiyyəti, idmanı, turizmi, şouları, qrup və kütləvi şəkildə digər istirahət və əyləncə formalarını aid etmək olar. Gənc nəslin sağlam həyat tərzinə sövq edilməsi üçün ən əlverişli şərait sosial tərbiyə və sosial-mədəni sfera müəssisələrində yaradıla bilər. Belə müəssisələr geniş spektrli istirahət-sağlamlıq xidmətlərinə malikdir. Lakin təəssüflə qeyd etməliyik ki, bu gün sosial istirahət-sağlamlıq xidmətləri sferasının imkanları bəzən lazımınca qiymətləndirilmir. Buna görə də müasir sosial-mədəni şəraitdə gənclərin istirahət-sağlamlaşdırıcı kontekstdə asudə vaxtının düzgün təşkil edilməsi ictimai zərurət kimi gündəmdə durur. Cəmiyyət vətəndaşların asudə vaxtlarının səmərəli istifadəsində – ümumilikdə, bütün həyatın sosial-ekoloji inkişafında və mənəvi yenilənməsində maraqlıdır. Lakin bu, gənclərin istirahətinin və asudə vaxtlarının təşkili sahəsindəki bir çox məsələlər həll edilmədən mümkün deyil. Fikrimizcə, bununla bağlı sosial-iqtisadi xarakterli aşağıdakı məsələlər daha aktualdır:

- ölkənin bütün bölgələrində, şəhərlərdə, rayonlarda, xüsusilə də, kənd yerlərində gənclər üçün sosial-mədəni və idman obyektlərinin sayının artırılması;
- gənclərin istirahətinin təşkili ilə bağlı müasir tələbləri ödəyən müəssisələrin sayının artırılması;
- sözügedən müəssisələrin gənclərin cari tələbat səviyyəsinə cavab verən maddi-texniki təchizatının gücləndirilməsi;
- sosial və asudə vaxt müəssisələrinin fəaliyyətinin məzmununun gənc nəslin sosial-məişət gözləntilərinə daha da adekvat olması.

Son vaxtlar inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da gənclərin istirahət və sağlamlıq asudə vaxtının təşkili probleminə getdikcə daha çox diqqət göstərilir. Buna sosial-mədəni sferada çalışan insanların pedaqoji fəaliyyətinin xüsusi növü kimi də baxmaq olar. Bu fəaliyyətin spesifikliyi onun ikili təbiətə malik olmasında özünü büruzə verir. Belə ki, bir tərəfdən, istirahəti və əyləncəni

maraqlı təşkil etmək üçün auditoriyanın yüksək səviyyədə təşkil edilməsi tələb olunur. Bundan ötrü teatrlaşdırma üsullarından, oyunlardan, yarış və müsabiqələrdən, incəsənətin bütün növlərindən bacarıqla istifadə etməklə, xəyali dünya qurmaq olar. Digər tərəfdən isə, istirahət və əyləncəni təşkil edərkən real mənzərə yaradılmalıdır, çünki insanların bilavasitə hərəkətə cəlb edilməsi müxtəlif emosiyaların, mübahisələrin, fikir mübarizəsinin və hətta münaqişələrin yaranmasına səbəb ola bilər. Qeyd edək ki, bu məsələlərin həllində gənclərin özləri də əhəmiyyətli rol oynaya, real töhfələr verə bilərlər. Bu gün istirahət və sağlamlıq fəaliyyətlərinin təşkili insanlar üçün, o cümlədən gənclər üçün yaradıcılıq və fantaziya üçün sərhədsiz imkanlar açır. Beləliklə, istirahət və sağlamlıq fəaliyyəti hər kəsin öz yaş xüsusiyyətlərinə, maraqlarına, fiziki qabiliyyətlərinə uyğun fəallığını ifadə etməsi üçün geniş imkanlara malikdir. Bu fəaliyyət mədəniyyətin yüksəlməsinə və sağlam həyat tərzinin formalaşmasına xidmət edir.

# AZƏRBAYCANDA SAFARİ TURİZMİN TƏTBİQİ İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ (AZERBAYCAN'DA SAFARİ TURİZMİ FIRSATLARININ DEĞERLENDİRİLMESİ)

**Nərmin ƏLİYEVA**[1]

Ekoturizmin müasir dövrdə ən çox yayılan növlərindən biri də safari turizmidir. Qeyd olunan bu turizm növü özünün spesifik zəngin təbiəti ilə fəqrlənən Afrika materikində yaranıb. Sözün yaranma tarixi Afrika xalqlarından olan tanzaniyalılardan götürülmüş, hərfi mənası "yolçuluq", "gəzinti" və "səyahət etmək" deməkdir. Bu turizmin məqsədi insanlarda heyvan sevgisini aşılamaq, insanla heyvanın yaxından ünsiyyət qurmasına, vəhşi landşaft və fauna tərkibi ilə antropogen əlaqələrin genişləndirilməsi, həmçinin Afrikanın bir çox dövlətlərində Qərbi Avropa həmçinin Amerikadan gələn zəngin imkana malik olan turistlərin maraqlarını yerli vəhşi fauna nümunələri ilə cəlb etməkdən ötrü həyata keçirilir. Safari turizmi hazırda ovçuluq (ovetmə) və ya fotoovçuluq, balıq tutmaq, açıq məkanlarda təbii halda yaşayan heyvanları müşahidə etmək məqsədilə təşkil olunan turizm növü kimi seçilir (Soltanova H.B. və Hüseynova Ş.H,2007). Ənənəvi safarilərdən fərqli olaraq müasir dövrdə safari turizmi heyvanları nəsli kəsilməkdə təhlükəsi yaratdığı üçün bu turizmi təkil edənlərov məqsədi üçün turlardan imtina edib, yalnız fotosafarilərə yönəlmişlər və bu tərz yanaşma növü bədiidildə "sakit ov" adlandırılır. Azərbaycan Respublikası özünün coğrafi şəraiti, geoloji quruluşu, oroqrafik, zəngin fauna və flora ehtiyatlarına görə Qafqaz regionunda seçilir (Dərgahov V. və Səfərov R, 2013) Qeyd olunanları nəzərə alaraq ölkəmizin fərqli ərazilərində xüsusi mühafizə edilən təbiət əraziləri- qoruaqlar, milli parklar, yasaqlıqlar yaradılmışdır ki, xarici turistlərin buraya cəlb edilməsində vacib rol oynayır. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"dəki qanunauyğunluqları nəzərə alaraq vəhşi heyvanlar üçün 2017-ci ildə ekoloji qoruq olan Şamaxı rayonunun ərazisində yerləşən Pirqulu adlanan dağ-meşə sahəsində ərazisi 1200 hektar olan (830 hektar sahəsi beynəlxalq standartlara uyğun çəpərlənib), Qafqaz regionunda vahid və tək hesab olunan "Şamaxı Safari Parkı" yaradılmışdır. Bu zaman bəzi texniki səbəblərdən dolayı və "Covid-19" pandemiya şəraitinə görə park ərazisinə ziyarətçilər qəbul olunmayıb. Lakin halhazırda artıq turizmçilərlə media nümayəndələrinin ziyarəti üçün parka infoturlar təşkil olunur. Dağ-meşə landşaftının arealında yerləşdiyinə görə ərazidə mövsümi dəyişkən həmçinin nisbətən soyuq hava şəraiti müşahidə edilir. Parkın giriş ərazisi ilə ən hündür ekskursiya turu arasında amplituda fərqi (təxminən 10°C dərəcə) qeydə alınır. Qeyd lazımdır ki,

[1] Mingəçevir Dövlət Universiteti, narmin.aliyeva@mdu.edu.az, ORCID: 0009-0009-5429-9638.

bu park vəhşi dırnaqlılar və maral fermerlərinin Beynəlxalq Assosiasiyasına – “International Deer and wild Ungulate Breeders Association”a (IDUBA) üzv olubdur ki, bununla da assosiasiyanın Cənubi Qafqaz regionunda təmsilçilik hüquqununa malik olub. Hər il burada konfranslar keçirilir və bu çərçivədə yarışlar təşkil edilir. Hətta 2019-cu ildə parkın marallarından biri üçüncü yeri, 2020-ci ildə isə “Xan” adlı maral birinci yeri tutmuşdur. Parkın ərazisinə Qərbi Avropa ölkələrindən Latviya, Polşa, Çexiya, Slovakiya və Macarıstandan nəcib maral, xallı maral, Altay maralı, muflon, yəni dağ qoyunu, alpaka, lama zubrların genetik qiymətli fauna nümunələri kimi heyvanların buraya gətirilərək xüsusi qorunan əraziyə buraxılması təmin olunmuşdur. Qış, yaz, yay və keçid dövrlərində Şamaxı Safari Parkının bağlanma saatları, günün uzunluğuna, dəyişən hava şəraitinə və heyvanların təbii gündüz işığı davranışlarına əsasən nəzərə alınır və dəyişdirilir. Parka ərazisinə gələn kollektiv şəkildə, qrup şəklində gələn qonaqlar (məktəblilər, tələbələr, daxili və xarici qonaq qrupları üçün) mütləq şəkildə tur vaxtının əvvəlcədən qeydiyyatını nəzərə alaraq gəlməlidirlər. Buraya "Safari offroad car`s" individual tur, "Safari car-2per" (iki nəfərlik safari maşın), "Safari Bus" qrup turlar təşkil edilir.

# NARKOTİK VƏ ALKOQOLDAN İSTİFADƏNİN QARŞISININ ALINMASI VƏ İDMAN

# (UYUŞTURUCU VE ALKOL İSTİSMARININ ÖNLENMESİ VE EGZERSİZ)

**Gülnar NURİYEVA**[1]

Valideynlər çox vaxt övladlarını narkotik və alkoqoldan uzaq tutmaq üçün sahib olduqları gücə əhəmiyyət vermirlər. Əslində, valideyndən daha güclü bir profilaktika yoxdur. Oğlunuz və ya qızınızla açıq münasibət saxlamaq və onların özlərinə ciddi, potensial ölümcül zərər vurmamaq üçün bir neçə ipucu var:

- Açıq ünsiyyət xəttini saxlayın.
- Uşağınızla danışın və qulaq asın.
- Uşağınıza narkotik və alkoqoldan istifadəyə icazə verilmədiyini izah edin!
- Yeniyetmənizin harada olduğunu bilin.
- Həmişə yeniyetmənizin harada olduğunu və nə etdiyini bildiyinizə əmin olun.
- Məlumat könüllü deyilsə, SORUŞUN!

Yetkinlərin nəzarəti altında olmayan uşaqlar və yeniyetmələr narkotik, alkoqol və digər riskli davranışlara daha çox cəlb olunurlar. Yeniyetmənin dostlarını tanıyın və yeniyetmənizə dostları ağıllı şəkildə seçməyi öyrənməyə kömək edin. Demək olar ki, həmişə uşaqlar narkotik və spirt istifadəsi ilə dostları vasitəsilə tanış olurlar. Əgər yeniyetməlik dövründə aşağıdakı simptomlardan hər hansı birini görsəniz, söhbət etməyin vaxtıdır. Bu maddələr digər şərtlərin göstəricisi ola bilsə də, çox vaxt bunlar bir insanın narkotik və/və ya alkoqoldan sui-istifadə etdiyinə dair xəbərdarlıq əlamətləridir:

- Dostlarda dəyişiklik
- Daha çox/az yatmaq
- Hobbi və ya digər sevimli fəaliyyətlərə marağın olmaması
- Düşmənçilik və ya başqa cür mənfi münasibət, hətta zorakı davranış
- Qiymətlərin azalması

[1] Azərbaycan Milli Müdafiə Universiteti, gulnar_nuriyeva_84@mail.ru, ORCID: 0009-0005-0596-6888.

Narkomaniyanın qarşısının alınmasına nəzarət nədir? Narkotikdən sui-istifadənin qarşısının alınması kimi də tanınır, maddə istifadəsinin başlanmasının qarşısını almağa və ya psixoaktiv maddələrin istifadəsi ilə bağlı problemlərin inkişafını məhdudlaşdırmağa çalışan bir prosesdir. Qarşısının alınması səyləri fərdi və ya onun ətrafına yönəldilə bilər. Narkotik və alkoqolun qarşısının alınması üçün idmandan istifadə etməyi planlaşdırmadan əvvəl, idmanın əslində nə olduğunu başa düşmək vacibdir. İdman məşq etmək üçün əyləncəli və rəqabətli bir yol olmaq üçün hazırlanmışdır. Oyunçularınızdan onların kobud vuruşlarının, meydança qollarının və ya ev qaçışlarının narkotikdən necə təsirlənəcəyini təxmin etmələrini xahiş edərək, narkotiklərin oyuna ciddi təsirini bildirin. Sadə dillə desək, onlar baş verməyəcək. Elmi araşdırmalar narkotiklərin koordinasiya və qabiliyyətləri pozduğunu göstərir.

- Narkotikdən istifadə edən basketbolçunun oyunda qalib gələn sərbəst atışı qaçırma ehtimalı daha yüksəkdir.
- Marixuana istifadə edən futbol qəbuledicisinin müdafiəçini üstələmə ehtimalı azdır. Sürət, ağciyər tutumu, əzələ gücü və dözümlülük marixuana istifadəsi ilə düşə bilər.
- Narkotiklərdən istifadə edən xizəkçi də karyerasını bitirən zədə alma şansını kəskin şəkildə artırır.

Əgər bir oyunçunun performansı narkotik istifadəsi səbəbindən zəifdirsə, oyunçu komandanı, məşqçini və başqalarını məyus etdiyini bilə-bilə yaşamalı olacaq - hamısı bir neçə dəqiqəlik saxta yüksəklik üçün. Gəncin müstəqillik, məsuliyyət hissi və məqsədi narkotiklərin müdaxiləsi olmadan ən yaxşı şəkildə həyata keçirilir. Aşağıdakı inkişaf növləri gəncin narkotikdən azad olmasından asılıdır:

- Normal psixoloji inkişaf.
- Müvafiq əxlaqi və mənəvi inkişaf.
- Gündəlik problemləri həll etmək və stresin öhdəsindən gəlmək bacarığı.
- Başqaları ilə ünsiyyət qurmaq bacarığı.

Narkotiklər təkcə komandanın performansına deyil, həm də komanda ruhuna və birlik hissinə mənfi təsir göstərir. Xüsusilə, narkotik istifadəsi komandanın mənəviyyatına aşağıdakı təsirlərə səbəb ola bilər:

- Birliyin olmaması.
- Konsentrasiyanın olmaması.
- Öhdəliyin olmaması.
- Enerji çatışmazlığı.
- Etibarsızlıq.

İdmanın dəyərlərinin peşəkar idmanla necə dəyişdiyini bilmək vacibdir. Qazanmaq ən vacib məqsədə çevrilir. Bu qalibiyyətə güclü vurğu bir sıra çətinliklər yaradır – bunlardan biri də odur ki, komandalar və idman qurumları

qazanmağı təşviq etmək üçün mümkün olan hər şeyi edir, performansı artıran dərmanlardan istifadəyə qarşı hərəkət etməkdən çəkinə bilər. Bu vacibdir, çünki peşəkar idmançılar və onların dəyərləri bir çox gənclərə böyük təsir göstərir. İdmanda iştirak uşaqların və gənclərin sağlamlığında və inkişafında mühüm və müsbət rol oynaya bilər. Son zamanlar daha çox diqqət yetirilən sahələrdən biri idmanın gənclər arasında narkotik və alkoqol istifadəsinin qarşısının alınmasında oynaya biləcəyi roldur. Hazırki tədqiqat idmanla məşğul olmaq və yeniyetmələr arasında alkoqol və narkotik istifadəsi arasındakı əlaqəni araşdıran tədqiqatın sistematik icmalıdır. Bununla belə, idmanda iştirak, qeyri-qanuni narkotik istifadəsinin, xüsusən də sirrlə əlaqəli olmayan narkotiklərin istifadəsi ilə əlaqəli görünür. Araşdırmalar göstərdi ki, idmanla məşğul olmaq narkotikdən ümumi istifadə riskini azaldır, lakin xüsusilə orta məktəbdə bu, idman vasitəsilə narkotiklərin istifadəsini azaltmaq və ya qarşısını almaq üçün kritik bir dövr ola biləcəyini təklif edir. Gələcək tədqiqatlar alkoqol və/və ya narkotik vasitələrdən istifadənin qarşısının alınması baxımından faydalı nəticələr əldə etmək üçün idmanda iştirak üçün hansı şərtlərin zəruri olduğunu daha yaxşı başa düşməlidir.

# AZƏRBAYCAN MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİNİN NƏZDİNDƏ HUMANİTAR KOLLEC (AZERBAYCAN KÜLTÜR SANAT ÜNİVERSİTESİ İNSANİ YÜKSEKOKULU)

**Yasir HACIYEV**[1]

Azərbaycanda təbiətə əsaslanan müalicəvi turizmin tarixi xıı əsrdən başlanır. Artıq həmin dövrdə Naftalanın müalicəvi neftindən istifadə edilirdi. XIX əsrin ikinci yarısından isə mineral və termal su mənbələrinə də sağlamlıq məqsədilə müraciət olunurdu. Həmin illərdə  Gəncə yaxınılğında 20 nəfərlik naftalanla müalicə məntəqəsi, Şuşa, Lənkəran və Zaqatalada isə termal su ilə müalicə mərkəzləri fəaliyyət göstərirdi. İnsanların təbiətə əsaslanın müalicəsinin kompleks təşkili üçün 1922-ci ildə Azərbaycanda ilk sanatoriya-kurort müəssisəsi, 1926-cı ildə Naftalanda 340 yerlik müalicə sanatoriyası istifadəyə verilmişdir. XX əsrin 50-90-cı illərində sanatoriyaların sayı 26-a çatdırılmış, nömrə fondu isə 12500-ü ötmüşdü. Azərbaycan bu cür əlverişli müalicə imkanları və turizm ehtiyatları baxımından çox zəngin ölkədir. Böyük Qafqaz dağlarının ətəklərindən axan çaylar, çoxsaylı şəlalələr, şəffaf Göygöl, Maralgöl və Batabat kimi neçə-neçə su hövzələri, Qobustanın sərt, həm də baxımlı palçıq vulkanları, ölkə ərazisindəki Milli Park və qoruqalar, Abşeron və Nabranın müalicəvi əhəmiyyətli narın qumlu çimərlikləri, Qarabağın və Lənkəran zonalarının müsilsiz gözəlliyi olan təbiəti və müalicəvi bulaqları, ölkəmizin zəngin turizm potensialının əhəmiyyətli tərkib hissəsidir. Belə zənginliyinə görə bu məkan “mineral sular muzeyi” adlandırılır. Müalicəvi əhəmiyyətinə görə dünyada məşhur olan Karlovı-Varı sularından heç də geri qalmayan İstisu, Turşsu, Qalaaltı, Sirab, Vayxir suları, Naftalan nefti və Qobustan palçığı kimi təbiətə əsaslanan müalicə imkanları rekreasiya mənbəyi kimi çox xeyirlidir. Abşerondakı Suraxanı və Şıx, Şabranda artıq kurort-müalicə mərkəzi olan Qalaaltı və Qaşaltı mineral suları, Şuşadakı turşsu ilə yanaşı Laçındakı Qotursu, Culfada fəaliyyət göstərən təbii müalicıə mərkəzləri də xeyli vaxtdır ki, turistlərin müraciət etdiyi destinasiyalardandır. Lənkəran-Astara bölgəsində Masallı öz kurort təsərrüfatı ilə daha çox seçilir. Burada fəaliyyət göstərən İstisu sanatoriyası dəniz səviyyəsindən 1650 metr yüksəklikdə, Dəmbəlöv dağının yamacında, Viləş çayının sahilində yerləşir. Tərkibində hidrogen-sulfid, natrium-xlor, kalsium, maqnezium-hidrokorbanat və hər litrində 30 milliqram yod var. Mübaliğəsiz demək olar ki, dünyada qəbul olunan 8 qrup mineral suyun hamısına ölkəmizdə rast gəlir. Kimyəvi tərkibinə görə bu sular karbonlu,

[1] Turizm ixtisası Müəllim, hacıyevyasir@gmail.com, ORCID: 0009-0007-9751-2369.

Изилдөөлөр көрсөткөндөй, Instagram Бишкектеги кофеканаларын илгерилетүү үчүн эң эффективдүү платформа болуп чыкты, андан кийин TikTok жана Facebook турат. Андан тышкары, сурамжылоо социалдык медиада ийгиликтүү илгерилетүүнү камсыз кылууда ырааттуу брендингдин маанилүү ролун баса белгиледи. Бул түшүнүктөр социалдык тармактарда катышууну жакшыртууга жана кардарлар менен

эффективдүү байланышууга умтулган кофеканалардын ээлери үчүн баалуу колдонмо болуп берет.

Социалдык медиа менеджерлерине багытталган сурамжылоо Бишкектеги кофеканалардын социалдык медиада болушуна жана практикасына баа берген. Натыйжалар контенттин сапаты жана посттордун жыштыгы орточо деп кабыл алынганын көрсөттү, ал эми колдонуучулар менен өз ара аракеттенүү жана баарлашуу ар кандай пикирлерди жаратты. Ошого карабастан, сурамжылоо социалдык медианы илгерилетүүнүн кардарлардын баруусуна олуттуу таасирин көрсөтүп, бул чөйрөдө эффективдүү стратегияларды ишке ашыруунун маанилүүлүгүн баса белгиледи. Бул жыйынтыктар кофеканаларынын мазмундун сапатын, колдонуучулар менен болгон байланышын жана жарнамалык таасирин максималдуу жогорулатуу үчүн жалпы социалдык медиа стратегияларын жакшыртуу зарылдыгын баса белгилейт.

Негизги сөздөр: Кыргызстан, кофекана, социалдык медиа, PR каражаты.

# İSTIRAHƏT FƏALIYYƏTLƏRINDƏ TEXNOLOJI INKIŞAFLAR (REKREASYON FAALİYETLERİNDE TEKNOLOJİK GELİŞMELER)

**Doç. Dr. Emiliya HÜSEYNOVA**[1]

Dünya daim dəyişən və inkişaf edən texnologiyalar ilə inkişaf etməkdədir. Bu dəyişiklik təkcə iş dünyasında və ya təhsildə deyil, gündəlik həyatımızın ayrılmaz hissəsi olan istirahət və əyləncə sahələrində də özünü göstərir. Texnologiya ənənəvi əyləncə anlayışını kökündən dəyişdirdi və insanların boş vaxtlarından istifadəsinə yeni ölçülər gətirdi. Bu məqalədə istirahət və əyləncə sektorundakı texnoloji inkişaflar ətraflı şəkildə araşdırılacaqdır. Bu yeniliklərin virtual reallıqdan ağıllı ev əyləncə sistemlərinə interaktiv oyunlardan mobil tətbiqlərə qədər geniş mövzulara necə çevirdiyini və insanların gündəlik həyatına təsiri açıqlanmaqdadır. Təqdim edilən tədqiqat işinin əsas məqsədi texnologiyanın istirahət və əyləncə sektorlarında yaratdığı transformasiyanı hərtərəfli araşdırmaq və bu sahədəki yeniliklərin gündəlik həyatımıza təsirlərini dərindən təhlil etməkdir. Texnologiyanın əyləncə anlayışımızı necə dəyişdirdiyini anlamaq və yeni istirahət vərdişlərini formalaşdırmaq bu araşdırmanın mərkəzindədir. İstirahət fəaliyyətləri insanların asudə vaxtlarını əylənmək və dincəlməklə keçirmək imkanı verən müxtəlif fəaliyyətlərdir. Bu fəaliyyətlər fiziki, zehni, mədəni və ya sosial məmnuniyyəti təmin etmək məqsədi daşıyır və çox vaxt işdən və ya digər gündəlik vəzifələrdən istirahət etmək imkanı verir. İstirahət fəaliyyətinin əsas xüsusiyyəti onların əyləncəyə yönəldilməsidir. İnsanlar bu fəaliyyətlərdən həzz alır, streslərini azaldır və vaxtlarını xoş keçirirlər (İsmayılov, 2022). İstirahət tədbirləri iştirakçıların istəyi ilə həyata keçirilir. Heç kim üçün məcburi deyil, ona görə də şəxsi üstünlüklərə və maraqlara əsaslanır.

**Tablo 1.1.** İstirahət fəaliyyətləri

| Fəaliyyət | Faydası | Sahəsi |
|---|---|---|
| İdman | Fiziki sağlamlığı artırmaq, stressi azaltmaq | Fiziki sağlamlıq |
| İncəsənət | Yaradıcılığı inkşaf etdirmək, mədəni keyfiyyəti artırmaq | Mədəni təcrübə |
| Təbiət fəaliyyətləri | Təbiətin tədqiq edilməsi, stressi azaltmaq | Təbiət və ətraf |

[1] Azərbaycan Mingəçevir Dövlət Universiteti, emiliya-huseynova@mail.ru,0000-0002-9852-1650.

| | | |
|---|---|---|
| Oyunlar | Əyləncə, strateji tədqiq, sosial əlaqələr | Sosial |
| Səyahət | Yeni məkanların kəşfi, tədqiq və təcrübə | Səyahət |

İstirahət fəaliyyəti müxtəlif sahələrdə mövcuddur. Bura idman, incəsənət, təbiət fəaliyyətləri, oyunlar, səyahət və bir çox başqa seçimlər daxil ola bilər. Bir çox istirahət fəaliyyətləri fiziki sağlamlıq üçün faydalıdır. İdman etmək və ya təbiətdə gəzmək kimi fəaliyyətlər orqanizmin sağlamlığını dəstəkləyir. O, həm də psixoloji sağlamlıq üçün vacibdir, çünki stressi azalda və əhval-ruhiyyəni yaxşılaşdıra bilər. İstirahət fəaliyyətləri çox vaxt icma və ya qrup iştirakını təşviq edir (Orujalieva, 2021). Bu, insanlara sosial əlaqələr qurmağa və icma əlaqələrini gücləndirməyə kömək edə bilər. İstirahət fəaliyyətlərində texnoloji inkişaflar, turizm və rekreasiya sahəsində yeniliklər və daha dəqiqli və rahat istirahət imkanları yaratmaq üçün büyük bir rol oynayır. İstirahət fəaliyyətlərində texnoloji inkişafların nümunələri aşağıdaki kimidir (Rəsulov, 2021):

- Onlayn səyahət rezervasyonları: İnternet və mobil proqramlar turistlərə ucuz uçuşlar, otellər və xidmətlər daxil olan tətil paketləri axtarmağa və bron etməyə imkan verir. Bu, səyahətin planlaşdırılması və təşkilini daha asan və rahat edir.
- Virtual tur: Virtual turlar insanlara istədikləri yerləri ziyarət etmək imkanı verir. Virtual reallıq (VR) və genişlənmiş reallıq (AR) texnologiyaları ilə təchiz olunmuş turlar turistlərə məkanları virtual olaraq yaşamağa imkan verir.
- Öz-özünə istirahət: GPS və ağıllı telefonlar sayəsində açıq havada istirahət edənlər dağlarda, meşədə və su şəraitində asanlıqla hərəkət edə bilirlər. Məkan tapmaq və turlarla bağlı məlumat əldə etmək də asanlaşır.
- Elektron istirahət: Onlayn oyunlar və interaktiv sistemlər vasitəsilə insanlar rahatlıqla istirahət edə bilərlər. Xüsusilə pandemiya dövründə bu cür texnologiyalar çox populyarlaşdı.
- Qida və içki texnologiyaları: Yeni texnologiyalar restoran və kafe təcrübəsini dəyişir. İnteraktiv menyu sistemləri, ödənişlər üçün avtomatlaşdırılmış terminallar və ya yemək hazırlamaq texnologiyaları məkanlarda xidmətin daha sürətli və zövqlü çatdırılmasını təmin edir.
- Sosial media: İstirahət və səyahət zamanı çəkilən şəkillər və yazılar sosial media vasitəsilə paylaşılır. Bu, insanlara təcrübələrini digər insanlarla bölüşməyə və yerləri reklam etməyə kömək edir.

Turizm və rekreasiya sahəsində inkişaf edən və dəyişən fəaliyyət kimi texnologiyalar bu sahədə təcrübənin daha da artırılmasında və təkmilləşdirilməsində mühüm rol oynayır. Bu inkişaflar turistlərə daha rahat və əyləncəli istirahət təcrübəsi təqdim etmək üçün bir çox imkanlar yaradır. Virtual Reallıq (VR) və Artırılmış Reallıq (AR) texnologiyaları rekreasiya fəaliyyətlərində yeni dövrə başlayıb. Bu iki yenilik insanlara asudə vaxtlarını daha interaktiv və əyləncəli keçirməyə imkan verir. VR istifadəçiləri tamamilə fərqli bir dünyaya daşıya bilən immersiv təcrübə təqdim edir. Bu, xüsusilə əyləncə parklarında və muzeylərdə virtual reallıq turları şəklində özünü göstərir. İstifadəçilər real dünyanın hüdudlarından kənara çıxaraq tamamilə

fərqli bir təcrübə əldə edə bilərlər (Beydullayev,2023). AR real dünya və virtual məlumatları birləşdirərək təhsil və öyrənmə proseslərinə əyləncəli ölçü gətirir. Məsələn, AR dəstəkli kitablar və oyunlar uşaqlara əylənərkən öyrənməyə imkan verir: AR texnologiyası sosial media və mobil oyunlarda da istifadə olunur. Pokémon GO kimi AR-əsaslı oyunlar insanları fiziki olaraq çölə çıxmağa və qarşılıqlı əlaqə yaratmağa təşviq edir. Bundan əlavə, sosial media filtrləri və tətbiqləri istifadəçilərə gündəlik həyatda əyləncəli anlar yaratmağa imkan verir. AR həm də reklam və marketinqdə effektiv vasitəyə çevrilib. AR vasitəsilə məhsullarla tanış olmaq istehlakçılara alış-veriş zamanı daha məlumatlı qərarlar qəbul etməyə imkan verir.Nəticədə VR və AR texnologiyaları istirahət fəaliyyətini zənginləşdirən və əyləncənin yeni formalarını yaradan güclü alətlər kimi ortaya çıxdı. Bu texnologiyaların gələcəkdə daha da inkişaf edəcəyi və bizim istirahət və əyləncə anlayışımızı daha da irəli aparacağı gözlənilir. Turizm fəaliyyətlərində mobil proqramlar və sosial mediadan istifadə səyahət təcrübəsini əhəmiyyətli dərəcədə dəyişdirdi. Bu texnologiyalar səyahətin planlaşdırılmasından tutmuş destinasiyalardakı fəaliyyətlərin zənginləşdirilməsinə qədər bir çox sahələrdə effektivdir (Hüseynov, 2021). Səyahət planlaşdırma proqramları otel rezervasiyalarından tutmuş uçuş məlumatlarına, yerli nəqliyyat seçimlərindən tutmuş turistik yerləri kəşf etməyə kimi bir çox işlərdə kömək edir. Bu proqramlar istifadəçilərə vaxt və sərfəli səyahət planları qurmağa imkan verir. GPS və xəritəçəkmə proqramları turistlərə tanış olmayan yerlərdə yol tapmağa kömək edir. Bu proqramlar sayəsində turistlər asanlıqla yeni istiqamətlərə gedə və istədikləri yerləri asanlıqla tapa bilirlər.Yerli təcrübələri və hadisələri kəşf etməyə kömək edən proqramlar turistlərə həmin bölgənin mədəniyyətini və həyat tərzini daha yaxından tanımaq imkanı verir. Onlar restoran rezervasiyalarından tutmuş festival və konsert məlumatlarına qədər geniş çeşiddə məlumat təqdim edirlər.

Sosial media turizm məkanlarının təbliğində mühüm rol oynayır. İstifadəçilər səyahət təcrübələrini fotoşəkillər, videolar və hekayələrlə bölüşərək bu istiqamətlərin populyarlığının artmasına töhfə verirlər.Səyahət həvəskarları sosial mediada öz təcrübələrini paylaşaraq digər istifadəçiləri ruhlandırır və fikir mübadiləsi aparırlar. Bu yazılar digər istifadəçilər üçün dəyərli məlumat və real istifadəçi təcrübəsi təqdim edir (Fərid, İ., & Elnur,2023). Sosial media səyahət həvəskarlarının bir-biri ilə qarşılıqlı əlaqədə olması və təcrübələrini bölüşməsi üçün icmalar yaradır. Bu icmalar səyahətin planlaşdırılması və təyinat yerinin seçilməsi üçün mühüm mənbəyə çevrilirlər. Nəticədə, mobil tətbiqlər və sosial media turizm sənayesində əhəmiyyətli transformasiya yaratdı və səyahət təcrübəsini daha əlçatan, interaktiv və zəngin etdi. Səyahət həvəskarları üçün dəyərli resurslar olmaqla yanaşı, bu texnologiyalar turizm məkanlarının marketinqində və təbliğində də effektiv rol oynayır. Yuxarıda qeyd edilənlərdən göründüyü kimi texnolojinin istirahət və əyləncə sektorlarındakı dönüşümünə geniş bir baxış atdıq. Aparılan araşdırmalar bir daha sübut etdi ki, Virtual Reallıq (VR) ve Artırılmış Reallıq (AR) kimi yenilikçi texnologiyalar istirahət fəaliyyətlərinə tamamilə yeni bir özəllik gətirib. Bu texnologiyalar əyləncə parklarından muzeylərə qədər bir çox fərqli sahədə istifadəçilərə immersiv və interaktiv təcrübələr təqdim edir. Bu təcrübələr gerçək dünyanın hüdudlarından çıxaraq, insanların yeni və əsrarəngiz dünyaları kəşf etmələrinə imkan verir.

Mobil tətbiqlər və sosial media isə turizm və istirahət fəaliyyətlərini daha əlçatan və interaktiv hala gətirib. Bu platformalar səyahət planlaşdırılmasından sosial qarşılıqlı əlaqə, yerli təcrübələrin kəşfindən məzmun paylaşımına qədər geniş bir spektrdə faydalar təklif edir. Səyahət həvəskarlarına yol göstərən bu texnologiyalar, həmçinin turistik məkanların marketinqi və tanıdılmasında da mühüm rol oynamaqdadır. Nəticə etibarilə, texnoloji inkişaflar istirahət və əyləncə sektorlarında dərin izlər buraxmış və bu sahələrdəki təcrübələri köklü şəkildə dəyişdirmişdir. Bu yeniliklər insanların boş vaxtlarını daha maraqlı, interaktiv və zəngin bir şəkildə keçirmələrinə imkan yaradıb. Gələcəkdə bu texnologiyaların daha da inkişaf edərək, istirahət və əyləncənin yeni formalarını ortaya çıxaracağı və bizim günlük həyatımızı daha da zənginləşdirəcəyi gözlənilir. Bu inkişaflar həm bizim şəxsi həyatımızda, həm də sosial və mədəni cəhətdən geniş təsirlərə malik olacaq, bu sahələrdə yenilikçi yanaşmaların və seçimlərin davamlı olaraq ortaya çıxmasını təmin edəcəkdir.

# AZƏRBAYCANIN LƏNKƏRAN -ASTARA BÖLGƏSİNDƏ YETİŞƏN ÇAY PLANTASİYALARINDA MÜXTƏLİF YIĞIM ÜSULLARININ MƏHSULDARLIĞA TƏSİRİ (AZERBAYCAN'IN LANKARAN-ASTARA BÖLGESİNDE YETİŞEN ÇAY PLANLANMALARINDA FARKLI HASAT YÖNTEMLERİNİN VERİMLİLİĞE ETKİSİ)

**Əfsanə ABDULLAYEVA**[1]

Çay ( *Camellia sinensis)* Yer kürəsində sudan sonra ən geniş yayılan içkidir. Onun qara, yaşıl, ağ və qırmızı (oolong) növləri vardır (Məmmədova, 2022).
Çay yarpağının keyfiyyəti bir sira xüsusiyyətlərdən asılıdır ki, olanlarından biri də yığım qaydasıdır. Vegetasiya müddəti ərzində zoğların yığıma yetişməsi çay bitkisinin bioloji xüsusiyyətlərindən, aqrotexniki tədbirlərdən və təbii şəraitdən asılıdır (Quliyev və b.,2012). Çay plantasiyalardan yığılan zaman zədələndikdə lif verməyən zoğun yuxarı, üç yarpaqlı hissəsi, təzə və zərif tək və ya cüt yarpaqlı kar zoğlar məhsul olaraq yığılır. İki yarpaqlı bir tumurcuqda kofein və polifenol maddələri yüksəkdir ki, bu maddələr çayın keyfiyyətinə müsbət təsir göstərir ( Qurbanov və b. 2017). Aşağıdakı cədvəldə yığım üsullarının çay bitkisinin mexaniki tərkibinə təsiri göstərilmişdir.

Cədvəl1.1 Müxtəlif yığım üsullarının çay məhsulunun mexaniki tərkibinə təsiri

| Yığım variantları | Məhsul yığımı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | I yığım | | II yığım | | III yığım | | IV yığım | |
| | Zə-rif zoğ | Ko-bud zoğ | Zə-rif zoğ | Ko-bud zoğ | Zə-rif zoğ | Ko-bud zoğ | Zə-rif zoğ | Ko-bud zoğ |
| Aqronomiya qaydasıilə yığım | 62 | 38 | 58 | 42 | 66 | 34 | 60 | 40 |
| Sərt yığım | 74 | 26 | 80 | 20 | 70 | 80 | 66.5 | 33.5 |

[1] Abdullayeva Xəzər Universiteti, afsana.abdullayeva@khazar.org, ORCİD: 0009-0004-0412-6003.

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Qayçı (sekator) ilə yığım | 93 | 7 | 90 | 10 | 88 | 12 | 80 | 20 |

Yaşıl çay yarpaqlarını bitkidə kolun təzə yetişmiş zoğlarından dərirlər. Cavan plantasiyaların məhsul yığımının başlanğıcı 4-cü il, əsas məhsul yığımı 5-ci il, məhsuldarlığın maksimum səviyyəsi isə səkkizinci-doqquzuncu illərdir. Tumurcuq və birinci iki yarpaq fleşin ən dəyərli hissəsidir. Təzələri əmələ gəldikcə fleşlər yığılmalıdır (7-10 gündə bir) ki, onlar kobudlaşmasın və çayın keyfiyyəti aşağı düşməsin (Əhmədov , 2010). Aqronomiya prinsiplərinə əsaslanan çay yarpağı yığımında may ayında 4-5 yarpaqlı zoğdan 2-3 yarpaqlı fleş yığılır. Sərt yığımda may ayında çay kolu üstündə olan bütün biokütlə qoparılaraq məhsul yığılır və biokütlənin tamamı əldə edilir. Qayçı ilə yığımda isə çay məhsulu kolun üst hissəsini heçbir zədə olmadan yığmaq imkanı yaradır və növbəti yığım üçün normal şərait yaradır (Ramazanov, 2004). Zərif zoğların sayı qayçı ilə yığımda sərt yığıma nisbətən 20-30% çox olduğu müşahidə edilir (cədvəl 1.1.). Bu da məhsulun yüksək keyfiyyətli olmasına şərait yaradır.

Cədvəl1.2 Müxtəlif yığım üsullarının çay bitkisinin məhsuldarlığına təsiri

| **Variantlar** | Məhsul yığımı | | | | Cəm yığım | Nəzarətə nisbətən |
|---|---|---|---|---|---|---|
| | I yığım | II yığım | III yığım | IV yığım | | |
| | kq/a | kq/ha | kq/ha | kq/ha | kq/ha | %-lə |
| **Aqronomiya qaydasıilə yığım** | 970 | 788 | 630 | 312 | 2700 | 100.00 |
| **Sərt yığım** | 1300 | 210 | 750 | 330 | 2590 | 95.9 |
| **Qayçı (sekator) ilə yığım** | 1224 | 1022 | 870 | 704 | 3820 | 141.5 |

Cədvəldən 1.2-də aydın görünür ki, sərt yığıma nisbətən qayçı ilə yığımda məhsuldarlıq daha yüksək olmuşdur. Mütərəqqi aqrotexniki becərmə tədbirlə sistemində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də məhz yaşıl çay yarpağı yığımı qaydalarının çay məhsuluna kəmiyyət və keyfiyyətin təsirini öyrənməkdir (Ramazanov, 2004). Sərt yığım üsulu, yəni kolun üstündə mövcud zoğların tam qoparılaraq yığılmasıdır ki, bu məhsul kütləsinin artırılmasına şərait yaradır, lakin bitkinin sonrakı inkişafınıləngidərək gələcək məhsul yığımına mənfi təsir göstərir. Qayçı ilə yığım isə kola ziyan dəymədən kolun üst

səthinin düzgün kəsilməsini təmin edir və məhsulun keyfiyyətinə də müsbət təsir göstərir, sonrakı yığımların eyni vaxtda aparılmasına zəmin yaradır.

# GELENEKSEL GASTRONOMİ RİTÜELLERİNİN REKREATİF AMAÇLI DEĞERLENDİRİLMESİ: DİŞ HEDİĞİ ÖRNEĞİ

**Mehtap CELEP**[1]
**Prof. Dr. Bilgehan GÜLCAN**[2]

Bireylerin veya toplumsal grupların boş zamanlarında gönüllü olarak gerçekleştirdikleri eğlendirici ve dinlendirici aktiviteler rekreasyonun anlamını ifade etmektedir (Karaküçük, 2014). Genel bir görüş olarak gastronomi ise; kültür ve yemek arasındaki ilişkileri ele alan, bir yemek yeme sanatı olarak ifade edilmektedir (Cohen ve Avieli, 2004). Gastronomi ile rekreasyon kavramları ise, geleneksel ritüeller kapsamında kesişmektedir. Türk mutfağı özellikle geleneksel gastronomiye bağlı ritüeller bakımından zengin bir görünüm sunmaktadır. Her toplumun farklı yaşam tarzları ve kendi kültürleri etrafında şekillenen beslenme alışkanlıkları bulunmaktadır. Türk mutfağı; zengin yemek çeşitleri ve kendine özgü hazırlama yöntemleri ile ritüelleri ile geçmişten günümüze kadar süregelen önemli bir somut olmayan kültürel mirası temsil etmektedir. Diğer bir taraftan gastronomiye bağlı ritüeller, tüketiciler ve turistler nazarında ilgi çekici olmaktadır ve söz konusu ritüeller bir rekreatif uygulama olarak kimi zaman ilgili gastronomi ürününün önünü geçmektedir. Türk Dil Kurumu ritüel kavramını *"adet haline gelmiş"* olarak tanımlamaktadır (TDK, 2024). Nişanyan Sözlüğe (2024) göre ise, *" Asırlar boyunca süregelen geleneklerin tören ve merasimler bütünü haline gelmiş tezahürüdür"* biçiminde ele alınmaktadır. Ritüeller aracılığıyla, geçmişi günümüz ile günümüzü de gelecekle bağlayarak anlam kazandırılabilmektedir. Bu yönüyle ritüel insanlar arasında sağlam bir bağ kurulmasına yardımcı olmaktadır ve kişileri belirli amaçlar etrafında bir araya getirmektedir. Ritüeller duyguları yönlendirmeye, grup oluşumlarını teşvik etmeye ve yeni deneyimlere rehberlik edilmesine yardımcı olmaktadır (Kertzer, 1988). Ayrıca grup dayanışması duygusunun güçlendirilmesini sağlamaktadır. Ritüeldeki eylemler toplum içerisinde yaratılmaktadır ve insanları bir araya getirmektedir (Alver, 2010). Bu açıdan bakıldığında ritüel kavramı, kişiler arası bağları güçlendiren bir eylemler bütünü olarak değerlendirilmektedir. Rekreasyon etkinleri içerisinde ise, ana kaynağını somut olmayan kültürel mirastan (SOKÜM) alan çeşitli gastronomik etkinlikler geniş bir ilgi konusu olmaktadır ve insanların ilgisini çeken bir etkinlik haline gelmektedir. Bu çalışma ise, ağırlıklı olarak rekreasyon cephesinden yaklaşılmıştır ve somut olmayan kültürel miras içinde geleneksel gastronomi

[1] Ankara Hacı Bayram Veli Üniversitesi, mehtap.celep@hbv.edu.tr,Orcid: 0000-0001-6633-8977.
[2] Ankara Hacı Bayram Veli Üniversitesi, bilgehan.gulcan@hbv.edu.tr, Orcid: 0000-0002-9884-4695

öğeleri ile bütünleşmiş zengin bir ritüele sahip olan Diş Hediği geleneği ele alınmaktadır. UNESCO'nun 2003 yılında düzenlenen 32.Genel Konferansı'nda somut olmayan kültürel mirasın tanımı ''*toplumların, grupların ve kimi durumlarda bireylerin kültürel miraslarının bir parçası olarak benimsedikleri uygulamalar, temsiller, ifadeler, bilgiler, beceriler ve bunlara ilişkili araçlar, nesneler, eserler ve kültürel alanlar* '' şeklinde yapılmıştır (UNESCO, 2003). Somut Olmayan Kültürel Mirasın Korunması Sözleşmesi'ne (2003) göre, kültürel mirasın boyutları sıra ile: ''Somut olmayan kültürel mirasın aktarılmasında taşıyıcı işlevi gören dille birlikte sözlü gelenekler ve anlatımlar; Gösteri sanatları, Toplumsal uygulamalar, ritüeller ve şölenler; Doğa ve evrenle ilgili bilgi ve uygulamalar ve El sanatları geleneği şeklinde ele alınmaktadır. Diş hediği ise Ulusal SOKÜM Envanterinde Doğum Öncesi/ Sonrası ve Çocukluk Çağı Gelenekleri kategorisinde yer alarak; Isparta, Kahramanmaraş, Bitlis, Elâzığ, Erzincan, Muş, Mardin, Kırıkkale, Sivas, Amasya, Gümüşhane, Tokat, Gaziantep, Tekirdağ, Uşak, Konya, Diyarbakır, Eskişehir ve Zonguldak illerinde kayıtlı durumunda olduğu görülmektedir. Ulusal envanterde yer alan illerde sağlıklı bir biçimde dünyaya gelen çocuğu bekleyen süreçlerden bir tanesi de çocuğun dişlerinin çıkmaya başlamasıdır. Diş hediği veya diş buğdayı, bebeklerin sağlıklı bir şekilde gelişmeleri için önemsenen bir gelenek olduğu görülmektedir. İlgili alanda yapılan çalışmalar incelendiğinde diş hediğinin; *buğday dirlimesi* (Denizli/Acıpayam), *dirgit dökme* (Isparta), *diş aşı* (Burdur/Tefenni), *diş dilgiti* (Antalya/Serik), *diş dirgiti* (Antalya/Serik) *diş tohumu* (Çanakkale), *duzlama* (Afyon), *diş göllesi* (Ankara, Afyon, Isparta), *hedik dişi* (Van/Gürpınar), *dişemiş* (Konya/Karaman), *diş edi* (Ankara), *diş günü* (Tekirdağ/Sandıklı) gibi isimler de anılmaktadır (Örnek, 1979). Diş hediği, birçok kültürde var olan bir geçiş uygulamasıdır (Alsaç, 2010). Çocuğun gelişimi açısından, diş çıkarma hem yeni bir aşama hem de çocuğun sağlıklı bir şekilde büyümeye devam ettiğinin bir göstergesi olarak kabul edilmektedir (Altaş, 2018). Çocuğun ilk diş çıkarmasıyla birlikte yapılan ritüele hedik dökme töreni denilmektedir. Bu ritüelin yapılmaması durumunda çocuğun diş çıkarmasının gecikeceğine ve zor günler geçireceğine inanılmaktadır. Diş hediği yapılırken, buğday haşlanarak üzerine çeşitli baharatlar eklenmektedir (Gazelci, 2021). Hedik ismi verilen buğday haşlaması üzerine ceviz, tuz veya şeker dövülerek serpilebilmektedir (Çetinkaya ve Karataş, 2021). Yapılan eğlenceye çocuğun akrabaları ve komşu kadınlar da katılmaktadır. Pişirilen hedik gelen misafirlere ve komşulara dağıtılmaktadır. Daha sonra bir tepsi içerisine kalem, makas, ayna, tarak, kitap gibi nesneler konulmaktadır. Çocuk tepsinin ortasına oturtulmaktadır ve hangisine uzanırsa ileride çocuğun o mesleği seçeceğine inanılmaktadır. Örneğin; kalem alırsa memur, makas alırsa terzi, tarak veya ayna alırsa berber olacağına inanılmaktadır. Ancak günümüzde bu ritüelin unutulmaya başladığı görülmektedir. Bu araştırmanın amacına bağlı olarak; Ulusal Soküm Envanterinde yer alan Diş Hediği geleneğinin temel kökenine vurgu yaparak, rekreatif bir ürün şeklinde sunulmasını destekleyecek hususları ele almaktır. Ayrıca geleneksel gastronomi ile bütünleşmiş rekreasyon etkinliklerinin turizm amaçlı sunumunun cazip bir rekreasyon ürünü olabileceğine ilişkin bir fikir vermektedir. Etnoğrafik bir yöntemle ele alınmış olan konu kapsamında Ulusal Soküm Envanteri üzerinde bir tarama yapılmıştır ve tarama sonucunda etkili bir rekreatif ürün olabilecek diş hediği geleneği ör-

neği üzerinden çıkarımlar yapılmıştır. Elde edilen sonuca göre, diş hediği geleneğinin özellikle otel animasyonları hem de ziyaretçiler için cazip bir rekreasyon ürününe dönüştürebileceği anlaşılmıştır.

**Anahtar Kelimeler:** Rekreasyon, Gastronomi, Ritüel, SOKÜM, Diş Hediği

# REGİONLARDA EKOTURİZM SEKTORUNUN INKIŞAFI VƏ MƏHDUDIYYƏTLƏRIN ARADAN QAIDIRIMASI (EKOTURİZM SEKTÖRÜNÜN BÖLGELERDE GELİŞTİRİLMESİ VE SINIRLAMALARIN KALDIRILMASI)

**Taleh HÜSEYNOV**[1]

Ekoloji turizm - son dövrlərdə dünya turizm sənayesinin ən yüksək sürətlə inkişaf edən sahələrindəndir. Ekoloji turizm, istirahət və təbiətdən zövq almaq məqsədi ilə istifadənin yeni şəkli olmaqla yanaşı, yəni bioloji müxtəlifliyin qorunmasını təbliğ etməklə yanaşı rekreasiya ehtiyatlarından düşünülmüş üsulda istifadə etməyi, həmçinin turizm fəaliyyətinin dayanıqlılığını təmin etməyə görə "qeyri-aşındırıcı" təbiətdən istifadə edilməsi rejiminin işlənib hazırlanmasını tələb edir. Ekoloji turizm dedikdə isə ilk başa düşülən təbiət turizminin bir forması olaraq ətraf mühitə qayğı ilə əlaqəli turizm növü anlaşılır.[3] Ekoturizmin bir neçə qaydası vardır. Ekoturizm o deməkdir ki, - məqsədyönlü formada təbii ərazilərə ətraf mühitin, yerli təbiət ilə lap da dərindən maraqlanmaq və bütün bunların lap da dərindən öyrənilməyi, başa düşülməsi üçün edilən səyahətdir. Yəni bu cür səfərlər zamanı ekosistemin bütövlüyü qorunması şərtdir. Bununla yanaşı həmçinin ekosistemin mühafizə yerli əhaliyə sərf edəcək formada həyata keçirilməsi vacibdir. Azərbaycanda da bu turizm növünün çox böyük potensialı mövcuddur. Əsrarəngiz təbiətə, zəngin tarixi abidələrə, adət-ənənələrə, mədəniyyətə və mətbəxə malik kəndlərimiz var. Hacıkənd və Lahıc qəsəbələri, Kiş, İlisu, Xınalıq ölkəmizdə kənd yaşıl turizminin daha da inkişaf etdirilməsi üçün böyük imkanlara malik yaşayış məntəqələridir. Demək olar ki, ölkəmizin bütün kəndlərində bu turizm növünü inkişaf etdirmək olar. Hazırda Quba, Qusar, Şəki, Qax, Zaqatala, Xaçmaz, Lənkəran, Astara, Masallı, Lerik, Göygöl və digər rayonlarımızın kəndlərində kənd yaşıl turizmi müəyyən dərəcədə fəaliyyət göstərir.

Lakin, ekoturizm sahəsində inkşaf hər zaman mümkün çətinliklərlə birlikdə gəlir. Belə ki ekoturiz sahəsinin inkişafını məhdudlaşdıran bir sıra problem var. Bunlar arasında əsasən infrastruktur imkanlarının zəyif olması, Ekoturizm məntəqələrinin ərazilərdə yaşayan yerli əhali ilə turizm fəaliyyətləri arasında uyğunsuzluq vəziyyəti , Ekoturizmin inkişafında, təşviqatçılar, yerli icma və digər tərəfdaşlar arasında əməkdaşlığın zəyif olması və.s kimi problemlərin olması bu sahənin inkşafınını ləngidir. Buna görə də ekoturizm sahəsinin daha da səmərəli inkişaf üçün tədbirlər görmək lazımdır. Ekoturizm sahəsinin inkişafı üçün aşağıdakı tədbirlər görülə bilər İnfrastrukturun təkmilləşdirilməsi:

[1] Azərbaycan Texnologiya Universiteti, huseynvtaleh@gmail.com, ORCID № 00090004-2783-3069

Ekoturizm məkanlarına gediş yolunun asanlaşdırılması, kommunikasiya şəbəkələrinin inkişaf etdirilməsi və mövcud olanları yeniləmək . Bu, turistlərin daha rahat və sürətli şəkildə məkanlara gəlməsinə imkan verəcək və turizmə marağın artmasına səbəb olacaq.Yerli əhalinin mədəni təcrübəsinin artırılması: Turizm sektorunda təhsil və mədəni təcrübə proqramları təşkil edərək, yerli əhalidə turistlərə xidmət etmə və turizmə dəstək vermək istəyi yaratmaq. Bu, turizm fəaliyyətlərinin inkişafına və təbii məkanların qorunmasına kömək edəcək. Təşviqat və tanıtım fəaliyyətləri: Ekoturizm məkanlarının tanıdılması və reklamın həyata keçirilməsi turistlərin bu məkanlara maraq göstərməsinə və onları ziyarət etməsinə səbəb olacaq. Monitorinq və qiymətləndirmə: Ekoturizm məkanlarının və təbiət sahələrinin davamlı monitorinqi və qiymətləndirilməsi, onların sürətli şəkildə dəyişən eko-sosial mühitini nəzərdən keçirilməsi problemlərin və təhlükələrin qarşısının alınmasına kömək edəcək. Bu addımların həyata keçirilməsi, Azərbaycan regionlarında ekoturizmin mövcud problemlərinin aradan qaldırılmasına və sektorun daha inkişaf etməsinə kömək edəcəkdir. Bu addımlar öz növbəsində təbiətin qorunması və yerli iqtisadiyyatın inkişafı üçün müsbət nəticələr əldə ediləcək.

# ASUDƏ VAXT, İSTİRAHƏT VƏ KARYERA (BOŞ ZAMAN, REKREASYON VE KARİYER)

**Zaur RƏSULOV**[1]

Müasir dünya bizdən çox şey tələb edir: məhsuldar olmaq, nəticələr əldə etmək və daim inkişaf etmək. Bununla belə, uğura aparan karyera yolunda asudə vaxt, istirahət və iş arasında düzgün nisbətin saxlanılmasının vacibliyini unudur, karyerada uğurun açarı ola biləcəyini yaddan çıxardırıq. Biz bu nisbəti qoruduqda daha güclü ola və böyük zirvələrə çata bilərik. Belə ki, özümüzə istirahət və dincəlmək üçün vaxt ayırdığımız zaman enerjili oluruq, qüvvələrimizi bərpa edirik və gələcək məqsədlər üçün ilhamlanırıq. İstənilən HR meneceri təsdiq edər ki, istirahətin keyfiyyəti və kəmiyyəti işçilərin səmərəliliyinə birbaşa təsir edir. Kadrların monitorinqi sistemi göstərir ki, daim iş vaxtından artıq işləyən, tez-tez ofisdə gecikən və həftə sonları tapşırıqları yerinə yetirən işçilərin həddindən artıq yüklənməsi qaçılmazdır. Həddindən artıq işləmək faktiki olaraq məhsuldarlığı azaldır, daha tez-tez səhvlər etməyə səbəb olur və optimal olmayan seçimlərə, strategiyalara gətirib çıxarır. İnsan resursları məhduddur və bərpaya ehtiyacı var. İşlə dolu beynin sadəcə gücü yoxdur, ona görə də ona istirahət verilməlidir. İşdən və fəaliyyətdən uzaq asudə vaxt bizə istirahət etməyə, anın həzzini çıxartmağa və özümüzə qulluq etməyə imkan verir. İstirahət fiziki və emosional harmoniyanı bərpa etməyə kömək edir, bu da öz növbəsində məhsuldarlığı artırır. İstirahət zamanı beyin daha aktiv işləməyə başlayır, yaradıcı ideyalar, yeni düşüncələrlə dolmağa başlayır. Yazıçı ən yaxşı kitabını, şair ən yaxşı misrasını yazır, maliyyəçi hesabat formalarını daha tez və asan hazırlayır, müəllim tədrisi daha həvəslə və motivasiya ilə həyata keçirir və s. Bir sözlə, düşünməyin necə asanlaşdığını, kreativliyin işə düşdüyünü və ən əsası işin keyfiyyətinin yaxşılaşdığını dərhal müşahidə etmək mümkündür. Biz istirahətə işimizi dayandırdığımız və özümüzə fasiləyə icazə verdiyimiz vaxt kimi baxırıq. Buna görə də işimizi yarımçıq qoymaq istəmədiyimiz üçün tez-tez istirahət etmirik. Eyni zamanda, biz nədənsə yerimizdə sayır və irəli getmirik, baxmayaraq ki, səmərəli iş sayəsində artıq daha yüksək vəzifələrdə ola bilərdik. Çünki daimi işləmək təkcə bədənə fiziki cəhətdən deyil, həm də zehni qabiliyyətlərimizə təsir edir. Beləliklə, gündə iyirmi dörd saat işləyən adam çətin ki, daha həvəsli və yeni fikirlərlə fəvvarə vurmuş olsun. Bəs asudə vaxtı necə səmərəli keçirmək, necə istirahət etmək və enerji ilə dolu yeni nailiyyətlərə hazır qayıtmaq üçün bu resursdan necə ağıllı şəkildə istifadə etmək olar?

[1] Mingəçevir Dövlət Universiteti, Azərbaycan, zaur.rasulov@mdu.edu.az, ORCID No 0000-0003-0186-9819

Fiziki sağlamlığı yaxşılaşdırmaq. Gündəlik işlərin təlaşında çox vaxt bədənin fiziki sağlamlığı, tərbiyəsi unudulur. Bədənin bizə özünü xatırlatmasını gözləməməliyik. Asudə vaxt fiziki sağlamlığa diqqət yetirmək üçün əla fürsətdir: pəhriz saxlamaq, kifayət qədər yuxu almaq, uzun müddət təxirə salınmış həkim yoxlanışından keçmək, gimnastika ilə məşğul olmaq və s.

Stresi aradan qaldırılmaq. Gərginlik yaradan yorğunluq yığıldıqca artıq davranışlar da əsəbi və onlara cavab vermək üçün tənzimləyə biləcəyimiz bədən siqnalları getdikcə daha zəif olur. Davamlı düşüncə proseslərindən kənarlaşmağa kömək edən təcrübələri sınamaqda fayda var. Bədənə diqqəti və qayğını inkişaf etdirən təcrübələr stres reaksiyasını dayandırmağın ən təsirli yoludur.

Sevdiyimiz insanlarla yenidən əlaqə qurmaq. İnsanlar arasında əlaqələr real və faydalıdır. Tənhalıq vaxtından əvvəl ölüm riskini 20-30% artırır. Kədərli, yorğun və ya qəzəblilik insan dəstəyinə ehtiyacın olduğunu göstərən əlamətlərdir. Onsuz istirahət etmək və bərpa etmək çətin olacaqdır. Bizi diqqətlə dinləyən və güvən hissi yarada bilən yaxın insanlara ehtiyac vardır: ailə ilə vaxt keçirtmək, valideynləri ziyarət etmək, dostlarla görüşmək. Digər insanlarla olan bu qeyri-rəsmi təmaslar təkcə bizim rifahımıza faydalı təsir göstərmir, həm də emosional intellekt və ünsiyyət bacarıqlarımızı təkmilləşdirməyə kömək edir.

Səyahət etmək. Səyahət təkcə istirahət etmək və gündəlik işlərdən ara vermək üçün əla fürsət deyil, həm də şəxsi inkişaf və özünü təkmilləşdirmək üçün çox təsirli vasitədir.

Motivasiya axtarışına çıxmaq. Bir çox yaradıcı insanlar həyatlarında ən azı bir dəfə ideyaların gəlmədiyi və işin həddindən artıq zəhmətlə davam etdiyi zaman yaradıcı böhranla üzləşirlər. Böhranı aradan qaldırmağın, yeni motivasiya əldə etməyin ən yaxşı yollarından biri açıq havaya çıxmaqdır. Məşhur rəssamlar, şairlər, bəstəkarlar motivasiya axtarışında şəhərləri tərk edərək rayon və kənd yerlərində otellərə gedirlər.

Məqsədləri müəyyənləşdirmək. İstirahət bir növ yenidən başlamaq deməkdir. Əvvəlki məqsədlərə nail olmaq səviyyəsini qiymətləndirmək və yenilərini təyin etmək mümkündür. Yeni bir məqsəd seçilməli və ona nail olmaq üçün hansı yeni vərdişlərdən istifadə edilə biləcəyi düşünülməlidir.

Beləliklə, karyerada yüksəkliklərə çatmaq üçün şəxs məhsuldar işə ehtiyacı bir müddət unutmalı, özünə icazələr verməyi öyrənməlidir. Sadəcə istirahət etməyə çalışmaq, istirahəti şəxsi vaxt kimi deyil, işin bir hissəsi hesab etmək lazımdır. İstirahət işin yalnız həcmini və sürətini artırmaq deyil, keyfiyyətini artırmaq məqsədi daşımalıdır. İstirahət həyatımızın iş ilə eyni dərəcədə vacib hissəsinə çevrilməlidir. İstirahət həm sağlamlıq, həm də maddi rifah üçün həyati əhəmiyyət kəsb etməlidir. İş və istirahət bir-birini ahəngdar şəkildə tamamlamalı, lazımi tarazlığı yaratmalıdır. Hər kəs iş və istirahəti düzgün birləşdirməli, iş həftəsinin ortasında və ya həftə sonlarında yaranan istirahət vaxtlarından maksimum

yararlanmalıdır. İş və istirahətin ahəngdarlığı karyerada uğura aparan ən yaxşı yoldur.

# КЫРГЫЗСТАНДА БЛЭЖЕР ТУРИЗМДИН ПОТЕНЦИАЛЫ THE POTENTIAL OF BLEISURE TOURISM IN KYRGYZSTAN (KIRGIZİSTAN'DA BLEISURE TURİZMİNİN POTANSİYELİ)

**Асанова Кымбат**[1]
**Кожобиева Нуриза**[2]

Бул иште учурда популярдуу болгон “блэжер” (bleisure) туризмдин тарыхый өнүгүшү, өзгөчөлүктөрү, блэжер туристтердин салттуу туристтерден айырмасы, алардын адаттары менен талаптары каралып чыгып, Кыргызстандагы орду менен дараметин аныктоого аракет жасалган. Блэжер термини дүйнөдөгү эң белгилүү даанышмандык компаниялардын бири болгон "The Future Laboratory" тарабынан эң биринчи жолу колдонулган. Бизнес, эс алуу жана саякат түшүнүктөрүнүн чек аралары жоюлуп, тескерисинче өз ара чырмалышкан символиканы чагылдырган блэжер туризми учурда дүйнөлүк эмгек базарынын маңызын толугу менен өзгөрттү (Tsaur & Tsai, 2023).
Туризм түрлөрүнүн катарын толуктаган блэжер туризмдин өнүгүүсүнүн катализатору Covid-19 болуп (Walia, 2023) , ал бизнес, салттуу жана рекреция туризмдеринин гибриди катары таанылат. “Блэжер саякатчылар" термини көбүнчө иш сапарларынын тажаткан тартиптеринен качуу үчүн иш менен көңүл ачууну айкалыштырган адистерди сүрөттөө үчүн колдонулат Блэжер тенденциясы өсүүдө болгону менен саякаттын бул гибрид түрү боюнча изилдөөлөр жетишсиз (Lichy &McLeay, 2018). “Дүйнө жүзү боюнча ар бир үчүнчү саякатчы иш сапарларынын жок дегенде бирине эс алуу компонентин кошот”, дейт Global Business Travel Association өкүлү Jeanne Liu (BBC.com).
Төмөндөгү Сүрөт 1 де Allied Market Research тарабынан жасалган дүйнөлүк блэжер туризмдин рыногунун 2032-жылга чейинки божомолу берилген. Allied Market Research компаниясына ылайык 2022-жылы дүйнөлүк блэжер базары 315,3 миллиард долларды түздү жана 2032-жылга карата ал эки эсеге көбөйүп, дүйнө жүзү боюнча 731,4 миллиард долларга жетет деп күтүлөт. Жылдык орточо өсүш (CAGR) 8,9% түздү.

[1] Kyrgyz Turkish Manas University, kymbat.asanova@manas.edu.kg, ORCID ID 0000-0002-8076-8743
[2] Kyrgyz Turkish Manas University, kozhobieva01@gmail.com




**Сүрөт 1.** Дүйнөлүк блэжер туризминин базары
**Булак:** Libby Zay (2023)

Көптөгөн иш берүүчүлөр блэжер туризмди колдогону белгилүү, себеби, саякаттын жыргалчылыгы жумуштан канааттануу деңгээлин жогорулатып, кызматкерлердин натыйжалуулугун, ошону менен бирге лоялдуулугун жогорулатат. Көптөгөн уюмдар Covid-19 жайылышын басаңдатуу үчүн алыстан иштөө саясатын кабыл алышкан жана бизнес конференциялар виртуалдык чөйрөдө белгилүү бир ийгиликке жетишишкен. Covid-19 пандемиясынын саякат чектөөлөрүнө жана дистанттык жумуш орундарынын көбөйүшүнө жооп катары блэжер туризминин өсүшү байкалды. Учурда профессионалдык жашоосун эс алуу менен бириктирүүнү тандаган санарип көчмөндөр менен MICE туризмге катышып, барган жеринде калуу мөөнөтүн узарткан адамдар блэжер турист катары деп кабыл алынат.

"Бизнес" жана "эс алуу" деген сөздөрдүн айкалышынан келип чыккан "блэжер" түшүнгүгү иш сапарлары менен эс алуу саякаттарынын атайылап айкалыштырылганын сүрөттөйт (Tala et al., 2011). Бирок блэжер туризмдин мааниси убактылуу өргүү алуу, же дистанттык иштөө деген түшүнүктөн тереңирээк мааниде каралып, иш сапарлары анын өнүгүүсүнүн негизинде болуп, учурда дагы деле биринчи орунда иш, андан кийин гана эс алуу туураарын баса белгилеп кетүү зарыл.

Бул изилдөөдө блэжер туристтердин талаптарына жооп бере турган керектүү санариптик инфраструктуранын абалы туралуу маалымат туризм жаатында билим берген окутуучулардан, адистерден, туризм ишканаларынын жетекчилери менен ээлеринен  сандык жана сапаттык методу арыкылуу топтолду. Эс алуу жана бизнес туризм чөйрөсүндө ишмердүүлүгүн жүргүзгөн ишканалардын саны менен түрү боюнча маалымат илимий жана интернет булактардан, анын ичинен 2GIS платформасынан алынып, блэжер туризмдин Кыргызстандагы абалын аныктоого аракет жасалды.

Украина менен Орус Федерациясынын ортосунда чыккан согуштан улам 2022-жылы 446 574 Орусия жарандары Кыргызстанга киргени маалым. Анын ичинен 17 миң Орусия жараны Кыргызстанга иш сапары менен келсе, 42 миң автотранспортту тейлөөчү персонал катары кирген. Ал эми 69 миң орусия жараны туристтик максатта келгенин билдирип, 313 469 кишинин олуттуу пайызы жеке себеп менен чек араны кесип өткөнүн билдиришкен. (Кактус медиа, 2023) Физикалык түрдө Кыргыз республикасында жашап, бирок дистанттык түрдө башка өлкөлөргө иштегенден тапкан акча каражаттары менен Кыргызстандын жашоо минимуму арасындагы позитивдүү айырмачылыгы, өлкөнүн блэжер туризм үчүн оптималдуу болгондугун жарыялоодо.

Ушундан улам өлкөдө блэжер туристтер базардын жаңы сегменти катары каралбашы, же салттуу туристтер катары кабыл алынуусу мамлекетибиз үчүн жаралган мүмкүнчүлүктөрдөн пайдаланбашына алып келет. Мүмкүнчүлүктү жакшы уюштуруу менен аны күчтүү жакка кошуу учурдун маанилүү маселеси болуп саналат.

Ачкыч сөздөр: MICE туризм, блэжер (bleisure) туризм, рекреация туризм, Covid-19, салттуу туризм.

# ТУРИЗМ МАРКЕТИНГИНДЕ САНАРИП ТЕХНОЛОГИЯЛАР: ОРТО АЗИЯ ӨЛКӨЛӨРҮНҮН МИСАЛЫНДА (TURİZM PAZARLAMASINDA DİJİTAL TEKNOLOJİLER: ORTA ASYA ÜLKELERİ ÖRNEĞİ)

**Assos.Prof. Naryngul MARGAZIEVA** [1]
**Aydana BAKITBEKOVA**[2]

Интернет маркетинг пейзажын өзгөртүп, глобалдык жеткиликтүүлүктү жана керектөөчүлөр менен байланышуу ыкмаларын кеңейтти. Учурда аралыкка карабастан, дүйнөнүн каалаган бурчунда максатталган аудиторияга жете алуу мүмкүн. Интернет ишканаларга керектөөчүлөрдүн көңүлүн натыйжалуу тартууга жана сактап калууга мүмкүндүк берген контентти түзүү жана жайылтуу үчүн күчтүү курал болуп калды. Алар максаттуу жарнамалык кампанияларды жүргүзүп, жекелештирилген сунуштарды ыңгайлаштыра алышат жана керектөөчүлөрдүн жүрүм-турумун изилдөө үчүн аналитикалык куралдарды колдоно алышат.
Санарип технологиялар туризмдин туруктуу өнүгүшүнө да салым кошот. Алар ресурстардын натыйжалуулугун жогорулатууга жана экологиялык жоопту туризмди өнүктүрүүгө жардам берет.
Туризм маркетингинде колдонулган санарип технологиялардын негизги категориялары төмөндө берилген:

- Мобилдик тиркемелер жана веб-сайттар
- Виртуалдык чындык (VR)
- Кеңейтилген чындык (AR)
- Чоң маалыматтар (Big Data)
- Жасалма интеллект (AI)
- Маалыматтык коопсуздук (Cyber security)

Мобилдик интернет эң интерактивдүү интернет байланыштарынын бири. Ал интерактивдүү гана болбостон, колдонуучулардын өз ара аракеттенүүсүнүн көптөгөн ыкмаларын камсыз кылат (Бугаев, 2012). Мобилдик тиркемелер керектөөчүлөр үчүн ыңгайлуу жана оңой. Алар жекелештирилген сунуштарды берүү жана брenддин лоялдуулугун жогорулатуу үчүн жаңы мүмкүнчүлүктөрдү ачат.

[1] Кыргыз-Түрк “Манас” университети, naryngul.margazieva@manas.edu.kg, ORCID No 0000-0002-0859-7863
[2] Кыргыз-Түрк “Манас” университети, aidanabakytbek0@gmail.com ORCID No 0009-0000-1187-7172

Чоң маалыматтар жана аналитика инновацияларды өнүктүрүүгө жана туристтик кызматтарды жакшыртууга, процесстерди оптималдаштырууга жардам берет. Мисалы, кардар маалыматтарынын негизинде жаңы саякат өнүмдөрүн иштеп чыгып, брондоо жана логистикалык процесстерди оптималдаштыруу мүмкүн (Samara ж.б., 2020). Виртуалдык чындыкты (VR) туризмде, негизинен, виртуалдык турларды түзүүдө колдонулат. Саякатчылар VR-технологиясын колдонуп, үйүндө отуруп таптакыр жаңы жерлерге жана чөйрөлөргө чөмүлө алышат. Кеңейтилген чындык (AR) туризм тармагында да маанилүү ролду ойнойт. AR-технология реалдуу дүйнөгө виртуалдык элементтерди жана маалыматтарды кошууга мүмкүндүк берет, аны күчтөндүрөт жана кабылдоонун жаңы жолдорун сунуштайт. Мисалы, саякатчылар AR функциясы бар мобилдик тиркемелерди колдонуп, алар көргөн объектилер жөнүндө көбүрөөк маалымат алышат. Мындай окуялар салттуу оюн - зоокторду толуктап же алмаштыра алат жана жаңы, кызыктуу тажрыйбаларды издеген туристтерди тарта алат (Dwivedi ж.б., 2022).

Туризм тармагындагы жасалма интеллект системалары өз алдынча системалар же тиркемелерге орнотулган болушу мүмкүн. Бул системаларга сунуштоо системалары, жекелештирген системалар, баарлашуу (чат-боттор жана үн жардамчылары), автономдуу агенттер, тил котормо колдонмолору жана акылдуу туризм багыттары сыяктуу системалар камтылат (Bulchand-Gidumal, 2020). Ал эми туризм тармагындагы киберкоопсуздук - бул орчундуу маселе. Санарип технологияларды колдонуунун көбөйүшү менен маалымат коопсуздугуна жана купуялуулугуна жаңы коркунучтар пайда болот. Туристтердин жеке маалыматтары хакердик чабуулдар, зыяндуу программалык камсыздоо сыяктуу түрдүү коркунучтарга дуушар болушу мүмкүн. Маалымат коопсуздугунун жетишсиздиги туризм ишканалары жана кардарлар үчүн терс кесепеттерди алып келиши мүмкүн.

Изилдөөнүн максаты: Орто Азия өлкөлөрүнүн мисалында туризм маркетингиндеги санарип технологиялардын колдонуусун изилдөө.

Изилдөөнүн ыкмасы: Изилдөөнүн алкагында Орто Азиянын туризм маркетингиндеги жаңы технологиялардын талдоосу жүргүзүлүп, аймактагы туризм ишканаларынын жана уюмдардын маркетинг стратегияларында виртуалдык жана кеңейтилген реалдуулук (VR-AR), Big Data, жасалма интеллект (AI) жана кибер коопсуздук жаатында технологияларды колдонуу боюнча контент анализи жүргүзүлдү. Түркмөнстанда туризм тармагындагы актуалдуу маалыматтарды табуу кыйынчылык туудургандыктан изилдөөгө камтылган жок.

Азыркы учурда Орто Азия мамлекеттеринде AI технологиясын, туризм секторунда колдонуунун мисалдары кездешпейт же ачык булактарда маалымат жок. Big Data технологиясын өнүктүрүү максатында, Орто Азия өлкөлөрүндө бир канча иш-чаралар каралып, проекттер жүргүзүлүп жатат. VR жана AR технологиялары Өзбекстандын туризм индустриясында толугу менен колдонулуп, VR турлары - ар бир регион, шаар, шаарча, музейлер жана башка туристтик дестинацияларга онлайн тур өткөрүү

мүмкүнчүлүгү бар. Ал эми Таджикистанда изилдөө жүргүзүлгөн учурда аталган технологияларды колдонбогондугу аныкталган.




Сүрөт 1. VR жана AR технологияларынын Орто Азия өлкөлөрүндө колдонулушу.

Кибер коопсуздук рейтингинде Казахстан Орто Азия өлкөлөрү арасында алдыңкы орунду ээлесе, Өзбекстан экинчи, Кыргызстан үчүнчү жана Таджикистан төртүнчү орунда турат.

Изилдөөнүн натыйжасында, Орто Азия өлкөлөрү туризм маркетингинде санарип технологияларды колдонуу мүмкүнчүлүгүнө ээ жана кээбир технологияларды ийгиликтүү колдонуп жатканы аныкталды. Бирок региондо технологияларды колдонуу деңгээли бирдей эмес жана айрым өлкөлөр өздөрүнүн технологиялык инфраструктурасын андан ары колдоого жана өнүктүрүүгө муктаж.

Орто Азиянын туризм маркетингинде жаңы технологияларды колдонууну жакшыртуу инфраструктураны, билим берүүнү, маалымат коопсуздугун өнүктүрүүнү, кызматташууну жана инновацияларды колдоону камтыган комплекстүү мамилени талап кылат. Бул регионго Орто Азиянын туризм индустриясынын атаандаштыкка жөндөмдүүлүгүн жана жагымдуулугун жакшыртуу үчүн жаңы технологиялардын потенциалын пайдаланууга мүмкүндүк берет.

Ачкыч сөздөр: Санарип технология, туризм, Орто Азия, VR, AR.

# MACƏRA TURIZMI VƏ ONUN AZƏRBAYCANDA INKIŞAF PERSPEKTIVLƏRI (AZERBAYCAN'DA MACERA TURİZMİ VE GELİŞİM PERSPEKTİFLERİ)

**Elmira XƏLILOVA**[1]

Macəra turizmi İkinci Dünya Müharibəsindən sonra geniş populyarlıq qazandı. Bu gün macəra turizmi hələ də dinamik şəkildə inkişaf edən kifayət qədər kiçik bazar yeridir. Bəzi ölkələr (Yeni Zelandiya, Hindistan) macəra turları təklifi sayəsində gələn turist axınının 40%-ə qədərini öz vətəndaşları hesabına təmin edirlər. Latın Amerikası (Meksika, Braziliya) və Afrika (Keniya, Namibiya) ölkələri bu istiqaməti fəal şəkildə inkişaf etdirirlər. Ümumdünya Turizm Təşkilatının ekspertlərinin fikrincə, macəra turizmi son illərdə ən populyar turizm istiqamətlərindən biridir. Dünyada macəra turizmi bazarını öyrənən, ən məşhur beynəlxalq təşkilat olan Macəra Ticarət Səyahətləri Assosiasiyası macəra turizmini "fiziki aktivliyi, təbiətlə əlaqəni, mədəniyyətlə qarşılıqlı əlaqəni" özündə ehtiva edən səyahət kimi müəyyən edir (Bucklay, 2006). Macəra turlarının iştirakçıları risk almağa hazır olan insanlardır. Macəra turizmi bazarının operatorları qeyd edirlər ki, səyahətçilər arasında ən çox maraq son zamanlar texnogen fəlakətlər və ya siyasi hadisələr səbəbindən turist axınının çatışmazlığından əziyyət çəkən ölkələrdir (Yaponiya, Haiti, Ruanda və s.). Belə ölkələrdə macəra turizminin inkişafı ətraf mühitin bərpasına və siyasi vəziyyətin normallaşmasına xidmət edərək, onları digər turizm növləri üçün daha cəlbedici edib. Bu turizm növündə turların qiyməti yüksək olur. Turistlər maraqlı sərgüzəştlər və unikal təcrübələr üçün yüksək qiymətlər ödəməyə hazırdırlar. Bu turizm növündə səyahət edənlərin orta hesabla xərcləri təxminən 3 min ABŞ dolları təşkil edir. Turizmdən birbaşa gəlir turistlər tərəfindən vergilər, əmək haqqı ödənildikdən və idxal məhsullarını aldıqdan sonra ölkədə qalan turist xərclərinin məbləğidir. Bu xərclərə "sızma" deyilir. Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) qeyd edir ki, kütləvi turizmdə turist xərclərinin təxminən 80%-i yerli biznes və ya sahibkarlardan deyil, hava yolları, mehmanxanalar və digər beynəlxalq şirkətlərdən (çox vaxt baş qərargahı turistlərin olduğu ölkələrdə yerləşir) gəlir. Bundan başqa macəra turizmi şirkətləri ekoloji cəhətdən məsuliyyətli təcrübələrə sadiqdirlər. Onlar başa düşürlər ki, toxunulmamış təbii yerlər olmadan onların turizm istiqamətləri rəqabət qabiliyyətini itirəcək və turistlər başqa istiqamətləri seçəcəklər (Rockenes, Valkonen, 2018). Azərbaycanın rəngarəng landşaftının ayrılmaz hissəsi olan dağlıq və qayalıq ərazilər alpinizm və onun tərkib hissələri olan qayayadırmanma, buzadırmanma,

[1] Mingəçevir Dövlət Universiteti, elmira_34@hotmail.com,ORCİD: 0009-0003-8828-8482

dağ texnikası, həmçinin dağ və piyada turizminin inkişaf etdirilməsinə əlverişli şərait yaradır.
